Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi



3

# MİKAYIL MÜŞFİQ

seçilmiş əsərləri

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Ш6
M97

2447639

## MİKAYIL MÜŞFİQ



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

### ÜÇ CİLDDƏ
### III CİLD

M.F ... adına
Az...

"AVRASİYA PRESS"
BAKI-2008

Tərtib edəni və redaktoru: **Gülhüseyn Hüseynoğlu**

**894.3611-dc22**
**AZE**
**Mikayıl Müşfiq. Seçilmiş əsərləri.** Üç cilddə. III cild. Bakı, "Avrasiya press", 2008, 256 səh.

**ISBN 978-9952-442-07-6**

© "AVRASİYA PRESS", 2008

# UŞAQLAR ÜÇÜN MƏNZUM NAĞILLAR

## 1934

# ŞƏNGÜL, ŞÜNGÜL, MƏNGÜL

Biri varmış, biri yoxmuş,
Məzlumların dərdi çoxmuş.
Saqqallı bir keçi varmış,
Gəzdiyi yer qayalarmış.
Dağdan-dağa atlanaraq,
Hər zəhmətə qatlanaraq
Yaşarmış öz əməyilə,
Başqasının köməyiylə
Dolanmaqdan utanarmış.
Onun üç yavrusu varmış:
Biri Şəngül, biri Şüngül,
Biri də balaca Məngül.

Şəngülün gözləri qara,
Bənzəyirdi ceyranlara.
Şəvə tükü buruq-buruq,
İncə baldır, qısa quyruq.
Yeni çıxmış buynuzları,
Buxağında qotazları.
Bir yaşında maral çəpiş,
Bacaqları bir dal çəpiş.

Şüngülün gözləri nərgiz,
Sanki dünyadan xəbərsiz.

Gecə-gündüz oynaqlardı,
Anasını qucaqlardı.
Yuxa tükü bəyaz, yumşaq,
Qulaqları sanki zanbaq.
Alnındakı qaşqa gözəl,
Yoxdu bundan başqa gözəl.

Hələ bircə Məngülə bax,
Ayağında səkilə bax.
Yoxdur böylə gözəl çəpiş,
Nazlı çəpiş, təpəl çəpiş.
Yumşaq tükü ala-bula,
Tamamilə başa bəla!

Hər sabah, gün doğar-doğmaz,
Qaranlığı boğar-boğmaz,
Keçi yatağından durub,
Şəngülün halını sorub,
Şüngülə nəzər salardı,
Məngüldən öpüş alardı.
Qapıları gülə-gülə
Bağlayıb çıxardı çölə.
Yamaclarda otlayaraq,
Qayalardan atlayaraq,
Dərələrdən su içərdi,
Yoxdu qəmi, yoxdu dərdi.
Otlamaqdan qayıdarkən,
Çağırardı keçi birdən:
– Şəngülüm, Şüngülüm,
Məngülüm,
Açınız qapını mən gəlim.
Ağzımda su gətirmişəm,



Döşümdə süd gətirmişəm,
Buynuzumda ot gətirmişəm,
Bu sözləri eşidincə,
Mələşərdi incə-incə,
Yalnız qalan bu çəpişlər,
Hər üçü sevinər, gülər,
Tez qapını açardılar,
Qanadlanıb uçardılar.
Anaları süd gətirmiş,
Buynuzunda ot gətirmiş.
Yeyərdilər, içərdilər,
Bilməzdilər qüssə, kədər.
Çəpişlərin anaları,
Öpüb xırda balaları,
Qapıları gülə-gülə
Bağlayıb çıxardı çölə.
Bu dağ mənim, o dağ sənin,
Yem toplardı yeyin-yeyin.
Döşlərinə süd yığardı,
Buynuzuna ot yığardı.

Qış getmişdi, yaz olmuşdu,
Elin kefi saz olmuşdu.
Bəzənmişdi dağlar, daşlar,
Gecə-gündüz uçan quşlar,
Göy üzünü dolanırdı,
Daşqın çaylar bulanırdı.
Ala qarlı uc dağlar,
Qış dərdini çəkən bağlar,
Geyinmişdi yaşıl köynək,
Hər yan güldü, hər yan çiçək.

Ana keçi, hallı keçi,
Məmələri ballı keçi
O dağlardan, bu dağlardan,
Durna gözlü bulaqlardan,
Yeyib, içib ətə dolur,
Məmələri südə dolur.
Ana keçi, ana keçi,
Qurban olum sana keçi!
Səni gözlər Şəngül, Şüngül,
Yuxa tüklü gözəl Məngül,
Səni gözlər çəpişlərin.

Sular axır sərin-sərin,
Şirin otlar dalğalanır,
İnsan baxır, havalanır.
Dərəyə en, dağlara çıx,
Yerlər açıq, göylər açıq.
Fəqət bir gün hər tərəf çən,
Görünməzdi gəlib-keçən.
Girəvə düşmüşdü qurda,
Dolaşırdı orda-burda.
El içində bir məsəl var:
"Qurd dumanlı gün axtarar".

Qurd çox gəzdi, çox dolaşdı,
Dərələr, təpələr aşdı,
Xatırladı Şəngül, Şüngül,
Yuxa tüklü gözəl Məngül
Yataqda yalnızdır, çapdı,
Gəldi çəpişləri tapdı.



Yazın bu çənli günündə
Durdu yatağın önündə.
Bir az duruxdu yerində,
Od parladı gözlərində.
Səsini dəyişdirərək,
Qurddur, tanınmasın gərək,
Dedi: – Şəngülüm, Şüngülüm!
Ey ceyran gözlü Məngülüm!
Ağzımda su gətirmişəm,
Döşümdə süd gətirmişəm,
Başımda ot gətirmişəm.
Tez olun açın qapını, –
Çəpişlər eşitdi bunu.

Yazıq çəpişlər sevincək
Anaları zənn edərək
Gəlib qapını açdılar,
Qurdu görüncə çaşdılar.
Ah, bu zalım, ağzı qara,
Hücum etdi yazıqlara.
Şəngülü, Şüngülü yedi,
Məngülü tapa bilmədi.
Kefi duru, damağı çağ,
Qapını açıq qoyaraq,
Çıxdı qaçdı bu qaniçən,
Bürümüşdü ətrafı çən.

Ana keçi dağda-daşda,
Gah o başda, gah bu başda,
Gah dərədə, gah ormanda,
Gah o yanda, gah bu yanda,

Sıldırım dağlar başında,
Qayaların dik qaşında,
Doyunca ot yedi gəldi,
"Balalarım!" – dedi gəldi.
Gəldi yatağın yanına,
Titrətmə düşdü canına.
Görüncə qapını açıq,
Yerində duruxdu yazıq.
Durmayıb içəri girdi,
Ətrafına göz gəzdirdi.
– Şəngül, Şüngül, hardasınız?! –
Gördü bir bucaqda yalnız
Məngül qısılıb oturmuş,
Yazıqca boynunu burmuş.
Anasını görən kimi
Dəyişdi halı, görkəmi.
Tez ayağa qalxdı Məngül,
Anasına baxdı Məngül,
Dedi: – Ana, səndən sonra
Bir duyğusuz, ağzı qara
Gəldi girdi evimizə,
Yamanca toy tutdu bizə.
Şəngülü, Şüngülü yedi,
Mənisə tapa bilmədi.

Keçinin ürəyi yandı,
Öz-özünə acıqlandı.
Ansızın çıxdı bayıra,
Bilmədi ki, getsin hara,
Çünki fikri dağınıqdı.
Gəzdi, gəzdi, gəldi çıxdı



Dovşan damının üstünə.
Söydü ona dönə-dönə.
Bacasından bir daş atdı,
Ayağını tappıldatdı.
Dovşan qalxıb, çıxdı dama,
– Neçin söyürsən adama? –
Deyə ona verdi sual,
Ana keçi coşdu dərhal:
– Şəngülümü, Şüngülümü,
Ah, sən yemisən, öyləmi?
Dovşan dedi: – Bağırma çox,
Mənim bundan xəbərim yox!
Haydı get tülküdən soruş,
Get onunla dalaş, vuruş.

Keçinin ürəyi yandı,
Öz-özünə acıqlandı.
Yumruğunu sıxdı, sıxdı,
Gəzdi, gəzdi, gəldi çıxdı
Tülkü damının üstünə,
Söydü ona dönə-dönə.
Bacasından bir daş atdı,
Ayağını tappıldatdı.
Tülkü qalxdı, çıxdı dama,
– Neçin söyürsən adama? –
Deyə ona verdi sual,
Ana keçi coşdu dərhal:
– Şəngülümü, Şüngülümü,
Ah, sən yemisən, öyləmi?
Tülkü dedi: – Bağırma çox,
Mənim bundan xəbərim yox!

Gedib canavardan soruş,
Get onunla dalaş, vuruş.

Keçinin ürəyi yandı,
Öz-özünə acıqlandı.
Yumruğunu sıxdı-sıxdı,
Gəzdi, gəzdi, gəldi çıxdı
Canavar damı üstünə.
Söydü ona dönə-dönə.
Bacasından bir daş atdı,
Ayağını tappıldatdı.
Qurd asmışdı südlü aş,
Daş gəldi düşdü bir baş
Qazançanın içinə.
Canavar dedi: – Bu nə?
Kimdir məni dolaşdıran?
Qazançanı bulaşdıran?
Dam üstündə gəzən kimdir?
Ürəyimi üzən kimdir?
Kimdir dəng edən başımı?
Kimdir tozlayan aşımı?
Keçi dedi: – Coşan mənəm,
Dam üstündə koşan mənəm.
Buynuzlarım qoşa-qoşa,
Hünərin var, çıx savaşa.
Öz-özünə dedi: "Nə var?!" –
Çölə çıxdı tez canavar.
Ana keçi coşdu dərhal,
Canavara verdi sual:
– Şəngülümü, Şüngülümü,
Ah, sən yemisən, öyləmi? –



Qurd keçini aldatmaq,
İşi boynundan atmaq,
İstədisə, olmadı,
Zülm yerdə qalmadı.
Söz qoydular, gedəlim,
İşi ayırd edəlim.
Qaş yenicə qaralırdı,
Günəş solur, saralırdı.
Şövqü düşürdü dağlara,
Çəkilirdi uzaqlara.
Ağ buludlar dəstə-dəstə
Göy üzündən dağlar üstə
Yüngül kölgə salırdılar,
Parçalanıb qalırdılar.
Obanın da mal-qarası,
Heç kəsilmədən arası
Dönürdülər kəndə sarı.
Obanın gözəl qızları
Əllərində badya, qazan,
Nə qədər varsa süd sağan
Gözləyirdilər naxırı,
Deyil sözümün axırı.

Az getdilər, üz getdilər,
Dərə, təpə, düz getdilər.
Yaxında bir qazı vardı,
İnsafsız və tamahkardı.
Ana keçi dala qaldı,
Canavar bir quzu aldı,
Gəldi qazının yanına,
Başladı öz yalanına.

Sovqat qazıya xoş gəldi,
Keçisə əliboş gəldi.
Qazı dedi: – Nə var, keçi?
Doğru yoldan kənar keçi...
Yenə nə var, nə deyirsən?
Qazıdan nə istəyirsən?..
Keçi dedi: – Dərdim çoxdur,
Heç halıma yanan yoxdur.
Bunu aydın bilir hamı,
Qurd yemiş iki balamı.
Qazı dedi: – Yalan demə,
Özgəsinə böhtan demə...
Sən özün çox tərs keçisən,
Keçilərin ən bicisən.
Sən Allahı unutmusan,
Bambaşqa bir yol tutmusan.
Verməyirsən xüms-zəkat,
Hanı gətirdiyin sovqat?
Hər şey anlaşıldı tamam:
"Mən sovqatsız işə baxmam!"
Keçi dedi: – Ey canavar,
Yaxında bir dəmirçi var,
Onun yanına gedəlim,
İşləri ayırd edəlim.

Az getdilər, üz getdilər,
Dərə, təpə, düz getdilər.
Dəmirçiyə çatdı onlar,
Dəmirçi soruşdu: – Nə var?
Keçi dedi: – Bilir hamı,
Mənim ikicə balamı
Zülümkar canavar yemiş,
Hər kəsə bəllidir bu iş.



Qardaş dəmirçi, yaxşı bil,
Yalnız mənimkini deyil,
Obanın qoyunlarını,
Kəndin gözəl davarını
Parçalayan, yeyən budur,
"Mənəm-mənəm!" deyən budur.
Bunun hər bir işi qandır,
Bizimlə köhnə düşmandır.
Dəmirçi çox acıqlandı,
Qurdun hiyləsini qandı.
Dedi: – Gərək indi siz
Vuruşub döyüşəsiniz –
Buraxdı öz işlərini,
Dedi: – Ay qurd, dişlərini
İtiləyim sənin gərək!
Qurd dedi: – Tez elə görək.
Dəmirçi bir mıxçıxaran
Kəlbətin alaraq haman
Buraxıb öz işlərini,
Çəkdi qurdun dişlərini.
Nağılçılar bilir bunu, –
Keçininsə buynuzunu
Yaxşı-yaxşı itilədi,
– Haydı, vuruşunuz! – dedi.

Keçi qızğın, qurd əsəbi,
Parıldadı şəvə kibi
Keçinin də buynuzları.
Qurd gəldi keçiyə sarı.
Keçi gəlmişdi cana,
Qurd atıldı meydana.
Vuruşdular doyunca,
Keçi kəllə vurunca
Qurd bulaşdı al-qana.

Aman, aman, qursağım!
Cırıldı bağırsağım!
Aman, aman, aman vay,
Öldüm, öldüm, ay haray!
Keçi güldü qurda bir az,
Dedi: – Zülüm yerdə qalmaz.
Balalarımı yeməyəydin,
Vay qursağım deməyəydin!



**1935**

## KƏNDLİ VƏ İLAN

Qaranlıq örtülərin
İçində dərin-dərin
Uyuyan yorğun gecə
Xoruzlar ötüşüncə,
Diksinərək oyandı,
Yandı dan yeri, yandı.
Ulduzlar axdı keçdi,
Həsrətlə baxdı keçdi.
Kirəmidləri bayquş
Qanadından qoyulmuş
Daxmalar üzə çıxdı,
Yollar gündüzə çıxdı.
Ağaclar sərin-sərin
Əsən xəfif yellərin
Titrədi nəfəsiylə,
Quşların nəğməsiylə.
Ətirlədi hər yeri
Sabahın çiçəkləri.
Kənddə ucaldı səslər;
Qalxdı, alçaldı səslər.
Həyat bir qanad çaldı,
Kəndi səs-səmir aldı.
Qalxdı çoban ayağa,
Sürünü yaydı dağa;

Çaldı bir incə bəstə.
Kəndlilər dəstə-dəstə
Kənddən uzaqlaşdılar;
Əkinə yaxlaşdılar.
Fəqət əkin, nə əkin...
Hamının ruhunda kin...
Oraq keçməyir işə,
Hamı düşmüş təşvişə;
"Bu il aclıq olacaq,
Gül yanaqlar solacaq". –
Deyə söhbət edirlər,
Tez-tez fikrə gedirlər.
Sünbüllər qarış-qarış...
Hər nəzərdə yalvarış...
"Allaha pənah" deyə
Baxırlar sağır göyə.
Ordan bir səs gəlməyir.
Ruhları yüksəlməyir.
Hamı kədərli, həzin...
Sürünüb dizin-dizin
Yolurlar sünbülləri;
Qabarlanmış əlləri.
Getdikcə göydən günəş,
Yağdırır yerə atəş.
Hamı qan-tər içində,
Dərin dərdlər içində.

Boyda-buxunda uca,
Çolpan adlı bir qoca
Buraxdı tarlasını;
Gələcəyin yasını



Qəlbində duya-duya,
Başında qara xülya,
Bir az dincəlsin deyə
Endi sərin dərəyə.
Əvət, gözəldir dərə,
Gözəldir bu mənzərə.
Gözəldir çağlayaraq
Qıvrılıb axan irmaq.
Gözəldir bu çiçəklər,
Bəzəkli kəpənəklər.
Gözəldir bu ötən quş –
Bir çiçəyə vurulmuş.
Gözəldir yerdə otlar,
Göy üzündə bulutlar.
Gözəldir, dağ, daş, orman,
Gözəldir, əvət, hər yan.
Fəqət Çolpan qəmlidir,
Baxışı şəbnəmlidir.
Bu gözəlliklər onu,
Onun sınıq ruhunu
Aça bilməyir fəqət.
Onun bu il təbiət
Kəndli qəlbini sıxmış;
Əməyi boşa çıxmış.
Çolpan bir az dincəldi,
Yenə tarlaya gəldi.
Sürünüb dizin-dizin,
Çalışdı həzin-həzin.
Nə gördü birdən, aman!..
Qarşısında bir ilan...
Bir az geri çəkildi,
Baxışları dikildi

Heyran-heyran ilana,
Adam vuran ilana.
İlan onu görüncə
Qıvrıldı incə-incə.
Çolpan vurmaq istədi,
Ürəyində "yox" dedi.
Vaz keçdi acığından,
Sonra dağarcığından
Aldı bir parça çörək,
Əsərək, titrəyərək,
Atdı ilana sarı.
İlan da ona sarı
Atdı böyük bir qızıl.
Çolpanın parıl-parıl
Yandı solğun gözləri;
Yaşla dolğun gözləri
Oynadı sevincindən.
Taxılların içindən
Parlayıb işıl-işıl,
Sürünüb xışıl-xışıl,
Qayıtdı getdi ilan,
Gör, nələr etdi ilan...

Artıq günəş üfüqdə,
Sarı, solğun boşluqda
Gülürdü lalə kimi,
Qızıl piyalə kimi.
Buludlar dəlik-dəlik,
Qürubda bir pənbəlik...
Üfüq çox düşüncəli,
Xilqətin gizli əli,



Yerə yayır kölgələr;
Dumanlanır ölkələr.
Sakitdir şəffaf sular,
Gümüş kimi saf sular.
Tutularaq kədərə
Dalğınlaşır dağ, dərə.
Bu axşam Çolpan ancaq
Üfüqlərə dalaraq,
Gözü, könlü sevincək,
Evə dönür gülərək.

Sabah adəti üzrə
Şəfəq altun tüllərə
Bürünüb gülən zaman
Ayağa qalxdı Çolpan.
Yenə getdi biçinə;
Əkinlərin içinə
Girərək həzin-həzin,
Sürünüb dizin-dizin,
Yolurdu sünbülləri.
Qabarlanmış əlləri...
Günəş qızınca yenə
Çolpanın gözlərinə
Haman ilan göründü.
Yavaş-yavaş süründü
İlan Çolpana sarı.
Çolpan da ona sarı
Qorxa-qorxa əsərək,
Atdı bir parça çörək.
İlan qıvrıldı birdən,
Çolpana atdı həmən

Bir parça sarı qızıl.
Çolpanın parıl-parıl
Yandı gözləri, yandı,
Xəyalı işıqlandı.
Parlayıb işıl-işıl,
Sürünüb xışıl-xışıl,
Qayıtdı getdi ilan,
Gör nələr etdi ilan...
Habelə bir neçə gün
Sirrini düşündüyün
İlan ilə Çolpanın,
Çolpan ilə ilanın
Sevdası davam etdi,
Bunu hər kəs eşitdi.

Bir gün Çolpanı artıq
İşdən qoydu hastalıq.
Xəstəliyi ağırdı;
Öz oğlunu çağırdı.
Dedi: – Mehriban oğlum,
Sözümə baxan oğlum!
Sabah sən get əkinə.
O ilan gəlsə yenə,
Sakın toxunma, çünki
Evimizə bugünki
Şənliyi verən odur,
Bizi güldürən odur.
Gəlsə, çörək verərsən,
Gülər üz göstərərsən".
Sabahı bilsəydiniz,
Onun oğlu Eldəniz



Necə gəldi biçinə,
Say yoxdu sevincinə.
Sonra çıxdı dağlara,
Baxdı şən irmaqlara.
Ətrafı seyrə daldı,
Bir müddət orda qaldı.
Yerlər, göylər açıqdı,
İlan yuvadan çıxdı;
O, qızmış qıvrılırdı,
Yazıq oğlanı vurdu.
Gün keçdi, axşam oldu,
Hər şeyin rəngi soldu;
Hər tərəf kölgələndi,
Qaranlıq endi, endi.
Eldəniz harda qaldı?
Hankı diyarda qaldı?
Xəstə atası Çolpan
Ürəyində həyəcan
Baxdı uzun yollara,
Qərib, məhzun yollara.
Qaranlıq endi, endi,
Atası şübhələndi...
Ay doğdu çiçək-çiçək,
Ulduzlar titrəşərək,
Gecəyə can verdilər,
Bir həyəcan verdilər...
Qoca Çolpan bir neçə
Kəndliylə getdi tezcə
Əkinlərinə sarı.
Göyün işılqanları
Ətrafı parlatırdı,
Onun qəlbi atırdı.

Eldənizdən xəbər yox,
İzindən bir əsər yox...
Bu gecə qoca Çolpan
Ruhunda cahan-cahan
Ayrılıq sitəmləri,
Bir cür açdı səhəri.
Erkəndən həzin-həzin
Dərdilə Eldənizin
Sinəsi qalxdı, endi,
Gəzdi bir neçə kəndi.
Eldənizdən xəbər yox,
İzindən bir əsər yox...

Dağ başında bir çoban;
"Yazıq, zavallı Çolpan
Görsə, ürəyi çatlar", –
Deyərək, çəkdi bir car.
Kəndlilər dəstə-dəstə
Dırmandı qaya üstə.
Gəldi təlaşlı Çolpan,
Gözləri yaşlı Çolpan.
Başladı fəryadına,
Sarıldı övladına.
İşini bilən ilan
Çıxmadı yuvasından.
Çolpanın qəlbi yandı,
Bir ocaq kibi yandı,
Dedi: – İlan ilandır,
İnsanlığa düşməndır.
Ağı bir, qarası bir...
Hamsının yarası bir...



Sonra bir sabah erkən
Bu dəhşətdən göynəyən
Kəndlilər dəstə-dəstə
Çıxdılar qaya üstə.
Ürəklərində təlaş,
Əllərində yaraq, daş...
Qıvrılaraq bu ilan
Çıxarkən yuvasından,
Tez üstünü aldılar,
Başına daş saldılar.
Doğradılar, əzdilər.
Tək görə bilməzdilər
Əlbəttə ki, bu işi.
Bağırdı Çolpan kişi:
– Qayanı yıxmalıyız,
Ağ günə çıxmalıyız.

Çarpışıb haftalarca
Qayanı parça-parça
Doğradılar, tökdülər,
Yerli-dibli sökdülər;
Üzə çıxdı xəzinə.
Kəndlilərin gözünə
Yeni bir işıq gəldi,
Şadlıq səsi yüksəldi;
Sevindilər, güldülər,
Xəzinəni böldülər.

Çox zaman Eldənizin
Dərdilə həzin-həzin

Yanıb, inildədilər,
Nifrət olsun, dedilər,
Zəhərli ilanlara,
Xalqı aldadanlara!
Coşdular, titrədilər,
Nifrət olsun, dedilər,
Yoxsulları aldadan,
Ömrünə xələl qatan,
Şahlara, sultanlara,
Dövlətli ilanlara!



# UŞAQLAR ÜÇÜN POEMA

## 1935

# QAYA

### BAŞLANĞIC

Dostlar, gəlin sizə mən bir həyatdan,
Başqa bir aləmdən, bir kainatdan
Açım bir maraqlı, həqiqi səhnə.
Endir, ey xəyalım, ey fikrim yenə
Özünü həyatın dənizlərinə!
Ordan dəyərli bir sədəf yerinə
Əlinə keçsə də bir çınqıl daşı, –
Sevindirmək üçün yarı, yoldaşı, –
Bu da bir əməkdir, bu da bir işdir,
Tarix ki, duz-çörək itirməmişdir.
Döyün, ey ürəyim, döyün dəmbədəm!
Alovlan, ey kağız, alış, ey qələm!

### I

Yirmi üçüncü il, mayıs günləri...
Göylərin yosması o gözəl pəri
Odlu baxışlarla axır, süzülür,
Axşamkı ayazın canı üzülür.
Olduqca nəşəli bir incə gündüz,
Sabir bağçasında bir neçə öksüz...
Yayılmış aləmə Qayanın səsi,
Nə qədər şirindir bu el nəğməsi!

Qaya

Gözəl səhər, gözəl hava,
Zalım ovçu çıxdı ova,
Ceyranımı qova-qova
Atdı vurdu, qan eylədi,
Çatdı vurdu, qan eylədi.

Ceyranımın gözü şəhla,
Onsuz keçər günüm ahla,
Zalım ovçu min günahla
Vurdu ürkək ceyranımı,
Ruhu ipək ceyranımı.

Ay pusquda yatan ovçu,
Yaman güllə atan ovçu,
Əli qana batan ovçu
Artıq yetər, qan eyləmə,
Bu qədər tufan eyləmə!

O xalq müəllimi, qoca qəhrəman,
Keçərkən bağçadan daldı bu səsə.
O bilik mədəni, o böyük insan
Daldı düşüncəyə, qapıldı hissə.

Oturdu ən yaxın bir iskəmləyə,
Onlara bir dərin həsrətlə baxdı.
"Sonu nə olacaq bunların?" – deyə.
Həsrətlə, diqqətlə, heyrətlə baxdı.

Qaya oxuyurdu, Mişka çalırdı,
Biri oynayırdı şirin "Qaytağı".



Müəllim bir acı ləzzət alırdı,
Nədənsə tutqundu qaşı-qabağı.

O, bir heykəl kimi durmuş yerində,
Keçirir gözündən qorxunc şəkillər.
Sonsuz fəlakətin dənizlərində
Bu əl-ayaq çalan kiçik səfillər...

Sən ey çocuqluğun şanlı rəhbəri,
Yoxsa var bunlara sualın sənin?
Qarşında çırpınan bu tifilləri
Haraya çəkməkdir xəyalın sənin?

Hanki bir həvəslə, ey bilik əri,
Bunlara könlünü verməyə gəldin?
Bu başsız, bu sınıq təknəcikləri
Hanki bir sahilə sürməyə gəldin?..

Bayaqdan oynayan, qışqıran, çalan,
Çılğın nəğmələri göyə ucalan,
Bu dəstə tərpənib qalxdı yerindən,
Müəllim onları süzdü dərindən.

Müəllim

Bala, o şərqini söylə, mən yazım.
Rica eyləyirəm.

Qaya

Rica nə lazım?

(*Yoldaşlarına*)

Uşaqlar, siz gedin, mənim işim var,
Lakin son yeriniz olmalı bulvar!

(*Qaya bir-bir dedi, yazdı müəllim*)

Müəllim

Başqa bir nəğmən də varmı?

Qaya

Nə bilim...

Müəllim

Yaxşı, o nəğmə də qalsın sonraya,
Sənə bir sualım vardır, ay Qaya,
Atadan, anadan söylə nəyin var?

Qaya

Çoxdan gömülmüşdür torpağa onlar,
Üzlərini belə görməmişəm mən.

Müəllim

Harda yaşayırsan, nə iş görürsən?

Qaya

Bir az yaxşı deyil işimin adı,
Bir cür keçirirəm mən də həyatı.

Müəllim

Məktəbə getməyə həvəsin varmı?



Qaya

Ay əmi, heç onu soruşarlarmı?
Bax, mənim məktəbim bu küçələrdir,
Aldığım təlimsə sizə zərərdir!
Mənim teatroya çox marağım var!
Böyük çarpışmalar, qızğın davalar
İnsana sürdüyü ömrü andırır,
Adamın qanını alovlandırır.
Yenə keçən gecə "İblis"ə getdim,
Bilsən nələr gördüm, nələr eşitdim!
Orda bəyəndiyim bir yaxşı söz var:
"Biz dağlara hökm edən krallar".
Mən kiməm? Küçələr kralı Qaya.
Aşiqəm kinoya, həm teatroya.

Müəllim

Səni teatro qəmləndirirmi?

Qaya

Mənim bu ürəyim daşmı, dəmirmi?
Mən də bir insanam, qəlbim, qanım var.
Vücudumda sel-sel həyəcanım var.
Bir gün yolum yenə düşdü "Aydın"a,
Bir kimsə qalmamış onun qaydına.
Məni, doğrudan da, ağlatdı Aydın,
Gərək, ay müəllim, orda olaydın.
Eh... Aydın dəlidir, o lap uşaqdır,
İşi gecə-gündüz sızıldamaqdır.
Tökür acığını makinələrə!
Sıxıb yumruğunu vuruş bir kərə!

Onun qapıldığı boş-boş xəyaldır,
Məncə, Dövlət bəyin qanı halaldır.
Əkşi, qurban olum bolşeviklərə,
Onların ipini eşdi bir kərə.

Müəllim

Sən ki, bu şeyləri bilirsən, niyə
Bir son qoymayırsan bu səfilliyə?

Qaya

Mən öz ürəyimi sıxa bilmirəm,
Bir tordur düşmüşəm, çıxa bilmirəm.
Bir də yoldaşlarım, yaranlarım var,
Onlarla əhdim var, peymanlarım var,
Bilirəm bu yolun sonu qazıqdır,
Bu yol yolçuları hamsı yazıqdır.
Nəysə, bir şey bizi yeyir qurd kimi,
Ömrümüz tez keçən bir bulud kimi.
Bu yolun sonu bir qorxunc enişdir,
Bu da bir həyatdır, bu da bir işdir.

Müəllim

Heç savadın varmı?

Qaya

Bir azacıq var,
Qoymadı artırım bizim bu dostlar.
Bir gün bu "Kommunist" küçəsində biz
Gördük dövrəmizdə iki-üç milis,
Sürüylə qabağa saldılar bizi;



Çocuqlar evinə aldılar bizi.
Bilirsən, insanlar başqa-başqadır;
Ordan öncə qaçan bizim Mişkadır.
Bu aləm olmuşdu bizlərə zindan,
Bir neçə yoldaşım qaçdı sonradan.
Mən qaldım iki il, oxudum bir az,
Deməklə hamsını qurtarmaq olmaz;
Sonra yoldaşları böylə görüncə,
Əkildim oradan mən də bir gecə.

Müəllim

Ay oğul, aləmə yaxşı nəzər qıl,
Sən gəl bu dəstədən bir yolluq ayrıl,
Onların gözünə görünmə bir də!

Qaya

(*düşünərək*)

Bir gün çürüyəcək ömrüm Sibirdə.
Bilirəm bu həyat, bilirəm nədir,
Bir qanlı meydandır, acı səhnədir.

Müəllim

Bilirsən, uzaq ol, axırın heçdir.
Topla iradəni, sanma ki, gecdir.
Bax, mən müəlliməm, dinləsən məni,
Aparıb qoyaram məktəbə səni.
Bu çirkin işlərə bir son qoyarsan,
Orda həm işlərsən, həm oxuyarsan.

Qaya

Qoy bir fikirləşim.

Müəllim

Yaxşı, fikirləş.
Ancaq yaxşı düşün, yaxşı fikirləş!
Adresim də budur... bizə gəl sabah.
Açarkən mən sənə bir yeni şəhrah,
Böyük insanlara qarışacaqsan,
Onlarla həyatda yarışacaqsan.
Qızğın səfalətin çoraq çölləri,
Dalğa-dalğa axan böyük selləri,
Çox çəkib özünə məhv eyləmişdir,
Həyatda çoxları səhv eyləmişdir.
Xəta əl verməmiş bu insanlığa,
Sürükləmiş onu pərişanlığa.
Oğul, al əlinə ixtiyarını,
Bu müdhiş aləmin kabuslarını
Əlinlə, ağlınla sil gözlərindən,
Həyatı düşünüb anla dərindən.
Sabah gəl mənimlə gedək bərabər,
Qaranlıq yoluna doğsun günəşlər.

## II

Müəllim gözlədi, Qaya gəlmədi,
Deyən faydasını yenə bilmədi.
Müəllim gözlədi, kim bilir, Qaya
Qapılmış hanki bir qara sevdaya.
Nə qədər gözləsin müəllim yazıq?
Edir gövdəsinə qəlbi ağırlıq.
Müəllim gözlədi, bir ay gözlədi,
Qayanın özündən haray gözlədi.
Dil-dil ötən Qaya, düşünən Qaya
Deyən müəllimi almadı saya.



Müəllim keçdiyi yollara baxır,
Qayanın həsrəti könlünü yaxır.
O, on beş yaşında nələr bilməyir?
O hansı sahədən xəbər bilməyir?
Bilir işlədiyi xətasını da,
Bilir bu dünyanın mənasını da.

Ovlamış Qayanı böyük oğrular,
Böyük oğrulara olmuş əlaltı.
Yaxşı gəliri var, yaxşı pulu var.
Pul içində üzür onun həyatı.
Şəhərin ən dərin bir bucağında
Yaşayır bu kiçik səfil bəxtəvər.
Onu bir mum kimi tifil çağında
Keçirmiş əlinə pərgar həriflər.
Onun ürəyində bir ikilik var,
Qəlbi qüssələnir bu ikilikdən,
Bilir bu aləmə tanış olanlar,
Onun iradəsi sərtdir çəlikdən.
Bir dəfə özünə desəydi: "Əl çək!"
Bilirəm, bu yola düşməzdi bir də.
Gülərdi üzünə böyük gələcək,
Dərdini çəkməzdi onun şair də.
Yeni insanlardan uzaqdır Qaya,
Gündüz "işdən" çıxıb,, uzun gecələr
Gedərkən kinoya, ya teatroya,
Evə qayıtdımı, nə bilməcələr,
Nə hisslər almayır onun ruhunu?..
Gördüyü səhnələr, şəkillər həmən
Şanlı bir aləmə çağırır onu.
Deyir öz-özünə: "Nə alçağam mən!"

## III

Qayanın böylə bir keçmişi vardı:
Xızı dağlarında onlar yaşardı.
Deyirlər, atası kənddə çobanmış,
Nədənsə hirsindən bədəni yanmış.
Sürüdən üç qoyun satmış bir dəfə,
Yoldaşlı dağlarda dalmışdır kefə.
Bu işdən ağası xəbər tutunca,
Üzünü, gözünü çox turşudunca,
"Haqqımı satmışam!" – deyə köpürmüş,
Ağası ondakı üsyanı görmüş,
Ordaca bir güllə çaxmış başına,
Qıymış budaqların can yoldaşına.
Qaya gəlməmişdi onda dünyaya,
Buludlar qoynunda bənzərdi aya.
Köməksiz anası tökərdi qan-yaş,
Bir sabah ruhunda duydu bir təlaş:
Qaya bir dür kimi doğdu dənizdən,
Bir yardım görmədi keçmişimizdən.
Kimsə anasına əl uzatmadı,
Fəryada yetmədi, dada çatmadı.
Qaldı qapılarda qadın, ağladı,
Axırda ürəyi vərəm bağladı.
Zavallı körpəsi əllərdə qaldı,
İtkin maral kimi çöllərdə qaldı.
Bu həyat Qayanın ilk həyatıdır,
Bu səfil insanın ilk həyatıdır.



## IV

Tufanlı bir gecə, qarlı bir gecə,
Toplanmış bir evə yenə gizlicə
Mehriban səfillər, kefləri çağdır,
Kart masa üstündə daraq-daraqdır.

Q a y a

Ürəyim sıxılır, uşaqlar, artıq
Gəlin yığışdıraq, bəsdir oynadıq,
Burdanca bərabər gedək kinoya.

M i ş k a

Zəhləmizi tökmə, bəsdir, ay Qaya!

Q a y a

Teatro necədir?

M i ş k a

O, bundan da pis.
Görürsən qızışıb yenicə məclis!
Ver bangi!

P o l a d

Pul çıxar!

M i ş k a

Ver bangi!

P o l a d

Pul çıxar. Birdən qızışma!

M i ş k a

Deyirəm sənə, ver!

*(Mişka uduzmuş,*
*Boğazı qurumuş, dili qurumuş,*
*Çıxmışdır gözləri hədəqəsindən)*

P o l a d

Qızışma, bu adam qorxurmu səndən?

Şaraq... Guruldadı bir acı sillə,
Düşdü məclisə bir dərin vəlvələ.
Şaraq... bir mis səsi çınladı yenə,
Dostlar bir-birinin düşdü üstünə.
Parladı bıçaqlar, zağlı finkələr;
"Aman, zalım!" – deyə düşdü bir nəfər.
Bu, vuruşanları aralayandı,
Bıçaq sinəsinə heçdən dayandı.
İndi məclisdə bir dərin hüzün var,
Fəqət sanmayınız barışacaqlar.
Bunların acığı göylərə sığmaz,
Polad da quşbazdır, Mişka da quşbaz.

Ağlama, dərdini çəkdiyim Qaya,
Nə çıxar boş yerə bu ağlamaqdan?



Bir pərdə çəkməsən sən bu dünyaya,
Oda düşəcəksən bir gün nahaqdan.
Səni də gözləyir belə bir bıçaq,
Səni də gözləyir bir qəmli dəstə.
Alacaq səni də bu qara torpaq,
Həyata doymadan sinəsi üstə.
Sizin ki, daima gülsəniz belə
Bir matəm süzülür sevincinizdən.
Sizi ki, bir ölüm iztirabilə
Bir qurd gəmirmədə öz içinizdən.

Ölümlə qurtaran bu gecəsindən,
Bu səfil həyatın nəticəsindən
İyrənib evinə qayıdan Qaya,
Dalmış bir uğurlu dərin qayğıya.
Həmən müəllimi yadına salmış,
Başını möhtəşəm xülyalar almış.
"Kişini gözlətdim o zaman", – deyə,
Qapılmış çox dərin bir bədbinliyə.
Anır bu can deyən yoldaşlarını,
Sonra qan-qan deyən yoldaşlarını.
Anır, bu aləmə nifrət eyləyir,
Nifrəti getdikcə şiddət eyləyir.
Anır, ürəyinə başqa şey gəlir;
Görürsən gözündən onun hey gəlir,
Keçir yığın-yığın belə səhnələr:
Fitnələr, ölümlər, nələr, eh, nələr...
Qaya öz-özünə düşünür ağlar,
Onu bu dəhşətə bağlayan bağlar
Görəsən bir kərə qırılacaqmı?
Qaya bu dəstədən ayrılacaqmı?

V

Qaya, səfil Qaya tutulmuş artıq;
Xəyalı çarpaşıq, fikri dağınıq.
O, bəzən özünü boğmaq istəyir,
"Bu rəzil həyatdan nə çıxsın?" – deyir.
Xayr, ey küçələr kralı Qaya!
Ey yorğun, qanadı yaralı Qaya!
Bir dəfə əl çəkib sən keçmişindən,
İslahat evində olan işindən
Bərk yapış, o səni hər düşüncədən,
Əzabdan, qayğıdan və işgəncədən,
Qurtarar. Bu gözəl, geniş dünyaya
Bir yeni ürəklə gəlib, ay Qaya,
Yaşarsan mehriban bir insan kimi,
Böyük qurğu quran bir insan kimi.

Qovdu ruzgar kimi illəri illər,
Dəyişdi zamanlar, döndü fəsillər.
Bir gün bahar oldu, bir gün qış oldu;
Qaya o dəstədən ayrılmış oldu.
İşlədi, oxudu, Qaya yüksəldi,
Bir gün müəllimlə üz-üzə gəldi.

Qaya

Görünür ki, məni tanımadınız,
Günah sizdə deyil, məndədir yalnız.
Mən səfil Qayayam, qoca müəllim!
Ey adı göylərdən uca müəllim!
Xatırında varmı neçə il əvvəl
Olduqca nəşəli, olduqca gözəl,



İlıq, oxşayışlı bir bahar günü,
Sabir bağçasında açıb könlünü
Dedin: "Bu dünyaya yaxşı nəzər qıl,
Gəl sən bu dəstədən biryolluq ayrıl!"
İndi o həyatdan ayrılmışam mən,
Qından qılınc kimi sıyrılmışam mən.

VI

Bir gün bir döngədə bir neçə yoldaş
Yenə şirin-şirin aşıq atırlar.
Hamsının ruhunda dərin bir təlaş,
"Cay!" deyib, "Cuy!" deyib marçıldayırlar.
Gəncliyin o gözəl, ilk yaşlarında
Bunlar səfalətin qurbanlarıdır.
Sərsəm ruhlarında, dik başlarında
Qaynayan keçmişin yadigarıdır.
Ayağı altında bu adətlərin
Həqir torpaq kimi əriyir onlar.
Tutub ətəyindən fəlakətlərin
Bir ölümə doğru yürüyür onlar.
Bunların başçısı köhnə Mişkadır,
Ucaboy, qaraşın bir oğlandır o.
Hər ipdə oynayan, hər şeyə qadir,
Qaya kimi böyük bir tufandır o.

Budur, yanlarından keçdi bir nəfər,
Qoltuğunda qalın, qiymətli cildlər.
Onun şimşək kimi çaxan gözləri,
Uzaq xəyallara baxan gözləri
Parlaqdır göylərin çiçəklərindən;
Birdən Mişka durub qalxdı yerindən:

– Ay uşaqlar, Qaya!..
– Kim?
– Bizim Qaya!..
Hamı təəccüblə baxdı o taya.
Atılan aşıqlar qaldı yerində,
Hamsının heyrətli nəzərlərində
Çırpındı bir maraq, uçdu bir maraq,
Vardı bu heyrətdə böyük təmtəraq.
Mişka bir quş kimi sıçradı qaçdı,
Köhnə həmdəminə ruhunu açdı.

M i ş k a

Mən ölüm, bəri gəl, Qaya, ay Qaya!
Bu qədər xor baxma bizim dünyaya.
Bunlar bütün sənin yarın, yoldaşın,
Mərdümgirizlikdən biryolluq daşın!
Yenə gəl, yenə get, ayrılma bizdən,
Bu saat nə keçir ürəyinizdən,
Deyiniz hazıram!

Q a y a

Mişka, çox sağ ol!
Artıq bambaşqadır tutduğumuz yol.
Artıq aramızda bir uçurum var,
Mənim ayrı dərdim, ayrı yolum var.
Daha mən sizinlə barışa bilməm!
Sizin sıranıza qarışa bilməm!

M i ş k a

Neçin?



Q a y a

Neçinlərin cavabı çətin,
Mən sizi çulğayan bu fəlakətin
Bir zaman üzərək çirkablarında,
Səfalətlərində, əzablarında
Nələr eşitmədim, nələr görmədim?
Orda yaxşılıqdan əsər görmədim.

M i ş k a

Canım, nə yaxşılıq, budur yaxşılıq...

(*Əlini cibinə vurur*)

Q a y a

Xayr, keçmiş ola bu şeylər artıq,
Siz onu özünüz qazandınızmı?
Heç onu çalarkən utandınızmı?
Bu, bir işdən çıxan sinəsi tərli,
Keçmişi zəncirli, paslı, kədərli
Sevincək evinə dönən dulundur;
Ya əli qabarlı bir oğulundur.
O səni qarğıyır bu saat evdə,
Sən bu səfalətli ürəklə sev də,
Baxalım nə olur sonu?

M i ş k a

Ay Qaya!
Bu qədər bənd olma çox da dünyaya.
Bu sabah girimə düşmüşdü bir "yağ",
Hələ görməmişdim böylə bir "ayağ",

Nəhayət, soyaraq buraxdım onu.
Soyulmaq deyilmi həyatın sonu?
Mişkanın əlindən varmı bir qaçan?
Sonradan əlimə keçdi bir "siçan",
Bəlkə bu son sözü unutmuşsunuz?
Çünki siz bambaşqa yol tutmuşsunuz.
Müxtəsər, bu şirin bir ixtilatdır,
Bu da öz yolunda bir cür həyatdır.
Beş günlük ömründə kefə bax, kefə,
Kim gəlmiş dünyaya ikinci dəfə?!.

Qaya

Sizin çəkdiyiniz bu kef zəhərdir,
Sizi içinizdən yeyir, əridir.
Neçin boş baxalım beş günlük ömrə?
Bir anlıq həyat da ölümə görə,
Məncə, qiymətlidir, məncə, dadlıdır.
Həyatın hər anı quş qanadlıdır.
Sizə bu nəşəni, zövqü verən də,
Sizi sərxoş edən, əyləndirən də
Həyatda çırpınan diləkdir, fəqət
Bu dilək kirlidir, bu dilək səqət!
Qaranlıq çökürkən gözlərimizə,
Dostlar ağlayaraq, baxarkən bizə,
Güclə ayrılırız bu şən dünyadan,
Ulduzlu dünyadan, gülşən dünyadan.

Mişka

Qaya, yadındamı, vaxtilə sən də,
Bizimlə birlikdə keflər çəkəndə,
Bir gözəl, yanıqlı şərqi oxurdun?



(*Qaya məlul düşünür*)

Neçin fikirləşib don kimi durdun?
Xatırında yoxmu?

Qaya

Xeyir.

Mişka

Bu saat,
Çağırım oxusun qoy cunquş Murad.

(*Mişka Muradı çağırır*)

Murad

Gözəl səhər, gözəl hava,
Zalım ovçu çıxdı ova...

Mişka

Ay canım, onu yox, o birin oxu,
O qədər ruhumu oxşamayır bu.

Qaya

Neçin bu mahnıya xor baxırsınız?
Görünür ki, sizi dünyada yalnız,
Ölümlü kəlmələr maraqlandırır,
Qan deyən nəğmələr maraqlandırır,
Öyləmi?

Mişka

Arkadaş, öylədir, öylə.
Hər günüm keçməsə bir vəlvələylə,
Gen dünya başıma dar gəlir mənim,
Sanki baharıma qar gəlir mənim.
Oxu, Murad, oxu, o birin oxu!
O qədər ruhumu oxşamayır bu!..

Murad

Mən bir quşam, yox vətənim,
Yoxdur sevib istəyənim.
Atam-anam kimdir mənim?
Bu dünyada, bu dünyada,
Dərd əlindən gəldim dada.

Bir oğlanam, güclü, qoçaq,
Qoltuğumda qanlı bıçaq.
Məni öz dostum satacaq,
Bu dünyada, bu dünyada,
Dərd əlindən gəldim dada.

Qaya

Əvət, öz dostunuz satacaq sizi,
Qana döndərəcək ürəyinizi.
Siz öz içinizdən çürüyürsünüz.
Bir axşam döyünən polad köksünüz
Bir bıçaq altında əriyəcəkdir.
Sizi bir heçliyə sürüyəcəkdir
Tutduğunuz bu yol, bu dəhşətli yol,
Bu sonu uçrumlu, fəlakətli yol.

(*Əl verib küsküncə ayrılır*)



Biri

Ay canım, bəri gəl, o bir kənəkdir,
İşi molla kimi vəz eyləməkdir.
Sən də ki, günahkar bir uşaq kimi...
Əsirsən önündə bir yarpaq kimi.

Mişka

(*hayqıraraq*)

Beş günlük ömründə kefə bax, kefə.
Kim gəlmiş dünyaya ikinci dəfə?

## VII

Çox zaman şəhərin küçələrində,
Bəzən axınların toplu yerində,
Həmən mişkalara yoldan keçəndə,
Oxucu, baxırsan diqqətlə sən də.
Hər məchul səhnədə oynayır bunlar,
Həyatın ruhunda qaynayır bunlar.
Sanki bizim lisan onlara dardır,
Özlərinə görə dilləri vardır.

Mişkanın mənzili qır tiyanları,
Qaynayan şəhərin dar dalanları.
Çocuq həyatını bu yolda sürdü,
O gah tutulurdu, gah döyülürdü.
Bir dəfə Mişkanı tutdular yenə,
Apardılar onu çocuq evinə.
Pozuq azadlığa alışdığından,
Zavallı ruhuna bir qara zindan

Kimi dar göründü tərbiyə evi,
Saxlamaq olmadı bu yetim devi.
Bir axşam qəfəsi qırıb da qaçdı,
Qaş-daş həyatını alıb da saçdı
Bu boz azadlığın çamurluğuna.
Bəzi yoldaşları uymadı buna,
Onlar oxudular, adam oldular,
Bir kəhkəşan kimi cığır buldular.
Oxucu, dediyim sanma xəyaldır,
Buna qəhrəmanım Qaya misaldır.

İndi gəncliyini keçirir Mişka,
Zənnimcə, yaşlıdır Qayadan bir az.
Onun yolu başqa, bununku başqa,
Biri tələbədir, digəri quşbaz.
Yenə də Mişkanın qanı qaralmış,
Uçmuş, qayıtmamış bir göyərçini;
Rəngi heyva kimi solmuş, saralmış,
Yeyir ürəyinin bütün içini.
Bu gün xəbər tutmuş filan yerdədir.
O, söylənən yerə gəldi sevincək,
Onun quşcuğazı yad əllərdədir,
Bilmir ya verəcək, ya verməyəcək.

M i ş k a

Mənim göyərçinim uğramış sizə.

P o l a d

Bəli, göyərçinin uğramış bizə.



M i ş k a

Verin!

*(Polad gülür kinayələrlə,
Mişkanın ürəyi yanır kədərlə)*

Gülmə arvad kimi, ver göyərçini!

*(Bu sözlər Poladın kəsir içini)*

P o l a d

Get burdan, əcəlin tamam olmamış!

M i ş k a

O yan-bu yan etmə, ağıllı danış.
Çox da öz-özünə havalanma sən!
Yanımdan yel olub ötə bilməzsən.

P o l a d

Çənə döyüşdürmə mənimlə, get, get!

M i ş k a

Gəlmişəm, kişisən, nə bilirsən et!

P o l a d

Qan tutmasın səni, sovuş başımdan!

M i ş k a

Çox uzun danışma, bu sən, bu meydan!

(*Poladın gözləri iki ocaqdı,*
*Bıçaq şimşək kimi əlində çaxdı*)

P o l a d

Al bu göyərçinin, al daha bir də
Sənə qonub gələr quşun qəbirdə.
Saplandı yazığın bıçaq içinə,
Mişka qurban getdi bir göyərçinə.
Mişkanı aldılar xəstəxanaya,
Ordaca qaraldı gözünə dünya.
O kimdir Mişkanın başı üstündə
Bir kədər buludu gəzir üzündə?
Könlündə çırpınış, gözlərində yaş,
Xəyalında təlaş, ruhunda təlaş.
O kimdir varlığı qüssəli, yaslı?
O ruhu titrəyən, o ağ libaslı,
Təcrübəyə gələn tələbə kimdir?
O bizim Qayadır, yarın həkimdir.
Bu axşam olduqca qəmlidir Qaya,
Əcəba, yenə də düşünür nələr?
Yenə dalmış kimi dərin xülyaya,
Dolanır gözündə hansı səhnələr?
Edir gövdəsinə başı ağırlıq,
Müztərib dolaşır öz otağında.
Yandırıb paprosu çəkmədə sık-sık,
Bir xəyal dolaşır qaşqabağında.
Bu xəyal ömrünün ilk sarvanıdır.



Ona bir deyəcək sözü var kimi,
Gəlib keçmişini ona tanıdır.
Tutulur çöhrəsi son bahar kimi.
Bayaqkı səhnəmi bu hala salmış
Ürəkdən sevdiyim bu qəhrəmanı?
Neçin ovlağından enib dolanmış
Bu yeni dünyanın nəşə tərlanı?
Ay Qayam, adına yaraşmayır heç,
Bağrını əridən acı dalğalar.
Gəl bu düşüncədən, bu qayğıdan keç,
Könlünü döyməsin bu qasırğalar.
Bir də bu qurduğun evə-eşiyə,
Bu əlvan otağa yaraşmaz kədər.
Nədir salan səni bu ilişiyə?
Nədir alnındakı qəmli ləpələr?
Xəyal göllərində yorma kəndini,
Bir sərab kimidir acı keçmişin.
Yersiz xülyaların qır kəməndini,
Əlində natamam qalmasın işin.
Haydı, hünərini dostlara bildir,
Sənin bir uğurlu gələcəyin var.
Qurduğun qurğuya əngəl deyildir
İçindən çürüyən, ölən mişkalar.

**SON**

Ey keçən dostlarım, yazıq səfillər,
Mən də sizin kimi bir neçə illər
Ümmanlar üstündə başsız, pərişan,
Acı dalğalarla yersiz çarpışan
Bir qərib təknəyə bənzər kimiydim,
Qayəsiz yollarda gəzər kimiydim.

Nə ata çağrışı, nə ana səsi,
Bunların gül kimi lətif bu səsi
Ruhuma ətrini saça bilmədi,
Mənim çocuq dərdim heç əskilmədi.
Ah, nələr çəkmədi bu qərib başım,
Dəydi daşdan-daşa müztərib başım.
Bir sabah əlimə keçdi bir kitab...
Aldı caynağına məni inqilab.
Nə üçün baxalım bir də arxaya?
Sinəmdəki dağın biridir Qaya!



# TƏRCÜMƏLƏR
# 1930-1937

ÖMƏR XƏYYAM

## RÜBAİLƏR

**1**

Bir səhər səsləndi bu meyxanəmiz
Ki, ey sərxoşumuz, ey divanəmiz!
Qalx ki, dolduralım peymanələri
Torpaqla dolmamış öz peymanəmiz.

**2**

Bu gecə pərdədən çıxarıb üzə
Kim səni böylə məst gətirdi bizə?
Biz atəşli ikən səni yel kimi
Bilməm kim əsdirdi üzərimizə?

**3**

Gəzdik bu dünyanı azacıq biz də,
Yalnız qəm topladıq bu gəzhagəzdə.
Yazıq, açılmadı bir müşkülümüz,
Getdik həsrətimiz ürəyimizdə.

**4**

Səndən bir arzum var, ey xacə, ancaq
Kəs səsini, bizi Tanrıya burax!
Biz doğru gedirik, sən kəc görürsən,
Get öz gözlərinin çarəsinə bax!

## 5

Könüllər eşqinə, ey nazənin, gəl!
Oldu müşgülümüz sənə mühəvvəl.
Kuzə yapılmadan torpağımızdan,
Sən doldur kuzəni hamıdan əvvəl.

## 6

Bağlayıb yarına diləyimizi,
Dərdə salmayalım ürəyimizi.
Ay gözəl! İçəlim ay işığında,
Yarın bulmayacaq doğan ay bizi.

## 7

Sözün ən gözəli, derlər, Qurandır,
O da daim deyil, az oxunandır.
Piyalə xəttində bir ayə var ki,
Hər zaman, hər yerdə virdi-zəbandır.

## 8

Doğrudur, sərvidən ucadır başım,
Olmuş rəngin güllər cəmal yoldaşım.
Bilinməz torpağın şənlik evində
Nə üçün süslədi məni nəqqaşım?

## 9

Aradım göylərdə levhi, qələmi,
Sordum həm cənnəti, həm cəhənnəmi.
Düzgün bir elm ilə dedi ustadım: –
Bunlar özündədir, gəzmə aləmi.



## 10

Mey bədən qüvvəti, can qidasıdır,
Qapalı sirlərin aşinasıdır.
Xoşdur bir damla mey iki cahandan,
Nə dünya-axirət iddiasıdır?!

## 11

Əlimdə parlayıb dururkən əyaq*,
Olmazkən şənliyim gül üzün sayaq,
Atəşin təbimdən, rəvan sözümdən
Möcüzələr qopar hər cür, hər sayaq.

## 12

Qoy əysin başımı meyin fərmanı,
Nə şirin can alır ləbi-xəndanı!
Sürahinin boynu saqi əlində,
Camın dodağında şərabın canı.

## 13

Bir mütrib, bir şərab, bir yıxıq bucaq...
Var-yoxumuz meyə girovdur ancaq.
Nə rəhmət ümidi, əzab qorxusu,
Nə atəş, nə hava, nə su, nə torpaq?!

## 14

Bu küfürdən dinə bircə nəfəsdir,
Bu şəkdən yəqinə bircə nəfəsdir.

* Əyaq – qədəh, badə

Bu əziz nəfəsi tut ki, ömürdən
Hasilin də yenə bircə nəfəsdir!

**15**

O tikan ki, tapdar onu hər naşı
Bir sənəm saçıdır, bir canan qaşı.
Saray qübbəsində olan hər kərpic –
Bir vəzir barmağı, bir sultan başı.

**16**

Bu gün gəncliyimin sırasıdır, bax!
Gözəldir mey içib murada çatmaq;
O xoşdur, siz onu acı sanmayın,
Həyatımdır deyə acıdır ancaq.

**17**

Bu kuzə vaxtilə eşqə tutulmuş,
Könlünü bir qadın saçında bulmuş.
Boynunda gördüyün hər qulp bir əl ki,
Bir zaman bir yarın boynunda olmuş.

**18**

Gündüzlər, gecələr bizdən qabaqdır,
Fəqət dolanmışdır, dolanacaqdır.
Aman! Bu torpağa yavaş qədəm bas,
O bir yar gözüdür, sanma torpaqdır.

**19**

İstər bütxanəsi, istər kəbəsi,
İstərsə çanların ağlayan səsi,



Bütün məscid, səlib, mehrab, kəlisa –
Hamsı köləliyin bir nişanəsi.

**20**

Günah varmış deyə, cahanda, Xəyyam!
Qəm-qüssə çəkməkdə bir fayda bulmam.
Qufran günah üçün gəlməmişmidir?
Məncə, qufran görməz günahsız adam.

**21**

Əsrar pərdəsinin ardı dumandır,
Bundan agah olan hansı insandır?
Torpağın qoynudur mənzilin ancaq,
Eh!.. Bu əfsanə də söz uzadandır.

**22**

Vəfasız aləmi gəzdim doyunca,
Ölçdüm öz ölçümlə hər şeyi bunca.
Parlaq üzün kimi bir ay görmədim,
Bir sərvi bulmadım sənin boyunca.

**23**

Gördün bu dünyanı, gördüyün heçdir!
Söylədiyin, qulaq verdiyin heçdir!
Bir evin küncündə büzüşməyin heç...
Üfüqlərə qanad gərdiyin heçdir!

**24**

Yatmışdım, bir qoca məndən sordu da:
– Açmış sevinc gülü kimə uyquda?

Torpağın qoynunda çox yatacaqsan,
Qalx, mey iç! Bir dürlü ölümdür bu da...

**25**

Zəmanədən gəldik dadə, a saqi!
Gün görmədik bu dünyadə, a saqi!
Haq yenə də olacaqdır bizimki
Nuş etdikcə qızıl badə, a saqi!

**26**

Şərab ver! Ürəyim yenə odludur,
Baxtın oyanması sanki uyqudur.
Bu çabuq ayaqlı ömür bir civə,
Gənclik atəşi də axar bir sudur.

**27**

Biz eşqin kafiri, müsəlman başqa...
Biz həqir qarınca, Süleyman başqa...
Get ipəkçilərə! Bizdə nə vardır
Solğun üzdən, köhnə libasdan başqa?

**28**

Mey içib gülməkdir ayinim mənim,
Dindən uzaşmaqdır hər dinim mənim.
Dedim: – Kəbinin nə, dəhrin gəlini?
Dedi: – Şən könlündür kəbinim mənim.

**29**

Atəşgədə nədir, məscid nə şeydir?!
Nədən yoğrulmamı yaradan bilir.



Nə cənnət ümidi, nə dünya, nə din?!
Mən çirkin qəhbəyəm, mən sadə kafir!

**30**

Xoşdur bir damla mey mülki-Kavusdan,
Təxti-Keyqubaddan, diyari-Tusdan.
Gözəldir aşiqin səhər naləsi
Nəreyi-zahiddən, banki-naqusdan.

**31**

Cəhənnəmlik imiş, deyirlər, sərxoş,
Bu fikir düzmüdür? O gözəl, o xoş
İçənlər, sevənlər düzəxə getsə
Behişt ovcum kimi qalmazmı bomboş?!

**32**

Deyirlər içməyin şəban ayında,
Rəcəb dedikləri yəzdan ayında.
Bu aylar Tanrının, rəsulun olsun...
Biz də mey içəriz ramazan ayında.

**33**

Cam tutan Bəhramın qəsrində, budur
Ahu balalayıb, tülkü qorunur.
Kəməndlə gur tutan qoca Bəhramı
Yaman qabaqlayıb, tora saldı kur*.

---

* Kur – məzar, gor

### 34

Buludlar çəmənin başı ucunda
Ağlarkən, qədəhi tut ovucunda.
Bu çəmən ki, sənə seyrəngah olmuş,
Seyrəngah olmaqdır sənin borcun da.

### 35

Bu günün ki, adı cümədir, nolur,
Haydı çək başına bardağı qur-qur!
Hər gün içirdinsə bir qədəh, ancaq
Bu gün seyd günüdür, iki qədəh vur!

### 36

Ey könül, başına zaman bir əngəl...
Ruhun da uçmağa bəsləyir əməl.
Sənin torpağında çəmən bitməmiş:
Bir az keyf çəkməyə çəmənzarə gəl!

### 37

O yar, o dodağı bədəxşan hanı?
O mey, o ruhları oxşayan hanı?
Həram salınsa da islamca badə
Sən mey iç, qəm yemə, müsəlman hanı?

### 38

Çıxdı xarabatdan bir piri-sadə
Çiynində səccadə, əlində badə;
Dedim: – Şeyxim, nə var? – Dedi: – şərab iç,
Bütün gördüklərin yeldir dünyada!



### 39

Çəməndə qəflətən bir huri bulsam,
Onunla mey içib ləb bir ləb olsam,
Burax, el bu sözə nifrət eyləsin,
İt olum cənnəti yadıma salsam.

### 40

Xoşdur cəngin səsi, udun nəğməsi,
Sevinc qədəhinin gülrəng badəsi;
Xoşdur meydən qaçan dəli zahidin
Çağrım-çağrım bizdən uzaq düşməsi.

### 41

Ah, o nə saqidir, ah, o nə meydir?
O necə iraqi, o necə neydir?
Əhvali-aləmin budur hasili,
Yaxşılıq yaxşıdır, qalan nə şeydir?

### 42

Mənə fasiq demək?! Əcayib haldır;
Mən ki, günahsızam, bu nə xəyaldır!
Məncə, ey düz adam, şərin xilafı
O zülüm, o zina, o qeylü-qaldır.

### 43

İçək, ayın üzü süd kimi ağdır,
Gecənin ətəyi saçaq-saçaqdır;
Bizdən sonra bu ay qəbrimiz üstə,
Düşün ki, çox zaman parçalayacaqdır.

## 44

Yaxşılıq, yamanlıq öz içərində...
Qəm, sevinc qəzanın öz dəftərində;
Fələyə yükləmə bunları, çünki
O səndən yazıqdır eşq izlərində.

## 45

Əcəl ox atdımı, qalxanlar heçdir,
Gümüşlər, altunlar, sultanlar heçdir!
Nə qədər aləmi gözdən keçirdim:
Yaxşılıq yaxşıdır, qalanlar heçdir.

## 46

Mənim ki, mayəmi yoğurdu qüdrət,
Yapacağım işi bilirdi əlbət;
Günahımda onun buyruğu varsa,
Bu nə cəhənnəmdir, bu nə qiyamət?!

## 47

Ey şəni yayılan bütün aləmə
Bilsən haçan xoşdur bu nəşələnmə?
Şənbə, bazar günü, bazar ertəsi,
Xas günü, çərşənbə, adına, cümə.

## 48

Kəramət kərəmsə, rəbbi-mükərrəm,
Bəs neçin cənnətdən qovuldu Adəm?
Nədir taətimə qarşı verdiyin?
Günahıma qarşı ver – olsun kərəm.



## 49

Şadlıqdan əl üzmə, ömür bir andır,
Bir zərrən Cəmdəndir, Keyqubaddandır.
Bu bircə andadır həyatın özü,
Cahan da xəyaldır, köhnə cahandır.

## 50

Ey saqi, göylərə qalxdı şivənim,
Çıxdı çərçivədən məstliyim mənim.
Məstəm şərabından bu ağ saçımla,
Qocayam, təzədir könül gülşənim.

## 51

Cahanın sirləri dəftərimizdə,
Söyləsək, artacaq dərdlərimiz də.
Madam ki, insanlar qanası deyil,
Qoy qalsın dərdimiz içərimizdə.

## 52

Saqi, bu səfalı bağa bax, bağa!
Nə yazıq, dönəcək yarın torpağa.
Yarpaqlar saralıb, güllər solmamış
Bağa gəl mey içib, gül qoparmağa.

## 53

Ölüm bir dəfədir, bir dəfə öl, get!
Bu nə səfalətdir, bu nə şikayət!
Tutalım, olmamış bu damar, dəri,
Tutalım, olmamış bu qan, nəcasət.

## 54

Bir kərpicin varsa, girovdur meyə,
Sormayın: "Nəyin var yarın içməyə?"
Həzrəti-Məryəm ki, toxunmamışdır,
Nə gəlib sarığa, uzun cübbəyə!

## 55

Tanrı yaratdısa bu təbiəti,
Neçin ayıblıdır əksəriyyəti?
Bu surət çirkinsə, qüsuru kimdə?
Xoşsa neçin qırır həmən surəti?

## 56

Mədəd qıl, ey saqi, nəşəmiz boşdur;
Arslanlar getmişdir, meşəmiz boşdur.
Hər gecə göy camı hübab saçarkən
Bu günkü bizimdir, şişəmiz boşdur.

## 57

Canım, cənnət nədir? İştə bir çəmən,
Bir saqi, bir şərab, bir gümüş bədən...
Uyma əfsanəyə, əcəba kimdir
Cəhənnəmə gedən, cənnətdən gələn?

## 58

Çox-çox bizdən əvvəl mərdü zən olmuş,
Üfüqlər onlara müzəyyən olmuş;
Sənin də bədənin torpaq olacaq,
Torpağın yüz başqa bədəndən olmuş.



## 59

Nədir təbiətin bu aylanması?
Nə ibtidası var, nə intihası.
Bu gəliş, bu gediş nədir, neçindir?
Kimə aydın olmuş bunun mənası?

## 60

Yazıq o qəlbə ki, odlanan deyil,
Mehriban bir yara mehriban deyil,
Meysiz keçirdiyin günə-gün demə,
Çünki hədər keçdi, hesabdan deyil.

## 61

Təhqiq ağacının meyvəsi kaldır,
Əlimizə keçən bir quru daldır.
Bu günü yarın bil, yarını bu gün,
Bu yolda doğrunu bulmaq mahaldır.

## 62

Böyüklük eyləmə, sarıl sağərə,
Uyma cənnətlərə, cəhənnəmlərə.
Qorxma, sat sarığı, şərab al, nolur?
Başına bir cındır dola bir kərə.

## 63

Yaşadım, cahanda nə oldum? Heç nə!
Bu keçən ömrümdən nə buldum? Heç nə!
Əcəba nolacaq bu şam sönərkən?
Tut ki, cami-Cəməm, qırıldım, heç nə!

**64**

Ömür keçmiş isə, nə şirin, nə təlx!
Birdir can verənə Nişaburla Bəlx.
Şərab iç ki, bu ay bizdən sonra da
Gah olacaq qürrə*, gah olacaq səlx**.

**65**

Dünyadan indi ki, xəbərdarsınız,
Onun işvəsinə nə uyarsınız?
Mey için, yar sevin, nə qədər hələ
Əziz ömrünüzə ixtiyarsınız.

**66**

Dostlar! Mənə meydan bir qut*** yapınız,
Kəhrəba üzümü yaqut yapınız;
Ölərkən şərabla yıxayın məni,
Bir tənəkdən mənə tabıt yapınız.

**67**

Onlar ki, dünyada coşub daşdılar,
Sevinc yığnağında ayaqlaşdılar,
Bir qədər içdilər, mədhuş olunca
Heçlik uyqusunda qucaqlaşdılar.

---

* Qürrə – ayın əvvəli
** Səlx – ayın son günü
*** Qut – qida



**68**

Bu fələyin atı yəhərlənən gün,
Ulduzlar ziynəti olurkən göyün,
Səndə qüsurmu var, ey insan oğlu?
Qəza divanından budur gördüyün!

**69**

Ömür dəftərindən adımız çıxar,
Əcəl caynağında çabalamaq var.
Torpaqdır sonumuz, ey nazlı saqi!
Axıt qədəhlərə yaqutdan sular.

**70**

Səccadəyə tapan tayfa eşşəkdir,
İşi riyakarlıq yükü çəkməkdir.
Müsəlmanlıq satar zöhd arxasında,
Özü kafirdən də betər tüləkdir.

**71**

Bizə cənnətində mey vəd edən Haq
Xalqa bu dünyada edərmi yasaq?
Həmzənin dəvəsin vurmuş bir ərəb,
Ona haram etmiş şərabı ancaq.

**72**

Biz olmasaq belə, olacaq cahan,
Bizdən qalmasa da bir ad, bir nişan.
Biz olmamış onun əksiyi nəydi,
Biz olmasaq ona yetərmi nöqsan?

### 73

Çömləkçinin əli, fikri çamırda,
Bilməm nə görmüşdür bu vurhavurda?
İnsan vücudunun torpağıdır bu,
Nə sayır özünü, bilməm ki, burda?!

### 74

Nə yazıq, sərmayəm həp getdi əldən,
Qurtaran varmıdır zalım əcəldən?
O diyardan biri gəlsə, sorardım:
Çıxdı hansı işdən, hansı əməldən?

### 75

Bir vəqə söyləyim, dinləyib sən də
Bu iki kəlməlik vəqəni öyrən:
Eşqinlə torpağa girdiyim kimi,
Mehrinlə torpaqdan çıxacağam mən.

### 76

Toxmumu əkdilər ədəm selilə,
Yaxdılar ruhumu atəş əlilə.
Varlığım yel kimi gəzər cahanı
İtən torpağımın son əməlilə.

### 77

Qoyma, dürlü-dürlü iztirabları
Bir də yeriş etsin könlünə sarı.
Torpağa girməmiş buraxma əldən
Sən suyu, gülşəni, nazənin yarı.



### 78

Tor qurub gözlədi əzəli səyyad,
Lakin tutduğuna insan verdi ad;
Yaxşını, yamanı özü yazırkən
Neçin ona, buna eyləyir isnad?

### 79

Səmimi yoldaşlar çıxdılar əldən,
Aman bulmadılar zalım əcəldən.
Ömür məclisində iki-üç qədəh,
Bir az artıq içib düşdülər dildən.

### 80

Al qoca kəndlidən kuzəni, doldur!
Könlümün odunu söndürən odur.
Burax boş arzunu, zira cahanın
Bu torpaq altında arzusu boldur.

### 81

Dünyanı dolayan beş-üç nahamvar
Hər biri özünü bir alım sanar.
Sən öz işində ol, özləri kimi
Eşşək olmayanı dinsiz sanarlar.

### 82

Şənlənsin meykədə, rindlər ucalsın.
Zahidin dəməni-zöhdü od alsın!
Bu əba, bu qəba, bu suf, bu xirqə
Məstlərin ayağı altında qalsın!

**83**

Həqiqi bir varlıq insandır, insan!
Bu söz hər yetənə deyildir asan.
Mərifət meyindən bir damla içsən,
Görünməz xaliqin məxluqu yeksan.

**84**

Ağlın zamanada faydası yoxsa,
Zaman ağılsıza daha yovuqsa,
Ağlı məhv eyləyən şeydən gətir ki,
Zəmanə lütf edər bizə də baxsa.

**85**

Deyirlər dünyada pəhriz edənlər
Öyləcə qalxarlar qopanda məhşər.
Şərabla, cananla öləlim biz də,
Çıxarsınlar bizi həşrə bərabər.

**86**

Keçici aləmdə şən ol, nəşə çək,
Ruh bədən ardınca nərə çəkəcək;
Möhtəris başımız bir çömləkçinin
Ayağı altında inildəyəcək.

**87**

Xoşbəxt o kimsədir nə məşhur olmuş,
Nə haqqı cübbədə, əbadə bulmuş.
Uçub simurğ kimi ucalmış ərşə,
Olmamış cahanın yurdunda bayquş.



**88**

Dəstəmaz meykədə meysiz düzəlməz,
Yaman ad yaxşı ad kimi yüksəlməz.
Şərab ver, ey saqi! Pəhriz pərdəmiz
Öylə yırtılmış ki, yamağa gəlməz.

**89**

O gün ki, bu mavi qübbə quruldu,
Covza zər nöqtəni belində buldu.
Şamın şöləsi tək əzəldən mənə
Eşqin də min bağla bağlanmış oldu.

**90**

Daim üzüm suyu əlimdə olsun.
Bir huri sövdası könlümdə olsun;
Mənə tövbə verən haqqın istəməm,
Bir yol da tövbəsi dilimdə olsun.

**91**

Könlümün qulağı duydu səmadan:
Mənim yox xəbərim hökmi-qəzadan.
Dönüşüm əlimdə olaydı hərgah,
Sərgərdan olmazdım mən ibtidadan.

**92**

Badə aşiqlərə bir şahi-baldır,
Ağıl banusunun üzündə xaldır.
Ramazan keçdi də, göründü şəvval,
Bayram axşamıdır, içmək halaldır.

## 93

Yəqin olar, deyə diləyim hasil,
Mən oldum oruca, namaza mail;
Pozuldu bir yellə, yazıq, dəstəmaz,
Bir udum mey etdi orucu batil.

## 94

Ayrılıq dağını aşacağam mən,
İçib taleyimə koşacağam mən.
Yar gözəl, dəm gözəl, indi coşmasam,
Əcəba nə zaman coşacağam mən?

## 95

Deyirlər cənnət var, gözəl huri var,
Orda şərab arxı, bal arxı axar.
Doldur qədəhləri, gətir gərdişə,
Kim nağdı buraxıb, nisyə axtarar?

## 96

Mənə deyirlər ki, bir qədər az iç,
Hankı üzür səni etməkdə təhyic?
Üzrüm yar yanağı, sabah şərabı
Bundan parlaq üzür bulunarmı heç?

## 97

Eşqin ağ başıma qurmasaydı dam,
Titrəyən əlimə toxunmazdı cam.
Ağlın tövbəsini pozdu sevgili,
Səbrin libasını dağıtdı əyyam.



## 98

Dağa şərab versən şövqindən oynar;
Şərabı nəqs edər naqis adamlar.
Ey bizə şərabı tövbə etdirən,
Tərbiyə onda var, aləm onda var!

## 99

Deyirlər göründü ramazan ayı,
Almayınız ələ cami-minayi.
Şəbanın sonunda çox içib mən də
Özümdə olmaram bütün bir ayı.

## 100

Deyirlər məhşərdə sorğu-sual var,
Qəzəbə gələcək o mehriban yar.
Yaxşıdan yaxşılıq baş verər ancaq,
Qorxma, işin sonu gözəl qurtarar.

## 101

Şərab haramsa da bir ağıllı bax!
Kim içmiş kiminlə, nə qədər, haçaq?..
Bu dörd şərt bir yerə toplanmış olsa,
Böyüklər içərlər şərabı ancaq.

## 102

Mənim kimi içən əhl deyilmi?
Günahı Tanrıca səhl deyilmi?
Tanrı bilirdi ki, içəcəyəm mən,
İçməsəm biliyi cəhl deyilmi?

## 103

Onda ki, dan yeri ağaracaqdır,
Dumduru şərabı qədəhə axdır.
Deyirlər dillərdə acı olur Haq,
Öyləsə içdiyin şərab da haqdır.

## 104

Bənövşə geyincə mor rəngli paltar,
Gülün ətəyini öpüncə ruzgar,
Ayıq o kəsdir ki, bir nazəninlə
Mey içib qədəhi daşlara çarpar!

## 105

Dəhrin buraxılmaz eyşi, səfası;
Güvənmə bir yara yoxsa vəfası.
Qədrini yaxşı bil qalan ömrünün,
Namaz deyildir ki, olsun qəzası.

## 106

Hər işi görənlər ağıla bağlı,
Öküz sağmaq kimi olur maraqlı.
Qafildir onların cümləsi, indi
Bir çəngə tərəyə alan yox ağlı.

## 107

Şərab iç, əbədi yaşayış budur,
Gəncliyin mayası, zəngin ruhudur;
Yaxıcı olsa da od kimi, ancaq
Yanğı yatırmağa sərin bir sudur.



## 108

Hər şeyi bilməyin mənası varmı?
Ürəyi boş yerə üzmək yararmı?
Xoş keçin, dünyalar yaradılarkən
Sənin tədbirini soruşdularmı?

## 109

Bu dönük zamana çox maraqlıdır,
Ömrünün hər günü qəmə bağlıdır.
Qəlbim bir qönçədir cahan bağında,
Sinəm lalə kimi qara dağlıdır.

## 110

Həmdəmlə sevdiyim yaqut şərabdır,
Qəmlikən ağlamaq böyük savabdır.
Bu alçaq, bu dönük dünyada ancaq
Uğur o şəxsə ki, məstü xarabdır.

## 111

Nəsibin gələcək ancaq fələkdən,
Nədir hasil olan boş-boş diləkdən?
İncitmə könlünü, işlərin sonu
Köçməkdir, köçməkdir bu mamələkdən.

## 112

Mey şəfəq kimidir, yanaraq, mey iç!
Dilbər gözəlləri anaraq, mey iç!
Üzüm gör nə deyir: – Şərab qanımdır,
Halal etdim sənə, qanaraq, mey iç!

## 113

Bahar mövsimində iç gül rəngli mey,
Bir tərəfdə rübab, bir tərəfdə ney.
Şərab içən mənəm, kef çəkən mənəm,
Ürəyin çəkməyir, get sən də daş ye!

## 114

Dünən bir bazarda gördüm kuzəgər
Çamırı təpiklə yoğurub əzər.
Çamır kuzəgərə dedi: – Yaxşı bax,
Mən də sənin kimi deyildim məgər?

## 115

Şərabı ən arif adamlarla iç!
Gül üzlü nazənin cananlarla iç!
Arabir gizlicə, alışma, az-az;
Meyin hörmətini qananlarla iç.

## 116

Bu iki qapılı dünya ki, vardır,
Dərd çəkən, can verən insana dardır.
Anadan doğmayan, hətta bir nəfəs
Həyat sürməyənlər nə bəxtiyardır!

## 117

Ömrünü əridər bu gecə-gündüz,
Yatma, əğfal edər bu gecə-gündüz.
Gününü xoş keçir, sən olmasan da,
Öz yolilə gedər bu gecə, gündüz.



## 118

Sirri gizlin fələk nə şivəbazdır!
Min Mahmud, min Ayaz öldürsə azdır.
Qayıtmaq, yaşamaq yoxdur dübarə;
İç, saqi dilnəvaz, mey dilnəvazdır!

## 119

Bir qızıl quş kimi yüksəlim deyə,
Çıxdım sərəşibdən daha yüksəyə;
Bir sirdaş bulmayıb, yenə başladım
Gəldiyim qapıdan geri dönməyə.

## 120

Taət incisini dəldiyim yoxdur,
Üzdən suç tozunu sildiyim yoxdur;
Ümidsiz deyiləm kərəm qapından,
Çünki biri iki bildiyim yoxdur.

## 121

Hər kəsin qəlbini anlayan sənsən,
Yıxılan kəslərə dada gələnsən.
Qəbul et üzrümü, tövbə ver mənə,
Sən ki, tövbə verən, üzür bilənsən.

## 122

Nə hikmətlə dönür bu yaldızlı tas?
Neçin xarab olur bu gözəl əsas?
Nə ağıl meyarı bunu ölçmədə,
Nə qiyas götürür düzgüncə miqyas.

**123**

Tus şəhri bürcündə gördüm ki, bir quş
Keyin kəlləsini önünə qoymuş,
Deyirdi kəlləyə: – Əfsus, min əfsus...
O vur-çatlasının axırı buymuş!

**124**

Sorma, heç gələcək əyyamı, sorma!
Bir şeyin ki, yoxdur davamı, sorma!
Bir nəfəs ömrünü gözət, nədirsə
Olmuşun, olanın əncamı, sorma!

**125**

Məscidə gər dilək sormağa gəldim;
Sanmayın namaza durmağa gəldim.
Çaldığım səccadə köhnəldiyindən
İndi yenisini vurmağa gəldim.

**126**

Şərabla məst isən, Xəyyam, qəmin kəm!
Yarla tutmuş isən aram, qəmin kəm!
Yoxluqsa varlığın sonu, fərz eylə
Varlığın yoxluqdur tamam, qəmin kəm!

**127**

Ağıl ki, bu cama qalmışdır heyran,
Bu camın alnını öpər hər zaman.
Dəhrin kuzələri bu lətif camı
Yaradıb torpağa çırpır sonradan.



**128**

Mey qədəh içində bir lətif candır,
Camın qalıbında ruhi-rəvandır.
Giran ruhlar mənim həmdəmim deyil,
Sağər giransa da lətif girandır.

**129**

Fələk barışmasa mənimlə baxsın...
Burax, yaxşı adım yamana çıxsın.
Budur büllür qədəh, budur al şərab,
İçməyən başını daşlara çaxsın!

**130**

Baştutmaz sövdanı büsbütün unut!
Parlasın camında cilvəli yaqut.
Otur, nəşəyə bax üzüm qızıyla;
Halal ananı at, haram qızı tut!

**131**

Bülbüllər ötüşür, saqi, çəməndə,
Mey ver, onlar kimi bir oxu sən də.
Nəğməsiz mey içmək doğru olsaydı,
Qurt-qurt eyləməzdi mey töküləndə.

**132**

Heçdir bu cəhənnəm, bu cənnət, könül!
Axirətdən etmiş kim övdət, könül?
Bizim qorxumuzdan, umudumuzdan
Yayılmış aləmə bu şöhrət, könül!

## 133

İş gedib-gələni xatırlamaqsa,
Xoşdur hər kəs içib işrətə baxsa.
Burovuz aldığı dustaq ruhunu
Bu ağıl bəndindən azad buraxsa.

## 134

Gəl yarın dərdindən olalım uzaq,
Qənimət sanalım bu ömrü ancaq.
Yeddi min il əvvəl keçənlərlə biz
Köçərkən həmsəfər olacağız, bax!

## 135

Vur ki; bacardıqca bu şərabi-nab
Edər əqli, dini qilbi nəşəyab.
Min dəfə Adəmə səcdə edərdi,
İblis də içsəydi bircə yol şərab.

## 136

Ey yar, varlığımız pərgar deməkdir,
Başımız ikidir, vücudumuz bir.
Bir nöqtə dövründə dairə kimi
Dönüb başlarımız birləşəcəkdir.

## 137

Bir də çəkməliyəm qəmi-cahanı,
İçərkən içəlim meyi-rəvanı.
Mey cahan qanıdır, cahan qanlımız,
Halal deyilmidir qanlının qanı?



## 138

Qanadı qırılmış bir quş olursam,
Ölüm pəncəsində bihuş olursam,
Torpağımdan mənim qədəh yapın ki,
Dirilləm, iyini duymuş olursam.

## 139

Doğrudur, zülfünə əlimi atdım,
Sanma həqiqəti məcaza satdım.
Divanə könlümü görüb saçında,
Qurumuş əlimi ona uzatdım.

## 140

Məstəm bu aləmə gələndən, bu xoş
Qədr gecəsini keçirmədim boş.
Camla ağız-ağza, küplə döş-döşə
Gəlib açmalıyam sabahı sərxoş.

## 141

Varlığın, yoxluğun çölünü gəzdim,
Yüksəyin, alçağın içini sezdim.
Bu məstlik fövqündə bir şey bulsaydım,
İndiki bilgimə meyl eyləməzdim.

## 142

Yedim orucumu, yanaraq içdim,
Fəqət sanmayınız qanaraq içdim.
Gündüzüm gecəyə döndü orucdan,
Gündüzü obaşdan sanaraq içdim.

### 143

Çiçək mövsümüdür, çıx iztirabdan,
Burax şəriəti, ayrıl kitabdan.
Zərif gözəllərlə yaşıl çəməni
Laləzar edəlim yaqut şərabdan.

### 144

Gül dedi: – Yusifəm, Misir – çəmənim,
Doludur yaqutla, zərlə dəhənim.
Dedim: – Yusifliyə dəlilin? – Dedi:
– Baxsana, köynəyim qanlıdır mənim.

### 145

Aləmin qeydindən azad deyiləm,
Bir nəfəs özümdən dilşad deyiləm.
Bir qədər fələyə şagirdlik etdim,
Yenə də cahanda ustad deyiləm.

### 146

Bir əlimdə qədəh, birində Quran,
Nə halal insanam, nə haram insan.
Bu mavi qübbənin ətəklərində
Nə mütləq kafirəm, nə tam müsəlman.

### 147

Məndən Məhəmmədə yetirin salam,
Baş endirib deyin: – Ey fəxri-islam!
Bu necə şeydir ki, şəriətində
Turş ayran halaldır, saf şərab haram?



### 148

Pəyam aparınız məndən Xəyyama,
Deyiniz bu qədər sadədil olma!
Mən haçaq demişəm badə haramdır?
Halaldır püxtəyə, haramdır xama.

### 149

Bu cahan qəminin vur arxasından,
Şərab iç, nəşənin tut yaxasından;
Cahanın vəfası olsaydı, növbət
Sənə gəlirdimi bir başqasından?

### 150

Haq cahanın canı, cahan bədəndir,
Bütün mələklər də həvasi-təndir.
Fələklər, ünsürlər, mövludlar, əza...
Tövhid budur, qalan çərən-pərəndir.

### 151

Dün gecə yenə də ötdü bülbülüm,
İşıqlandı gözüm, açıldı könlüm.
Mənə meyxanada sundu bir qədəh.
Dedim: – İçməyirəm. – Dedi: – Mən ölüm!

### 152

Cəfakar güzgütək bu asimandan,
Çör-çöpə oxşayan dönük zamandan
Yanaqlarım – qədəh, göz yaşlarım – mey,
Qəlbim sürahidir, şərabı qandan.

153

Gəl keçən günləri heç yad eyləmə!
Yarın ki, gəlməmiş fəryad eyləmə!
Gəlmişin, keçmişin üstündə durma,
Hali gör, ömrünü bərbad eyləmə!

154

Bir tayfa məzhəbin, dinin yolçusu,
Birində yəqinin, şəkkin qorxusu
Pusqudan deyəcək bir münadi* ki,
Nə odur, nə budur yolun doğrusu.

155

Göydə Pərvin adlı bir öküz varmış,
Yerin altında da biri durarmış.
İbrət gözilə bax, aralarında
Bir ovuc sayğısız eşşək yaşarmış.

156

Yalandan zahidlik etməkdən, məncə,
Xoşdur gözəl şərab, xoşdur əyləncə.
Cənnəti görməyə kim maraqlanar,
Aşiq cəhənnəmə sərxoş girincə.

157

Neçin şən könlümüz kədərlə dolsun?
Xoş vaxtımız qəm daşına vurulsun?

* Münadi – carçı



İndi ki, sonumuz aydın deyildir,
Yar olsun, mey olsun, xoş saat olsun!

158

Mənə cövr eyləmə, ey Tanrı, rəhm et!
Bu əsir könlümə, ey Tanrı, rəhm et!
Xarabata gedən ayaqlarıma,
Cam tutan əlimə, ey Tanrı rəhm et!

159

Ulu Tanrı, mənə lütfünü yar et!
Səninlə məşqul et, məndən kənar et!
Ayıqkən bilirəm yaxşı, yamanı,
Bilməməkçin məni məstü xumar et!

160

Qanlı fələk bizə olmuş bir əngəl,
Olmuş heçliyimiz ona mühəvvəl;
Çəmənlər çıxmadan torpağımızdan
Mehriban gözəlim, çəmənzara gəl!

161

Dərgahına şahların üz qoyduğu,
Uca qəsrin qübbəsində bir qumru
Qanadını toplayaraq, çalaraq,
Dayanmadan, gördüm deyir: – Ku, ku, ku*.

* Hanı, hanı, hanı (*fars.*)

## 162

Ömrümün qaynağı dodağındadır,
Yenə mey bardağı dodağındadır.
Qanını içərəm mən o sağərin
Nə üçün dodağı dodağındadır?!

## 163

Aşiqlər bəzmində amadəyik biz,
Əyyamın zövqünə dildadəyik biz.
Sevinc badəsindən bir qədəh içib,
Məstik, asudəyik, azadəyik biz.

## 164

Tutalım doğruldu muradın, sonu?
Oxundu kitabi-həyatın, sonu?
Yüz il ömr eylədin öz istəyincə.
Yenə də yüz sənə yaşadın, sonu?

## 165

Meydən başqa tövbə, hər şeydən tövbə,
Yalnız bu şərabdan etməm mən tövbə.
Əcəba müsəlman olacaqmıyam
Bu köhnə şərabı edərkən tövbə?

## 166

Sən hər müəmmaya irməzsən, könül!
Nöqteyi-danaya irməzsən, könül!
Burda şərab ilə bir cənnət düzəlt,
Cənnəti-ürxaya irməzsən, könül!



## 167

Vurub piyaləmi devirdin, Allah!
Eyşimi matəmə çevirdin, Allah!
Şərab içən mənəm, sərxoş olan sən?
Səndəmi badəyə dəm verdin, Allah!

## 168

Cahanda olmayan kimdir günahkar?
Günah işləməyən nə sayaq yaşar?
Mən günah işlədim, sən cəza verdin,
Yaxşı, aramızda nə fərqimiz var?

## 169

Arısan bu bədən qəmindən, könül!
Tək ruhsan, göylərdə gəzərsən, könül!
Sənin ərşdir yerin, utan ki, etdin
Bu qara torpağı nişimən, könül!

## 170

Ey gül, bir gözəlin yanağı sənsən!
Ey mey, bir dilbərin dodağı sənsən!
Mənə, ey qovqaçı, ey qara bəxtim,
Həm aşina sənsən, həm yağı sənsən!

## 171

Kimsənin qəlbinə toxunma tükcə
Ki: "Yarəb!" deməsin o incidikcə.
Mala, camala da uyma, çalarlar
Camalı bir gecə, malı bir gecə.

## 172

Bir rahat mənzilə, nolur, yetəydik,
Bu qaranlıq yolu keçib ötəydik;
Yüz min ildən sonra, ümid olaydı,
Torpaqdan ot kimi bir də bitəydik.

## 173

Sevgi dəftərində fal açan kibi,
Çıxdı bağrıyanıq bir hal sahibi,
Dedi: – Xoş halına kimin olarsa
Gecəsi il qədər, yarı ay kibi!

## 174

Dün kaşı bardağı daşlara çaldım,
Ondan bu feylimə bir cavab aldım:
– Düşün, səninçin də bir böylə gün var,
Mən də sənin kimi bir əhli-haldım.

## 175

Sun ərğəvan kimi şərabı, saqi!
Can çəkməz bu qədər əzabı, saqi!
Bəlkə özümüzdən bir an xəbərsiz
Çıxalım bu acı kitabı, saqi!

## 176

Mən bir çömləkçiyə baxdım yaxından,
Çarxın qarşısında nə gördüm, aman!..
Yapırdı bardağa usta baş və qulp
Sultan kəlləsindən, qul ayağından.



## 177

Gözəl mütüb, gözəl şərab, gözəl yaz,
Gözəl dostum, buna kimsə dayanmaz...
Cənnət, mələk, kövsər nədir, olurkən
Gözəl bağça, gözəl badə, gözəl saz!

## 178

İştə nur, iştə mey, iştə mahitab,
İştə yaqut kimi hüsni-zərniqab.
Bu yanan ürəyim torpaqdır sanma,
Sovurma yellərə, saqi, sun şərab!

## 170

İnsan sürahidir, ruh onda meydir,
Bədən ney, ruh onda sədayi-neydir.
Bir xəyal fanusu içində çiraq, –
İnsan dedikləri bir böylə şeydir.

## 180

Ey saqi, dinləmə hər quru pəndi,
O qədər içirt ki, mən dərdiməndi,
Hər kəs görsə məni uzaqdan, desin:
– Hardan gəlirsiniz, şərab əfəndi?

## 181

Bəzən görünürsən üzündə pərdə,
Bəzən görünürsən bizə hər yerdə...
Görünən də sənsən, görən də sənsən,
Özünçündür bütün bu cilvələr də.

### 182

Uçuqda ağ çörək, iki mən* şərab,
Bir qoyun budundan çəkilən kabab,
Bir də bir nazənin əlinə keçsə,
Hansı sultan olar böylə nəşəyab?

### 183

Bizimki badədir, yardır, səbuhdur,
Sanma ki, tövbədir, qissəyi-Nuhdur.
Ey saqi, ey saqi, boşla bunları!
Səndən istəyimiz rahəti-ruhdur.

### 184

Yaxşını özünə adam pis etməz,
Şərab içənləri tutub incitməz.
İç ki, mey içməklə, mey içməməklə
Cəhənnəmlik olan cənnətə getməz.

### 185

Nədir bu kaşənə, nədir bu məskən?
Əfsanə ömrünə qürurlanma sən.
Uyqudaşın külək, yandırdığın şam,
Neçin sel ağzında bina tikirsən?

### 186

Varlığı zindlərin öyrən dilindən,
Namazı, orucu yıx təməlindən.
Sözün doğrusunu Xəyyamdan eşit,
Şərab iç yaxşılıq gəlsin əlindən.

* Mən – batman



A.S.PUŞKİN

## POLTAVA

*(Poemanın birinci nəğməsindən bir parça)*

Yalnızdır Qoçubəy şöhrətdə, varda,
Onundur görünən bu çayır, çəmən;
Onun ilxı-ilxı atları orda
Azadə otlayır, heç güdülmədən.
Onun bağçaları çulğayıb sarır
Bütün xutorları. Bu aralıqda
O həddən ziyadə bir sərvətdardır;
Xəzi var, atlası, gümüşü vardır
Onun həm açıqda, həm basdırdıqda.
Qoçubəy varlıdır, Qoçubəy məğrur,
Nə uzun yeləli ilxı atilə,
Nə bu sıra-sıra evlərlə məşhur,
Nə Krımın altun xəracətilə;
Ancaq gözəl-göyçək bir qızilə tək,
Öyünür, fəxr edir qoca Qoçubəy.

Bütün Poltavada bilənlər bilir,
Gözəllər içində Mariya – yalnız.
Bahar çiçəyindən təravətlidir
Palıd kölgəsində bəslənmiş bu qız.
Kiyev sərvi kimi ucadır boyu,
Bəzən sallanaraq sonalar kimi,
Öylə bil yararaq bir əngin suyu
Nazlı-nazlı üzür. Bəzən bir ahu

Şövqilə qaçmağa meyli var kimi.
Onun köpük kimi köksü ağappaq
Və yüksək alnının çevrəsində bak,
Bir bulud kimidir qara hörüklər,
Axır parlayaraq ulduz gözləri;
Dodaqları qönçə bir gülə bənzər.
Bununla bitməyir gözəllikləri,
Bu ani rənglərdir! Gənc Mariyaya
Təriflər söylənir dillər içində,
Ağlı, ağırlığı ellər içində,
Deyirlər gələsi deyildir saya.
Odur ki, çox gəlir görkəmli gənclər
Ona Rusiyadan, Ukrainadan;
Zəncirdən qaçdığı kimi yan gəzər
Gəlin əklilindən Mariya hər an.
O bütün gənclərə rədd cavab verir,
Ona Hetman özü elçi göndərir.
O fəqət qocadır, ömrünü sürmüş,
Qovğalar, qayğılar, acılar görmüş.
İçində arzular qaynaşır yenə,
Mazepa sevgilə uğraşır yenə.

Cavan bir ürəyin adətidir bu,
Bir anın içində tez yanır, sönür,
Qəlbində sevgisi keçmədən dönür.
Hər gün daşıdığı bir başqa duyğu:
Lakin bir o qədər asan itaət
Altına girməmiş, girəməz qoca,
Ani ehtirasla alışmaz, əlbət,
Bir qəlb ki, bərkimiş illər boyunca.
O ürək inadlı, o ürək ağır,
Ehtiras odunda köz bağlamışdır;



Lakin gəlməyincə ölüm növbəti,
Sönüb getməyəcək son hərarəti.

Bir ağır uçuşlu qartal əlindən,
Girməmiş qayaya geyiklər kimi;
Bir qədər gözləyib öz taleyindən,
Döyünür gəlinin dəhlizdə qəlbi.

Hirsindən ürəyi çatlayan ana,
Gəlir titrəyərək qızın yanına,
Tutaraq qolundan ucadan deyir:
"Həyasızın biri!Binamus qoca!
Bu olan şeymidir? Biz yaşadıqca
Böylə bir günaha girmək çətindir;
O, ata olmalı, yoldaş olmalı
Məsum qızlığına... Bircə baxın da...
Ağılsız! Ömrünün axır çağında
Onun ər olmaqdır yenə xəyalı".
Mariya diksindi, çökdü üzünə
Ölüm solğunluğu, üşüdü qəlbi.
Donaraq yerində bir qansız kimi,
Yıxıldı qızcığaz səki üstünə.

Mariya azacıq gəldi özünə,
Sözsüz gözlərini qapadı yenə.
Atası, anası kəsmiş yanını,
Ovudub qəlbini diqqət edirlər.
Dağıdıb dərdini rahat edirlər,
Tutqun fikirlərin həyəcanını...
Boş yerə... Mariya düz iki gündür
Yeməyir, içməyir, yaman düşgündür.

Ağlayır, inləyir, görsən özünü
Deyərsən bəlkə bir solğun kölgədir,
Səndələyib durur, yuxu bilməyir.
Otağı boşalır üçüncü günü.
Bir kimsə bilmədi nə zaman, necə
Mariya qeyb oldu. Balıqçı bircə
O gecə eşitdi birdən nal səsi,
Qadın pıçıltısı, kazak ləhçəsi.
Şehli çayırların üstündə səhər
Səkkiz at nalından göründü izlər.

Tək deyil gənclərin tazə tükləri,
Qıvırcıq, sarışın telləri, bilsən,
Yaşlı qocaların ciddi təhəri,
Alın qırışığı, ağ saçlı bəzən
Möhtəris arzular işləyir yenə,
Dadlı gözəlliyin təsəvvürünə.

Çatdı Qoçubəyin birdən qulağna
Bu uğursuz xəbər, tezliklə çatdı:
Həyanı, namusu Mariya atdı,
İndi bir xəbisin girmiş qucağna!
Nə acı şayiə, nə ağır əngəl,
Atası, anası qalmış məəttəl.
Yalnız o zaman doğub həqiqət
Qorxunc çılpaqlıqla işi duydular,
Cavan, cani qızın tutduğu niyyət
Yalnız o zaman oldu aşikar.
Yalnız o zaman aydın bilindi
Ürkərək qaçması onun neçindi.
Ailə bəndindən, ev çidarından



İnləyib çəkirmiş neçin iztirab.
Sıxılıb gənclərin salamlarından,
Neçin ağır-ağır verirmiş cavab,
Qızışıb çıxarkən söhbət halından.
Çınlarkən əllərdə dolu peymana
Niyə danışmayıb, masa dalından
O qulaq verirmiş ancaq Hetmana,
Hetmanın qoşduğu nəğməni hər an.
Neçin çox deyərdi, çox oxuyardı;
Onda ki, nə adı, nə sanı vardı.
Haqqında şayiə dağılmamışdan,
Neçin qadınlığa zidd bir ürəklə,
Atlı sıraları seyr eyləməklə
Xoşlanarmış bunçuq, bulava taxan,
Maloross ağası önündə böylə
Çınlayan sinc, təbil gurultusundan?..

M.Y.LERMONTOV

## ŞAİRİN ÖLÜMÜNƏ

Şair öldürüldü, şair vuruldu,
O namus aşiqi düşərək şərə,
Sinəsində qurşun, intiqam odu
Qürurlu başını endirdi yerə.
Dözmədi şairin, dözmədi qəlbi
Ufaq təhqirlərin incikliyinə.
Öldü, zidd gedərək əvvəlki kibi
Kübar aləminin hər bir rəyinə.
Öldürüldü artıq, hədər əməkdir,
Bu təriflər xoru, bu hönkürtülər.
Bəraət fikri də nəyə gərəkdir?
Artıq öz hökmünü vermişdir qədər.
Onun ötkün, azad istedadını
Siz deyilmidiniz acıqla güdən?!
Siz deyilmidiniz gizli yanğını
Bir zövq alardınız körükləməkdən?!
Qoy olsun, sevinin, gülün bir daha!
Dözülməz iztirab onu apardı.
Söndü çıraq kibi böyük bir dəha,
Ehtişam çələngi soldu, sarardı.

Soyuqqanlılıqla qatil yamanca
Vurdu zərbəsini. Qurtuluş yoxdur.
Əlində əsməyir onun tapanca.
Duyğusuz bir ürək müntəzəm vurur.



O, nə qəribdir ki, bizə uzaqdan
– Uğursuz taleyin hökmü var kimi –
Bir az qapsın deyə səadət, nişan
Atılmış yüzlərcə qaçqınlar kimi.
Ona yabançıydı bizim bu torpaq.
Edib adətinə, dilinə nifrət,
O bizim tərəfə vermədi fürsət,
Əlini qaldırıb bu qanlı çağda,
Kimə qıydığını bilmədi ancaq.

Şair öldürüldü, gömüldü artıq,
Tərənnüm etdiyi haman qısqanclıq
Qurbanı, mehriban nəğməkar kimi.
O nəzərdən uzaq, bəstəkar kimi.
Özü də tərk edib getdi cahanı
Amansız bir əlin oldu qurbanı.
Şirin lətafətli, sakit havalı
Dostlar dünyasından düşüb aralı.
Dünyaya sığmayan, azad, atəşin,
Ehtirasla dolu o ürək neçin
Kübar aləminə meylini verdi,
O boğuq, o paxıl mühitə girdi?
O ki, insanları gənclik çağından
Yaxşı tanıyırdı, yaxşı bilirdi.
Fitnələr çıxaran, hilələr quran,
İftiraçılara neçin əl verdi?
Neçin o hər sözə uydu boş yerə,
İnandı yalançı nəvazişlərə?
Əvvəlki çələngi alıb başından,
Qoydular başına güyəmdən çələng.
Lakin saf alnına batırdı hər an

Gizli tikanlarla hörülən çələng.
Zəhərləndi onun axır çağları,
Gülünc ümidlərin minlərcə hiylə
Doğuran, fitnəkar pıçıltısiylə,
Hədər ümidlərin gizli dağları
Çəkilməz arları ucundan o da
İntiqam deyərək atıldı oda.
Füsunkar nəğmələr kəsildi gerçək,
Bir də o nəğmələr səslənməyəcək.
Nəğməkarın yeri qəmlidir, dardır
Dodaqlarında da bir damğa vardır.

Siz ey həyatında föhşə dadanmış,
Məşhur rəzalətlə şöhrət qazanmış
Xain atalardan nişan xələflər!
Taleyin qurduğu əyləncələrlə,
İncik nəsilləri işgəncələrlə
Qul kimi tapdayıb aşan xələflər!
Ey taxt ətrafında üşüşən yığın,
Şərəfin, dəhanın və azadlığın
Qəddar cəlladları, enin, enin siz!
Qanun arxasında pərdələnin siz!
Sussun qarşınızda qanun, ədalət,
Sussun qarşınızda bu qara dəhşət.
Fəqət ey rəngbərəng əxlaqsızlığın
Qarşısında gedən şərəfsiz yığın,
Bilin ki, Tanrının məhkəməsi var,
O dəhşətli hakim sizi qarşılar.
Altun cingiltisi uzaqdır ondan,
O hər fikri, işi əvvəldən bilir.
Yapdığınız işə sizin o zaman



Nifrət yağdırmanız hədər bir işdir,
O sizə bir kömək etməyəcəkdir.
Şairin günahsız qanını hey siz,
Qara qanınızla təmizləsəniz,
Nə qədər yusanız getməyəcəkdir.

M.F.AXUNDOV

## A.S.PUŞKİNİN ÖLÜMÜNƏ ŞƏRQ POEMASI

Gecə etdim uyqumu gözümdən kənar,
Sordum: "Ey sirr çeşməsi – ürəyim, nə var?
Nədən ötməz bağçanın şeyda bülbülü,
Nədən qılmaz nitqinin tutisi göftar?
Şeir yolun, söz yolun yoxsa kəsilmiş,
Hanı xəyal qasidin o yüngül çapar?
Yaz gəlmiş; hər tərəfdə çəmən qızları,
Bəzənib, camalını etmiş aşikar.
Çevrilmiş çayır, çəmən bənövşəliklə,
Bağda odlu qönçələr açmış budaqlar,
Çöl gəlini bəzənmiş; dağlar onunçun
Ətək-ətək çiçəkdən cəvahir saçar.
Başına tac qoyub da şükufələrdən,
Oturmuş ağacların şahı pürvüqar.
Süsən, zanbaq içirlər jalə şərabdan
Lalə qədəhlərində təkrar... təkrar...
Göy çəməni yasəmən öylə donatmış,
Nərgizin süzgün gözü baxsa qamaşar.
Dimdiyində töhfəsi, gül yarpağından:
– Xoş gəldin, – deyə bülbül ötər bəxtiyar.
Bəstəkömər buludlar sular gülşəni,
Ətirli dan yelləri olmuş bir əttar.
Yumşaq səslərlə quşlar deyir səbzəyə:
– Götür torpaq pərdəni üzündən, ey yar!



Həpsinin əli dolu, həpsi sevdalı,
Bu bazarda nə dürlü məta desən var.
Kimi gözəlliyilə cilvə göstərib,
Kimi fəğanla eylər eşqini izhar.
Keçirməkdə vaxtını şənliklə həpsi,
Həpsi qəmdən, qüssədən eyləmiş fərar.
Bu şadlıqdan, ey könül, nəsibsiz qalıb,
Sənsən ancaq olmayan uyqudan bidar.
Ürəyində həvəs yox, başında sevda,
Dolaşırsan şöhrətdən, xəyaldan kənar.
Söylə, sən haman könül deyilmisən ki,
Dür sözlərçin fikirlər bəhrinə cumar,
Mənə gözəllərindən ötrü yapardın
İnci düzümlərindən ziynəti-rüxcar?
Bəs bu məlamət nədir, bu məlal nədir?
Nədir varlığa qarşı bunca iğbirar?..
Könlüm dedi: "Ey mənim təklik yoldaşım,
Var, get, bir də toxunma hissimə zinhar!..
Çəmən qızları kimi, mən bilməmişdim
Yaz yelinin dalınca payız yeli var.
Söz atını qovub da qılınc dilimlə
Adından hər tərəfdə çəkəcəyəm car.
Bizim axırımız da bəllidir bu gün,
Bu vəfasız dövrana yoxdur etibar.
Ağılsızdır o quş ki, tordan çıxarkən,
Danəyçin olur yenə tora giriftar.
Bu nə şandır ki, bilməm, güclü sədası,
Səma boşluqlarında şiddətlə gurlar.
Başqa xəyal etmə ki, bəllidir, fələk
Əhliylə daim eylər tərsinə rəftar.
Ey dünyadan xəbərsiz, eştmədinmi

Söz ordusu başçısı Puşkindən əxvar?
O Puşkin ki, nüktəyə başlayan zaman
Hər bucaqdan qopardı coşqun alqışlar?
O Puşkin ki, kağızda qaralanırdı,
Qələmi etsin deyə üstündən güzar?
Xəyalı tovuz kimi bərli-bəzəkli,
Sözdən qərib naxışlar eylərdi izhar?
Nəzm evini süsləyən Lomonosovdu,
Orda Puşkin xəyalı oldu bərqərar.
Derjavin tutmuşdusa sözün mülkünü,
Yerində Puşkin oldu nəzmilə muxtar.
Camə bilik meyini tökdü Karamzin,
Puşkinə qismət oldu o cami-gülnar.
Çar kimi, Çindən tutub Tatara qədər
Dolaşırdı şöhrəti diyarbədyar.
Şimalın göylərində – Şərq hilalı tək –
Barmağı bir işarə eylərdi ixtar.
Bu dildə, bu zəkada bir oğul hələ
Görməmiş "yeddi" ata, "dörd" ana zinhar!
Təəccüblə dinlə ki, böylə valideyn
Sərt davranıb etmədi bu sərtlikdən ar.
Onu əcəl oxuna nişan qoyub da
Varlığını eylədi ölüm tarimar.
Zülm qara buludlardan dolu yağdırıb,
Tökdü ömür barını, etdi xakisar.
Söndürdü əcəl yeli çıraq ruhunu,
Susqun gecələr kimi cismi oldu tar.
El bağında, əlində sitəm külüngü
Cavan belini qırdı zalim ruzigar.
İncili mənaların məxzəni bir baş
Olmuş ilan məskəni, bir xərabazar.



Cisminin yuvasından uçdu can quşu,
Böyük, kiçik qəmindən çəkdi ahü zar.
Bülbül, təbinə həmdəm qonça könlündən
Xəbər verməz torpaqdan baş çıxarsa xar.
Rus torpağı yas tutub fəqan qılır ki:
– Ey qatillər əlilə ölən namidar!
Qurtulmadın zamanın qanlı şərindən,
Tilsimin də olmadı sənə havadar.
Sən ki, çıxdın dostların əlindən, burax
Üstünə haq rəhməti olsun sayədar.
Torpağına saçmağa iki gül ətri
Qopar Bağçasaraydan bir incə rüzgar.
Tutulub bu xəbərdən ağ saçlı Qafqaz,
Səbuhinin şerilə yasını saxlar.

S.MARŞAK

## HUŞSUZA BAX, HUŞSUZA

Gülüb deyər oğul-uşaq:
"Huşsuza bax, huşsuza bax".
Çarpayıda səhər-erkən,
Köynəyini geyinərkən,
Şalvarına keçdi əli,
Bu iş deyilmi gülməli?!
Gülüb deyər oğul-uşaq:
"Huşsuza bax, huşsuza bax".
Geyər-geyməz paltosunu,
Biri gəlib tutdu onu,
Dedi: Bir dayan, ay qotur,
Bu ki, qadın paltosudur".
O, deyəsən, bir az keydi,
Çəkməsini tapdı geydi.
Üstünə taxanda qamaş,
Qızı dedi: "Bircə yavaş!"
Bunu görən oğul-uşaq
Gülüb deyər: "Huşsuza bax".
O, səfərə çıxan vaxtı,
Tavanı başına taxdı.
Durdu geysin isti qaloş,
Əlcək geydi bu başıboş.
Güldü dedi oğul-uşaq:
"Huşsuza bax, huşsuza bax..."
Bir dəfə də tramvayla
O gedirdi düz vağzala.



Tez qapını açdı birdən
Sürücüyə dedi həmən:
"Ey qiymətli sürücümüz,
Mərhəmətli sürücümüz,
Dalmış idim xəyala mən,
Gedəcəyəm vağzala mən.
Sizə qurban bu dayınız,
Tramvayı saxlayınız."
Sürücümüz heyran qaldı,
Ona kəc bir nəzər saldı.
Saxlayınca tramvayı,
Tramvaydan düşdü dayı.
Güldü dedi oğul-uşaq:
"Huşsuza bax, huşsuza bax".
O yüyürdü tez bufetə
Ki, növbə tutsun biletə.
Susuzluqdan yandı bağrı,
Yüyürdü kassaya sarı.
Güldü dedi oğul-uşaq:
"Huşsuza bax, huşsuza bax".
Tələsik qaçdı perrona,
Mindi açılmış vaqona.
Qoydu yerə çamadanı,
Əlindəki bağlamanı.
Bir küncə çəkdi özünü,
O saat yumdu gözünü.
Şirin-şirin çəkdi xorna,
Çalınırdı sanki zurna.
Yuxulu belini qırıb,
Pəncərədən baş çıxarıb
Əsnəyərək o soruşur:
"Bura hansı stansadur?"

Stansadan dedilər ki,
Ay huşsuz, Bakıdır, Bakı!
O, yenə də yatdı, birdən
Boylanaraq pəncərədən
Önündə bir vağzal gördü,
Bir asqırdı, bir öskürdü:
"Bu vağzal hanki vağzaldır?
Nəvahıdır, Səngəçaldır?"
Stansadan dedilər ki,
Ay huşsuz, Bakıdır, Bakı...
O bir az da yuxu aldı,
Pəncərədən nəzər saldı
Önündə bir vağzal gördü,
Bir asqırdı, bir öskürdü:
"Bura hara vağzalıdır?
Gəncə, yoxsa Zazalıdır?"
Stansadan dedilər ki,
Ay huşsuz, Bakıdır, Bakı!
O bir az xoruldadı,
Sonra durdu mırıldadı.
Önündə bir vağzal gördü,
Bir asqırdı, bir öskürdü:
"Bura hara vağzalıdır?
Poylu, yoxsa Salahlıdır?"
Stansadan dedilər ki,
Ay huşsuz, Bakıdır, Bakı!
O bağırdı: Nə işdir bu,
Nə gülməli gedişdir bu?..
İki gündür yoldayam mən,
Bakıya dönmüşəm nədən?!
"Gülüb deyər oğul-uşaq:
Huşsuza bax, huşsuza bax".



İ.UTKİN

## GECƏ ÇEŞMƏSİ

Budur o!..
Dinləyin və için.
Budur o!..
Bu çeşmə hər kimin
İsə də
Kimsənin deyil ki,
Bir gümüş ney kibi
Uzanmış dərənin dibində.

Axır o, səslənib axır o.
Ağlıyor dərədə sanki bir piyano.
Yüksəklik döşündə
Ləkəsiz nurilə inikas etmədə,
Yüksəklik çəkiyor özünə məni də.
Mən dona qalmışam, başımın üstündə
Var kimi bir qızğın qarınca yuvası,
Bir altun qarınca yuvası.

Və bir də qırmızı şalına bürünən,
İşıqlı bir yolda görünən,
Gözləri səmavi, qaşları qələmdən
Bir gözəl önümdən
Keçərək bakıyor.
O da bir çeşmədir qarşımdan akıyor,
akıyor...

Gözəl qız, mən bu gün dərdsizim, xoşbaxtım!
And olsun, bu məcruh əlimlə,
Ağlımla, könlümlə
Xoşbaxtlıq, rahatlıq qazandım.

Əvət mən oyunsuz yaşadım,
Ehtiras, qan nədir, anladım.
Odur ki, sevgilim çal, oxu,
Bu küskün könlümü al, oxu!
Səsində çınlasın bəxtiyar sevgilər,
Çalmasın qəlbini ixtiyar sevgilər!

Çeşmənin sevincli ağzında
Oynarsa bir yaşıl təbəssüm, bir nida
Ondakı bülluri dodaqar,
İçindən
Ötüşər gümüşdən balıqlar.

Ciddiyət lazım bu gedişdə,
O siyah qaşların
Qarışıq, dolaşıq yolları,
Bu əsrin,
Ah, iştə,
Bu şeytan əsrinin çarpaşıq yolları
Şaşırtmış nəhayət şairi.
Söyləyin, hanki bir zamanda,
Söyləyin, hanki bir məkanda
Gördünüz müqəyyəd şairi!



# ŞƏRİKLİ TƏRCÜMƏLƏR
# 1930-1934

# “ŞAHNAMƏ”DƏN

## RÜSTƏM VƏ İSFƏNDİYAR DASTANI

### BAŞLANĞIC

Eşitdim ki, bülbül oxur dasitan,
Sədasından titrər keçən basitan.
Çıxıb padişahın evindən nizar,
Qayıtdı geri sərxoş İsfəndiyar.
Qaranlıq gecə uyqu gəlmiş ona,
Kitayunu basmışdı öz bağrına.
Gecə uyqudan qalxaraq sundu cam,
Kitayunə ərz etdi ki: “Ey anam!
Mənə çox fənalıq edir padişah,
Mənim könlümü incidir padişah”.
Demişdi: “Zəfər çalsan Ərcasibə,
Böyük intiqamdır bu Löhrasibə.
Xilas olsa qüvvənlə həmşirələr,
Cahanda bizim namımız yüksələr.
Cahanı fənalıqdan etsən təmiz,
Çalışsan ucalsın bütün ölkəmiz;
Olar ordu, şahlıq... sərasər sənin,
Olar səltənət, təxtü-əfsər sənin.
Doğarkən günəş dan yerindən sabah,
Yataqdan çıxarkən böyük padişah;

Derim mən ona verdiyi ilqarı
Ki, gizlətməsin doğru peymanları,
Mənə tapşırılsaydı şahlıq əgər,
Edərdim böyük bütlərə səcdələr.
Əgər çöhrəsindən tökülsə riya,
Qəsəm aləmi döndərən Tanrıya,
Olursam mən ərliklə bir tacdar,
Gülər iltifatımla iranlılar.
Ürəklə mən arslan kim işlərəm,
Olarsan bizim banuyi-möhtərəm".
Kitayun bu sözdən tutuldu həmən,
Vücudunda oldu ipəklər tikən.
Bilirdi verilməz bu fikrə rəvac,
Bilirdi verilməz ona təxtü-tac.
Dedi oğluna: "Ey cəfakeş oğul!
Nədən olmusan səltənətçün məlul?
Cahanda nələr tacdar arzular!
Əlində deyilmi sənin ordular?
Atan saxlayırsa əgər təxtü-tac,
Sənin bulmuş əmrin qoşunda rəvac.
Həp onlar bir arslan qədər qəhrəman,
Atançın çalış, ey oğul, hər zaman!
Ölərkən sənindir bütün səltənət,
Sənindir şərəf, mərhəmət, məsədət".
Kitayunə ərz etdi İsfəndiyar:
"Demişdir keçənlərdə bir huşyar;
Kişi açmasın heç ürək sirrini,
Qadından saqınsın gərək sirrini.
Fənadan yayınmaq dilərsən əgər,
Demə sirrini, et qadından həzər!
Qadınlardan umma gözəl məsləhət!
Olur sanma onlarda düz məşvərət.



Qadın hökmünə alsa da hər yeri,
Gözündən onun düşməz əsla əri".
Kitayun görüb bu soyuqqanlığı,
Üzündən seçildi peşimanlığı.
Verib badəyə rövnəq İsfəndiyar,
Mey içməkdə olmuşdu şöhrətşüar.
O etmişdi adət səfa sürməyi,
Unutmuşdu Gəştasibi görməyi.
Kiçik bir zaman dalmış işrətlərə,
Vurulmuşdu nazəndə afətlərə.
Xəbər tutdu şah oğlu dönmüş geri,
Həmən könlünün artdı dəhşətləri.
Dışünmüşdü oğlu dilər süslü tac,
Düşünmüşdü oğlu dilər təxtü-tac.
Coşub dalğalandı şahın gur səsi,
Dedi: "Nerdə Löhrasibin bilcisi!
Hüzurumda Camasib olsun əyan!
Mənə eyləsin gizli sirlər bəyan!"
Sütürlabı onlar alıb gəldilər,
Şah: "İsfəndiyardan, – dedi, – ver xəbər!
Uzun ömür edərmi cavan Şəhriyar?
Keçərmi onun günləri bəxtiyar?
Təsahüb edib şahlığın tacına,
Gülümsərmi xoşluq, gözəllik ona?"
Bu sözdən İran bilcisi bir ara,
Atıb baxdı diqqətlə tez daşlara.
Dolub inci yaşlarla kirpikləri,
Bəlirdi üzündə bilik cövhəri.
Dedi: "Mən bilikdən fəna gündəyəm,
Ağıldan bəlalar çəkən bəndəyəm.
Onu bir böyük, qəhr edən parçalar,
O, röyada ancaq olar tacidar.

Aman kaş Fərrux Zərir vaxtı mən,
Bir arslan əlində öləydim həmən.
Onu qanlı torpaqda görsəm əgər,
Bütün varlığım ney kimi inləyər.
Məni qəhr edərdi atam, ta ki, mən,
Öləydim uğursuz ömür sürmədən,
O İsfəndiyar ki, döyüş anları,
Sədasilə sarsardı arslanları;
O, dünyanı etmişdi qacdan təmiz,
Buraxmazdı bağrında qorxaqlıq iz.
Cahanı yamanlardan etmiş rəha,
Əlində bölünmüşdü bir əjdaha.
Onun dərdi hər an çəkilsin gərək!
Duyan qəlbə qəmlər tökülsün gərək!"
Dedi şah ona: "Ey bilik rəhbəri!
Nədən doğru yoldan dönürsən geri?
O, xoşbəxt olarsa cahanda əgər,
Başım dürlü saysız bəlalar çəkər.
Tez ol, söylə, sirlər görünsün əyan,
Qəmin güclənir verdiyim sorğudan.
Əcəb qəhri kimdən onun baş verər?
Bizi hansı qüdrət edər xunciyər?"
Dedi şanlı Camasibə Şəhriyar:
"Mənə artıq heç gülməsin ruzigar!
Düşər Zabilistanda şir cənginə,
Keçər pəhləvan bir oğul çənginə.
Təsadüf edər qəhrəman oğluna,
Onun ömrü Zabildə uğrar sona".
Dedi şanlı Camasibə Şəhriyar:
"Bunu alçaq iş sanma, ey huşyar!..
Ona mən verərsəm əgər təxtü-tac,
Böyüklükçün eylərmi hiss ehtiyac?



Gedib Zabilistanda verməz də can,
Onu Kabilistanda olmaz anan.
Fələk gərdişindən də bulmaz sızı,
Gülər, şənlənər baxtının yıldızı".
Bu yolda cavab verdi ulduz sayan:
"Bu çərxin gözündən kim olmuş nihan.
Bulur kim fələk caynağından rəha?
Deyildir o mərdlik qanan əjdaha.
Fələk dönsə çarxınca bir dəm geri,
Sağır, kor olar ölkə rəhbərləri.
Olur şeylərə, şübhəsiz, çarə yox,
Bəşər bir hədəfdir, fələk qanlı ox".
Nəhayət, şahın artaraq dəhşəti,
Qalınlaşdı orman qədər fikrəti.
Uyub ruhu sonsuz qaranlıqlara,
Bu gündən əl açdı yamanlıqlara.

## İSFƏNDİYARIN ÖZ ATASI GƏŞTASİBDƏN PADŞAHLIĞI İSTƏMƏSİ

Qaranlıq gecə döndü artıq geri,
Ağardı, qızardı gözəl dan yeri.
Çıxınca qızıl taxtına Şəhriyar,
Onu görməyə gəldi İsfəndiyar.
Yanında onun vardı xidmətçilər,
Yağırdı üzündən, gözündən kədər.
Yığılmış bütün ordu rəhbərləri,
İgid pəhləvanlar, döyüş ərləri.
Və mübidlər... həpsi boyun burdular,
Şahın qarşısında divan qurdular.

O qaplan vücudlu döyüşkən oğul,
Danışdı yerindən mükəddər, məlul.
Dedi: "Şahım, ol sahibi-ixtiyar!
Səni Tanrı qılsın böyük bəxtiyar!
Sən oldun səbəb mehribanlıqlara.
Şəfəq saldı taxtın qaranlıqlara.
Atam, mən sənin ən kiçik bir qulun,
Məramım məramın, yolumdur yolun.
Din uğrunda Ərcasibin ordusu,
Gəlib Çindən istərdi qursun pusu;
Mən and içdim onda böyük Tanrıya,
Alarsa əgər kim bütləri saya,
Kim eylərsə nifrət bizim yəzdana,
Verib dürlü-dürlü cəzalar ona,
Məni salmadan qorxu böhranları,
Onu xəncərimlə bölüm tən yarı.
Döyüşdə görər-görməz Ərcasibi,
Qızıb nərə çəkdim pələnglər kibi.
Mənim qəlbimə sən saçıb iztirab,
Unutdun nədir qovğa, içdin şərab;
Dəyişdin mənə qarşı birdən-birə,
Məni bağladın paslı bir zəncirə.
Məni həps edib, ey atam, dəjdə sən,
Yad ellərdə düşdüm yaman dərdə mən.
Gedib Zabilə Bəlxi atdın nədən?
Uyarmı məgər işrətə hər bədən?
Hayıf, görmədin tiğ-Ərcasibi,
Döyüşdə ölən şanlı Löhrasibi.
Gəlib gördü Cəmasib mən bəstəyəm
Və dustaqda çox qalmışam, xəstəyəm.
Dedi şahlığın taxtı layiq sənə,
Azadlıqçın etdi köməklik mənə.



Ona söylədim ki, ağır bəndlərin,
Mənə oldu təsiri sonsuz dərin.
Qiyamət günündə olub naləkar,
Derim: zalımı qəhr et ey kirdigar!
Mənə söyləmişdin: "Əlində xədəng.
Gedib eylə düşmənlə meydanda cəng!
Bizim qanları qoyma axsın hədər,
Saçıb düşmənin ta başından şərər!
Gələn oxlara vermişəm sinəni,
Xilas eylə düşməndən həmşirəni!
Vuruşlarda tapsan da, şayəd, zəval,
Döyüş çöllərində ox at, nizə çal!".
Nədən gəlmədin onların hərbinə,
Köküs gərmədin türklərin zərbinə?
Məni bağladın zəncirə, anmadın,
Tərəhhüm qılıb halıma yanmadın.
Məni Gümbədan dəjdə göndərdiniz,
Məni verdiniz qəhr-əğyarə siz.
Gətirmişdi Cəmasib ahəngəri
Ki, üstümdən atsın ağır bəndləri.
Bir az lakin onlar gecikmişdilər.
Acıqlıydı qəlbim qılınclar qədər.
Vücudumdakı bəndləri mən açıb,
Rəmə şahının nəzdinə tez qaçıb;
Tamam eylədim düşməni xaksar,
Bu işdən sevindi bizim Şəhriyar.
Əgər Həftxandan danışsam sana,
Təəccüblər eylərsən əlbət ona.
Qoyub yerdə başsız mən Ərcasibi,
Ucaltdım bu dünyada Gəştasibi.
Əsir oldu pəncəmdə erkək, qadın,
Gətirdim cəvahir, qızıl bir yığın.

Bütün yaxşılıqlardan etdin həzər,
Fəqət xələtin oldu sonsuz kədər.
Uyub andına, əhdü-peymanına,
Baş əydim sənin hökmü-fərmanına.
Dedim bir də görsəm səni mən əgər,
Gözümdə bu dünya olar cilvəgər.
Olar büsbütün təxti-tacım sənin,
Olar şahlığım, bəlkə tacım sənin.
Böyüklər yanında başım alçalır,
Bu hala gülür düşmənim, əl çalır,
Deyirlər hanı zər külahın, hanı?
Xəzinən, böyük ordugahın, hanı?
Nədən böylə avarə gəzməkdəyəm,
Nədən könlümü qəmlə üzməkdəyəm?
Nə söylərsə şahlar edərlər yəqin,
Nə oldu o peyman, o yüksək yəmin?
Nə cür ki, atan tacı vermiş sana,
Bu gün sən də ver tacı öz oğluna!"

## GƏŞTASİBİN İSFƏNDİYARA CAVABI

Baxıb söylədi oğluna Şəhriyar:
"Həqiqət yolundan, düşün kim qaçar?
İşindən deyil çox bu saydıqların,
Böyük Tanrı olsun pənahın, yarın.
Bu gün bəlli, meydanda yox düşmənim,
Açıqda və pünhanda yox düşmənim.
O kimdir ki, qorxunla qıvrılmasın,
Bədəndən yazıq ruhu sıyrılmasın?!



Zal oğlundan ayrı sənin qarşına,
Çıxan bir nəfər yox, əyandır mana.
O, dünyada heç kimsəni sanmayır,
Özündən böyük bir nəfər anmayır.
O sağkən bütün Zabilistan onun,
Və Ğəzneyn onun, Kabilistan onun.
Böyükdür, igiddir, şücaətlidir,
Mətindir, cəsurdur, fərasətlidir.
Boyun əyməyir əmrü-fərmanıma,
Qulaq asmayır əhdü-peymanıma.
O, Keykavüsə öncə olmuş kölə,
Öyünmüşdü ən sonra Xosrov ilə.
O Gəştasibi şəhriyar bilmədi,
"Mənim tacım ondan böyükdür" – dedi.
Mənim hökmümə duymayıb ehtiyac,
"Mənim olmalıydı – deyir – təxtü-tac".
Deyir: "Rumda, Turanda hökmüm rəvan,
Önümdə durar sanma bir pəhləvan".
Eşitdinmi Löhrasibi şəhriyar,
Edərkən böyük xosrov-namdar,
Saçarkən hamı zər, qızıl taxtına,
O torpaq saçıb küsdü öz baxtına.
Boyunlar əyən şahın önündə həp,
Bağırmışdı bir gün həmən bədnəsəb
Ki, Löhrasibi hər kəs sanar şəhriyar,
Onu eylərəm ansızın xakisar.
O madam ki, öz felini qanmayır,
O madam ki, əmrimlə davranmayır,
Yəqin bəsləyir bir ədavət mana,
Öyünməkdədir kəndi fərmanına.
Edərək hücum Bəlxə Ərcasib həmən,
Olarkən bizim xalqımız naləzən,

O, yoldan dönüb gəlmədi qovğaya,
Bizi almadı onda Rüstəm saya.
Nələr bəkləyirsən ədudən daha?
Budur düşmənin yapdığı, qansana!
Əl atmaq gərək Siyistan səmtinə,
Füsunkar döyüşlər yaransın yenə!
Çəkib gürzü hayqır, əl at xəncərə!
Tutub Rüstəmi bağla zəncirlərə.
At üstündə çırpınmasın bir ürək,
Zəvarə, Fəramərz tutulsun gərək.
Qəsəm! Ərzi qüvvətlə nurlandıran,
Ayı parladan, ulduzu yandıran,
O Zənd ilə Zərdüştün ayininə,
Behi dinə, Nuşazərin dininə.
Mənim istəyimcə dolansan əgər,
Hökumətdən əlan atan əl çəkər.
Olar təxt-zər, tacü-əfsər sənin,
Xəzinə, bütün ordu, leşkər sənin!"
Bu yolda cavab verdi İsfəndiyar
Ki: "Sən ey hünərvər, böyük şəhriyar,
Böyüklər yolundan dönürsən nədən?
Çıxarmaz böyüklər sözü ölçüdən.
Sənin könlün hərgah vuruşmaq dilər,
Hünərvər igidsən, budur çinlilər.
Ararsan nə bilir ixtiyar yaşlıdan,
Ona derdi Kavus arslan tutan.
Qubadı, Mənuçöhri də görmüş o,
Bizim ölkəyə güc, işıq vermiş o.
Ona ad verilmiş Xudavənd-Rəxş,
Cahangirdi, arslandı, həm tacbəxş.
O, Xosrov zamanı bulub yüksəliş,
Sənin qüdrətindən ki, yüksəlməmiş?



Bulunmazsa şahlarda əhdə vəfa,
Nələr gözləyim mən də səndən daha?"
Cavab verdi öz oğluna şəhriyar
Ki: "Ey pəhləvan oğlu İsfəndiyar!
O insan ki, üz döndərə Tanrıdan,
Küləklə onun əhdi birdir, inan!
Gərək hal-Kavus əyandır sana,
Yolundan azıb uydu bir şeytana.
Qızılquşla yüksəldi ənginlərə,
Nəhayət o, Saridə düşdü yerə.
Alıb divlərin pəncəsindən yenə,
Çıxardı onu Rüstəm öz təxtinə.
Səyavuş onun uğramış qəhrinə,
Onu qoydu həsrət münəvvər günə.
Böyük şaha düz baxmayan bir kəsin
Keçilməz evi qarşısından yəqin.
Oğul, istəyirsən əgər təxtü-tac,
Qoşub Siyistan səmtinə ordu aç!
Çatar-çatmazın Rüstəmi bəndə sal,
Onu qarşıma qolları bağlı al.
Zəvarə, Fəramərz, Dəstan-Sam,
Çalış qurmasınlar sənə hiylə-dam.
Yayan sür, gətir onları qarşıma!
Əsirlər görünsün bütün orduma
Ki, bundan belə hökmümüzdən daha,
Çıxıb qaçmasın şir-nər, əjdaha".
Acıqlandı bundan böyük pəhləvan,
Dedi: "Sürmə meydan, əzizim, dayan!
Atam, sən hara, Rüstəm-Zal hara?
Sən İsfəndiyarçın tapırsan çara?
Təəssüf edib şahlığın taxtına,
Qıyırsan sən öz oğlunun baxtına.

Qoy olsun sənin taxt ilə tac-zər!
Mənə bir bucaq, padişahım, yetər!
Atam, mən sənin fikrini duymuşam,
Kiçik bəndənəm, əmrinə uymuşam.
Koşar Siyistan səmtinə bəndəniz,
Yapar kinli Xosrov nə əmr etsəniz!
Mənə üz verərsə fənalıq əgər,
Səninlə qiyamətdə Tanrım bilər.
Dağılsa, sökülsə bütün kainat,
Gedib Rüstəmə qarşı çallam qanad.
"Acıqlanma!" – Gəştasib əmr eylədi,
Kədərdən, qəzəbdən uzaqlaş!" – dedi.
Dedi: "Ey oğul, qıvrılıb yanma çox,
Böyüklük bularsan, acıqlanma çox.
Cəsur pəhləvanlar nə çox bizdə var,
Qoşub topla haydı, çapar atlılar,
Silah, ordu, dövlət... sənindir, sənin,
Neçin sən sözümdən çıxarsan? Neçin?..
Nə lazım mənə sənsiz əsgər, zəfər,
Böyük taxt ilə möhtəşəm tac-zər.
Nədən qəlbini çulğamışdır təlaş,
Koşub Zabilistanda, oğlum, savaş!
Yaxıb Siyistanı kül et ansızın,
Qaralsın günəş, orda nur saçmasın!"
Bu yolda cavab verdi İsfəndiyar:
"Mənim orduya ehtiyacımmı var?
Fələk uddurubdur mənə çoxlu qan,
Mənim varmı qorxum məgər ordudan?"
Şahın təxtü-tacı, şahın sözləri,
Onu titrədirdi dönərkən geri.
Dili, ağzı titrək, fəqət pürvüqar,
Çıxıb gəzdi eyvanda İsfəndiyar.



## RÜSTƏM VƏ İSFƏNDİYARIN VURUŞMASI VƏ İSFƏNDİYARIN ÖLMƏSİ

Söküb dan yeri, doğdu parlaq günəş,
Qaranlıqları boğdu parlaq günəş.
Geyib hərbi paltar, böyük pəhləvan,
Niyaz ilə yad eylədi Tanrıdan.
Minib dağ kimi nərrə pil* üstünə,
O kəşti kimi çıxdı Nil üstünə.
Çatınca böyük orduya namdar,
Deyirdi: "Hanı, nerdə İsfəndiyar?"
Onun qəlbi olmuşdu pək şamidan,
Ciyərdən çəkib nərələr pəhləvan:
"Ey arslan ürəkli, neçin yatmısan?
Minib Rəxşə, Rüstəm hazırdır, oyan.
Ayıl uyqudan, haydı qalx, hərbə koş!
Mənimlə savaş, haydı meydanda coş!"
Eşitdi bu avazı İsfəndiyar,
Onun gözlərində cavan oldu tar.
Dedi: "Ey Pəşutən, bu dünyada şir
Olan yerdə əfsunçu olmaz dilir.
Güman etməyirdim ki, Rüstəm geri
Dönüb, bir də görsün bizim yerləri.
Vücudunda peykanlarım gəzdi çox,
Kənar olmadı bəlkə Rəxşindən ox.
Deyirlər hər əfsunçu, hər cadugər,
Əgər meyli olsa, günəş fəth edər.
Acıqlansa, hətta canından keçər,
Gözündən böyüklük tamamən düşər".

* Pil – fil

Pəşutən töküb göz yaşı biməcal,
"Qoy olsun, – dedi, – düşmənin payimal.
Nədən sən bu gün böylə pəjmürdəsən?
Məgər uyqusuzmu sovuşmuş geçən?
Nədəndir cahanda iki pəhləvan
Çəkir dərdü-qəm, gülməyir bir zaman?
Kimin baxtı, bilməm, olub kəcmədar
Ki, qəlbində qəmlər, ələmlər duyar?"
Dəmir covşəni geydi İsfəndiyar,
Çatıb Rüstəmi gördü ol namdar;
Özündən çıxıb etdi cuş ansızın,
Dedi: "Yer üzündən silinsin adın!
Dünən yoxdu meydanda ağzın sənin,
Nə rəyin, nə huşun, nə məğzin sənin!
Unutdunmu sən arslanın hərbini?
Sənə vurduğum oxların zərbini?
Gedib eylədin cadu, gəldin yenə,
Bu arslan ürəkli igid cənginə.
Diriltdi səni zalın əfsunları,
Unutdunmu atəşli peykanları?!
Tökər oxlarım indi al qanını,
Atan da xilas eyləməz canını.
Bu saat səni eylərəm payimal,
Tökər göz yaşı iftiraqınla Zal".
Cavab verdi Rüstəm: "Ey İsfəndiyar!
Səni yormamışdır döyüş, karü-zar.
Sanırsan ki, mən cəng üçün gəlmişəm?
Bu gün üzrlə nəng üçün gəlmişəm.
Sakın çarxı dövr etdirən Tanrıdan!
İtirmə sən öz ağlını, pəhləvan!
Mənimlə savaşmaqsa məqsəd əgər,
Gözün, ağlın olmuş nə cür dərbədər?



Qəsəm şanlı Zərdüştə yüz min kərə
Və Nuşazərə, şən, böyük Azərə.
Qəsəm Zənd-Avestə, günəşlə aya,
Sənin əqlü-ruhunda yoxdur ziya.
Gəlib bir daha süfrəmi gör mənim,
Nədən olmusan boş yerə düşmənim?
Töküm yığdığım gənci mən qarşına
Ki, illərlə zəhmət çəkilmiş ona.
Bütün bunları yükləyim atlara,
Apar, get, aparmaq dilərsən hara,
Bərabər səninlə edib mən səfər,
Gedək Şahnişinə, dilərsən əgər.
Əgər istəsə, şah məni saxlayar,
Əgər istəməzsə, edər xaksar.
Qulaq ver ki, Dara nələr söyləmiş,
"Bəşər olmalı bəxtəvər" söyləmiş.
Səninçin ömürlük bulum çarələr
Ki, qəlbin döyüşlərdən etsin həzər.
Nədən qəlbin olmuş ağır baş kimi?
Nədən hərbə olmuş da sirdaş kimi?
Qəsəm şanlı yəzdanə, min bir qəsəm.
Çəkilsən döyüşdən bularsan kərəm".
Bu yolda cavab verdi İsfəndiyar:
"Döyüşdə mənim, sanma, əqlim qaçar.
Nə çox bəhs edirsən yeməkdən mənə?
Yaraşmaz ki, zatən barışmaq sənə!
Dilərsən sovuşsun başından xətər,
Budur mən, budur sən, budur bəndlər!"
Yenə söylədi Rüstəm: "Ey şəhriyar!
Yetər, olma haqsız, dayan, tut qərar!
Məni qılma bədnam, özün olma xar!
Fəna bir nəticə verər karü zar.

Əgər istəsən gövhər-şahvar,
Əgər istəsən əfsər, ey namdar!
Əgər istəsən min çocuq, min kəniz,
Əta eylərəm mən sənə, şübhəsiz!
Nəriman ilə, Sam ilə Zalın həp,
Bütün gənci olsun sənin malın həp.
Bütün bunları mən töküm qarşına,
Qulamlar pərəstişlər etsin sana.
Səninlə bərabər gedim mən yenə,
O kinli, qəzəbli şahın nəzdinə.
Ürəkdən çıxar kini, ey şəhriyar!
Bu əhriməni et özündən kənar!"
Dedi Rüstəmə böylə İsfəndiyar:
"Nə çox söylənirsən sən, ey nabəkar!
Deyirsən ki, yəzdan yolundan çıxım?
Şahənşah-dövran yolundan çıxım?
Şahın kim yolundan çıxarsa əgər,
O yəzdanə etməz belə səcdələr.
Fəna sözdən əl çək, yetər, sus daha!
Budur hərbü-meydan, deyilsən rəha!"
Baxıb gördü Rüstəm nəsihətləri,
Onu öz yolundan çevirməz geri.
Coşub söylədi: "Qoy Pəşutən bu gün
Gəlib işlərə şahid olsun bütün,
Ki, mən yaxşılıqlar edərkən sənə,
Fəqət sənsə, asi kəsildin mənə.
O bilsin, nahaq yerdə qan tökmərəm,
Yolumdan, dinimdən heç əl çəkmərəm".
Bu sözdən gülümsündü İsfəndiyar,
Ona söylədi: "Ey böyük namdar!
Bəhanən əkilməksə, boş sözləri
Burax, mən döyüşdən çəkilməm geri.



Pəşutən uzaqmı bilər bunları?
Oxur hər tərəfdə bu dastanları".
"Pəşutən, Pəşutən! – dedi. – Gəl bəri!"
Bərəldi həmən Rüstəmin gözləri.
Pəşutənçin açdı o əsrarü-raz,
Dedi: "Ey böyük pak dil, sərfəraz!
Mən İsfəndiyara bu dünya qədər
Öyüd verdim, oldu bütün bisəmər.
Görürsən ki, məndə deyildir qüsur,
Ölərsə, müqəssir tamamən odur.
Əlimdə əgər eyləsə tərk-can,
Sən et əncümənlərdə bir-bir bəyan
Ki, Rüstəm ona etdi çox pəndlər,
Nəsihətləri oldu həp bisəmər".
Çəkib nagahan nərə İsfəndiyar,
Dedi: "Çox danışmaqda mənamı var?
Döyüşdən, vuruşdan danış! Lafı at!
Yetər qaldı səndən bu şöhrətli ad".
Ayıltdı döyüş sözləri Rüstəmi,
Yəqin etdi gəlmişdir hərbin dəmi.
Kəmanə qoyub ansızın yulğunu,
Suvarmışdılar ab-rəzlə onu.
Oxu qoydu Rüstəm kamana həmən
Və dalğın baxıb asimana həmən
Dedi: "Ey günəşlə aya nur verən!
Bütün kainata yol, iz göstərən!
Görürsən mənim qüdsi-amalımı,
Bilirsən mənim könlümü, halımı.
Çalışdım, döyüşdən bu İsfəndiyar,
Çəkilsin, onun olmasın baxtı tar.
Fəqət haqqı, vicdanı atmış, atır,
Mənə iştə mərdlik, igidlik satır.

Bunu sanma əsla mənimçin günah,
Əya, ey işıqlar saçan padişah!"
Görüb Rüstəmi oldu işdən uzaq.
Savaşdan, vuruşdan, döyüşdən uzaq,
Dedi: "Ey böyük Rüstəm-namdar!
Nədən durmusan? Bax, budur karzar!
Görərsən həmən tir-Gəştasibi,
İti, qanlı peykan-Löhrasibi".
Kaman əldə hayqırdı birdən yenə,
Bir ox atdı tez Rüstəmin tərkinə.
Necə əmr qılmışdı simurq ona,
Təhəmtən kamanı basıb qoynuna,
Vurub gözlərindən onu etdi xar,
Qaraldı cahan sandı İsfəndiyar.
Dikildi onun gözləri bir oxa,
Füzunlaşdı qəlbində kinlər daha.
Əyildi yerə sərvtək qaməti,
Pozuldu tamam ağlının röyəti.
Baş əydi yerə şah-yəzdanpərəst,
Kamanı əlindən düşüb oldu pəst.
Yapışdı yalından atın bir zaman,
Gözündən həmən ləl tək axdı qan.
Dedi Rüstəm: "Ey qanlı İsfəndiyar!
Göyərdi sənin əkdiyin hər nə var.
O səndinmi derdin ki, "tuncdur canım,
Göyü mən yerə endirən insanım".
Mənə dəydi səndən yüz altmış xədəng,
Fəqət qoymadı inləyim namü-nəng.
Dəyincə sənə bir ağac, ox haman,
Yəhərdə yatıb söylədin "əlaman!"
Bir oxla çəkildin döyüşdən neçin?
Bununla pozuldun bütün şöhrətin.



Bu saat başın yaslanar torpağa,
Anan baş ucunda dönər yarpağa!"
Dönərkən geri ordudan şanlı şah,
Yıxıldı atından yerə, çəkdi ah.
Bir az qaldı səssiz, ayıldı yenə,
Həmən qoydu üz torpağın üstünə.
Çəkincə gözündən oxu bir yana,
Bulaşdı oxun şəhpəri al qanına.
Çatarkən bu qəmgin xəbər Bəhmənə,
Hücum etdi yüz min kədər Bəhmənə.
Pəşutən dedi: "Anla ki, indi biz,
Bu gündən belə qəmliyiz, dərdliyiz.
Bu gündən yıxıldı yerə güclü fil,
Gözündə bir dünya dumanlandı, bil".
"Nə olmuş?" – deyə pəhləvani-zaman,
Onu görməyə qaçdılar tez yayan.
Onun çevrəsi qanlıdır, baxdılar,
Əlində xədəngdən qızıl qan sızar.
Pəşütən çəkib yırtdı öz köksünü,
Başa saçdı torpaq, ucaldı ünü.
Bu halətdə Bəhmən yıxıldı yerə
Və simasını sürtdü al dəmlərə*.
Pəşutən dedi: "Olsa sirr-cahan,
Onu Tanrıdan başqa kimdir qanan?
Bax, ey kainatın qoca Tanrısı!
Ayın, ulduzun, ey uca Tanrısı!
Din uğrunda ərlik edən namdar,
Qılınclar çalan şanlı İsfəndiyar;
Cahanı edib bütpərəstdən təmiz,
Əl açmazdı zülmə, bilir, ölkəmiz.

* Dəmlərə – qanlara

Cavan yaşlarında həlak oldu, bax!
Başında qızıl tacı xak oldu, bax!"
Cavanlar həmən dörd yanın aldılar,
Ona qəmli-qəmli nəzər saldılar.
Silib üz-gözündən axan qanları,
Pəşutən də qaldırmış əfqanları.
Baxıb söyləyirdi: "Ey İsfəndiyar,
Cahan sarsıdan, ey qoçaq şəhriyar!
Sənintək döyüşkən dağı yıxdı kim?
İgid arslanım köksünə çıxdı kim?
Kimin qəhrinə keçdi dəndani-pil?
Nədən dalğalandı bu dəryayi-Nil?
Günü tar edən böylə kimdi əcəb?
Səni xar edən, söylə, kimdi əcəb?
Yanan şəmi bilməm neçin yıxdılar?
Böyük dudmanı neçin yıxdılar?
Sənə dəydi nerdən əcəb bədnəzər?
Görüm, düşməni olmasın bəxtəvər.
Bu taxtın, bu tacın üzü gülməsin,
Onu anmasın könlüm, heç bilməsin.
Bununçün düşüb torpağa oldu xar,
Sənin tək böyük pəhləvan şəhriyar.
Düşüncəylə ərz etdi İsfəndiyar:
"Sən ey arif insan, sən ey xoşgüzar!
Mənimçin fəğan çəkmə! Yaş tökmə sən!
Pozulmaz, bilirsən, fələkdən gələn.
Ölən torpağın bağrına yaslanar,
Səni ölməyim etməsin naləkar.
O Cəmşid, Firdunü-huşəng-nər...
Küləklər kimi əsdilər, keçdilər.
O mutlu, o qüdrətli əcdadımız,



O qutlu, o şövkətli əcdadımız
Bizə hər şeyi tərk edib getdilər,
Vəfasız fələkdən vəfa kim dilər?
Dolandım bu dünyanı gizlin, açıq,
Dolandım firəvan, dolandım saçıq.
Böyük Tanrıya xidmət olsun deyə,
Bəşər doğru yol bəlkə bulsun deyə,
Mənim sözlərim oldu pək şöləbar,
Fəna əhrimən oldu pəncəmdə xar.
Fəqət bükdü dövran çəlik pəncəmi,
Bir ahunu tutdu bir arslan çəmi!"

## SULTAN MAHMUD HAQQINDA HƏCV

Ölkələr fatehi, ey Mahmud Sultan!
Kimsədən qorxmasan, qorx da Tanrıdan!
Səndən əvvəl gələn şahlar da vardı,
Həpsi böyük-böyük tacidarlardı.
Səndən də yüksəkdi onların yeri,
Ordusu, dövləti, taxtı, əfsəri.
Yaxşılıq, doğruluq göstərmişdilər,
Onlar əyriliyə son vermişdilər.
Onlar zirdəstə yardımlar etmiş,
Pak olan yəzdanın yolilə getmiş.
Onlar çalışdılar qazansınlar nam,
Bununla bulsunlar gözəl sərəncam.
O şah ki, koşmada altun peşincə,
Böyüklər gözündə alçalar, məncə.
Güvənib taxtına, tacına əlan,
Mənə deyəcəksən: "Nədir bu hədyan?
Xəbərin yoxmudur kəskin üzümdən?
Məgər qorxmayırsan qılınc sözümdən?
Məni uğursuzmu, dinsizmi qandın?
Bu igid arslanı qoyunmu sandın?
Deyirlər Əliylə, Nəbiyə dair
Yazaraq yüksəldi bu qaba şair.
Kimin ki, Əliylə düşmənliyi var,
Hər iki dünyada olacaqdır xar.
Əl çəkməm onların bəndəliyindən,
Əgər parça-parça doğransam da mən.
Dönməm sevgisindən bu iki şahın,
Başımı kəssə də qılıncı şahın.



Ancaq biclər olar onlara düşman,
Yaxar onları da atəşdə yəzdan.
Mən kiməm? Nəbinin bir kiçik qulu,
Yolumdur hər zaman Əlinin yolu.
Fil ayaqlarında fil kimi məni,
Axıtmaq istərsən Nil kimi məni?
Mən qorxmam, ürəyim olduqca nəvvar:
Onda Əli şövqü, Nəbi eşqi var.
O böyük Tanrıdan vəhy gətirən,
Əmrlər gətirən, nəhy gətirən
Peyğəmbər demişdi: "Olmayın asi!
Mən elmin şəhriyəm, Əli qapısı".
Demiş bu sözləri böyük Peyğəmbər.
Hala qulaqlarım səsini dinlər.
Əgər bulunsaydı ağlın, tədbirin,
Əlinin yanında olardı yerin.
Ölüncə dönmərəm bu məsləkimdən,
Heydər ayağının torpağıyam mən.
Toxunmaq istəməm bir özgəsinə,
Mənim bu qapıda deyəcəyim nə!
Mahmud Sultan əgər keçərsə bundan,
Bir arpa dəyəri gözlənməz ondan.
Başqa bir sarayda Əli, Peyğəmbər
Tanrının əmriylə qoyar tac-zər.
Onlarçın yazaram dastan, hekayət.
Yüz Mahmud edərəm bəlkə himayət.
Durduqca sultanlar, durduqca dünya,
Şahlar pəyamımı alarlar saya.
Bilərlər Firdovsi, o əsil şair
Yazmamış naməni Mahmuda dair.
Əlinin, Nəbinin yazdım adından,
Dür yağar şerimin hər qanadından.

Dünyaya Firdovsi gəlməmiş hənuz,
Nə yazıq, taleyi çıxmış uğursuz.
Nə yazıq, naməmə baxmadan bir an,
Fəna dillər sizi çıxardı yoldan.
Ey mənim şerimə xor baxan insan!
Tutmasın əlindən bu çərx-dövran.
Mən keçən şahları aldım dastana,
Gözəl sözlərimi saldım dastana.
Ömrüm yaxlaşınca mənim həştada,
Ümidim sarsıldı, sovruldu bada.
Xəzinə şövqüylə yüksək sarayda,
Otuz il çalışdım, bulmadım fayda.
Yazmışam altmış min şaqraq beytlər,
Həpsində çarpışma səsləri gürlər.
Xəncərdən, qılıncdan, oxdan, kamandan,
Kupaldan, zirehdən, tozdan, dumandan,
Toppuzdan, qalxandan, qaftandan yazdım,
Dənizdən, qaradan... hər yandan yazdım,
Yazdım canavardan, şirdən, pələngdən,
Divdən, əjdahadan, fildən, nəhəngdən,
İfritdən, hiylədən, cadudan, quldan,
Onların səsilə titrədi cahan.
Yazdım meydandakı pəhləvanları,
Döyüşdən dəm vuran qəhrəmanları.
Yazdım igidlikdən, dərin girdabdan,
Tur ilə Səlimdən, Əfrasiyabdan.
Yazdım Firidunu, Keyqubadı həp,
Zöhhakın etdiyi istibdadı həp.
Samın, Gəştasıbin, Nərimanın mən,
Yazdım dürlü-dürlü döyüşlərindən.
Divbənd Təhmurəsi saldım dastana,
Yazdım Mənuçöhri, Huşəngi sana.



Bəhs etdim Cəmşidin qoçaqlığından,
Sonsuz şöhrətindən, ucalığından.
Kavusdan, Xosrovdan, tac verənlərdən,
Zal oğlu Rüstəmdən, tünc bədənlərdən.
Səksan pəhləvandan, Gudərzdən yazdım.
Hər atlıdan yazdım, hər düzdən yazdım,
Yazdım şücaətli Löhrasib şahı,
Qoşunlu, leşkərli Gəştasib şahı.
Münəccim Camasibin işini yazdım,
Aydan parlaq olan kişini yazdım.
Daranı, Darabı, Bəhməni aldım,
Böyük İsgəndəri kitaba saldım.
Qurdum Ərdəşirə, Şapura dastan,
Yazdım Bəhram ilə Nuşirəvandan.
Pərvizi, Qubadı, Hörmüzü yazdım,
O böyük Xosrov Pərvizi yazdım.
Bu adlı igidlər, bu çarpışanlar,
Onlardan ki, verdim sənə nişanlar,
Ölüb getmişdilər dünya üzündən,
Yeni can buldular şair sözündən.
İsatək onları sözlə diriltdim,
Yenidən həpsini namdar etdim.
Mənim bəndəliyim, bax, ey şəhriyar,
Qalacaq dünyada səndən yadigar!
Möhtəşəm binalar xarab olacaq,
Günəşdən, yağışdan həpsi solacaq.
Mən yapdım şeirdən yüksək bir bina,
Küləklər, yağışlar toxunmaz ona.
Keçəcək ömürlər, keçəcək illər,
Səsləyəcək məni ölkələr, ellər!
Ümid çiçəklərim açmadı bir an,
Bunu gözləməzdim şahlar şahından.

Alçaqlar olmasın əsla bəxtiyar,
Gözəl sözlərimi fəna sandılar.
Məni şah yanında kim yamanlatdı?!
İşıqlı ulduzu kim dumanlatdı?!
Bir münsif olaydı, deyəydi mana,
Hər bəla dilindən gəlir başına.
Saçdın söz toxmunu bütün cahana,
Cahan sözlərimlə döndü rizvana.
Çox gəlmiş dünyaya şeir deyənlər,
Yazmışlar göydəki ulduzlar qədər.
Onlar çoxdursa da, lakin heç biri
Yazmamış Firdovsi yazdığı şeri.
Otuz il çalışdım, ömür sərf etdim,
Sözümlə Əcəmi gəldim diriltdim.
Olmasaydı şahın əli bərk əgər,
Olmazdı məskənim bu quru yerlər.
Çirkin varlıların üzü gülməsin,
Dünyada comərdlər darlıq bilməsin!
Şahda bulunsaydı əgər mərifət,
Məni alçaltmazdı bu qədər əlbət.
Deyildi tacidar şahın əcdadı,
O tac geyənləri xatırlamadı.
Olsaydı atası şahın şah əgər,
Qoyardı başıma mənim tac-zər.
Sultanın anası olsaydı xatun,
Üzümə çıxardı gümüşlə altun.
Nəcabəti böyük olmadığından,
Ucalıq, böyüklük bəklənməz ondan.
"Şahnamə" üstündə otuz il tamam
Çalışdım, alayım xəzinə, ənam
Ki, sultanım mənə eyləsin niyaz,
İgidlər içində qılsın sərəfraz.



Ərmağan almadım, oldum dərbədər,
Ərmağanım oldu bir füqa qədər.
Aldım xəzinədən bir füqa pulu,
Xərclədim etmədən mən yarı yolu.
Artıq nə gözlənsin bu şəhriyardan,
Bu dinsiz, bu yolsuz xəyanətkardan!
Bir qulam oğlundan nə ummaq olar?
Hərçənd atası da olmuş şəhriyar.
Fəna insanlardan dünyada, artıq,
Kim gözlərsə əgər ümid, yaxşılıq.
Kələfin ucunu itirmiş olar,
Qoynunda yatağan gəzdirmiş olar.
Acı bir ağacı cənnətdə əksən,
Gözünü verdiyi meyvəyə diksən,
Sirab etsən onu cənnət suyundan.
Əsirgəməsən də şəhd-nab ondan,
İnan ki, bunların yoxdur əlacı,
Meyvəsi olacaq nəhayət acı.
Ətirçi yanında dolaşsan əgər,
Üstündən, başından saçılar ənbər.
Hər kəs kömürçünün yanından keçsə,
Şübhəsiz, qayıtmaz batmadan hisə.
Fənada yaxşılıq bulunarmı heç!
Gecədən qaranlıq alınarmı heç!
Alçağın peymanı, sözü sağ olmaz,
Zəncini yumaqla üzü ağ olmaz.
Bədəsil adama göz dikmə nahaq,
Saçma hədər yerə gözünə torpaq.
Onu haq yaratmış böylə əzəldən,
Bu yəzdan işidir, nə gələr əldən:
Böyüklük, ucalıq olmaz ki, sözlə?!
İki yüz sözdənsə, yarım iş izlə!

Şahın nəcabəti olsaydı təmiz,
Mərifət yolunu tutardı əziz.
Şahların yolundan, böyük Rüstəmdən,
Çox sözlər söylədim mən həmən-həmən.
Nədənsə, baxmadı şahım bunlara.
Kəsildi ömrümün günləri qara.
Odur ki, yazmışam mən bu sözləri,
Anlasın, açılsın şahın gözləri.
Etdim sözlərimlə sultana töhmət,
Anlasın ki, nədir öyüd, nəsihət.
Kəndi hörmətini qansın bir kərə,
Sıxıntı verməsin bu şairlərə.
Şair incidimi həcvə tez koşar,
Dünya yaşadıqca, həcvi də yaşar.
Yəzdanın önündə qan ağlayaraq,
Ansızın başıma saçaram torpaq,
Deyərəm, sən onu atəşdə yandır!
Bu qulun ruhunu, gəl, işıqlandır!

Tərcümə edənlər: ***M.Müşfiq***
***M.Seyidzadə***



A.S.PUŞKİN

## QARAÇILAR

Qaraçılar küylü bir izdihamla
Bessarabiyada çıxmışlar yola.
Bu gün çay üstüdür düşdükləri yer,
Yırtıq çadırlarda gecələyirlər.
Bir azadlıq kimi şəndir göylərin
Altında bunların sakit və dərin
Yuxuya getməsi. Xalça asılmış
Araba üstündən: külfət yığılmış;
Nahar hazırlayır dövrə vuraraq,
Çarxlar arasında yanır bir ocaq.
Qarşıda parlayır şehli bir çayır,
Orada yorulmuş atlar otlayır.
Azad əl ayısı halı-halında,
Uzanmış rahatca çadır dalında.
Yarın yaxın yola hazırlaşan bu
Sakit, dinc külfətin bütün qayğısı,
Çocuq bağırtısı, qadın nəğməsi,
Səyyar zindanların gurlayan səsi
Nə qədər canlıdır bu çöldə, bilsən...
İştə bu köçəri tabor üstündən
Bir röya sükutu keçincə dərhal,
Çölün sükutunu eyləyir ixlal
Bir at kişnəməsi, köpək hürməsi;
Artıq taborun da kəsilmiş səsi.
Artıq hər tərəfdə keçmişdir odlar,
Dərin bir səssizlik, seyrək buludlar

İçindən süzülüb kədərin nuru,
Parladır göylərdən sakit taboru.
Fəqət bir çadırda yatmayır qoca,
Qarşıda getdikcə sönən bir ocaq
İsidib canını son hərarətlə
Uzanan çöllərə baxır diqqətlə.
Onun cavan qızı gəzməyə getmiş,
Azad dolaşmağı bir adət etmiş...
O gələr, gecədir, ay da tutuldu,
Girdi buludlara, görünməz oldu.
Zemfira gəlməmiş, gəlməmiş hənuz,
Oldu ixtiyarın xörəyi bumbuz.

Budur gəlir, gəlir. İzincə ancaq
Bir gənc təqib edir onu koşaraq;
Bu gənc ixtiyara tanış deyildir.
Zemfira ansızın: "Atacan!– deyir, –
Bu qonağı tapıb gətirmişəm mən
Təpə dalındakı düzdə gəzərkən.
Bizimlə burada qalmaq istəyir,
O da bir qaraçı olmaq istəyir.
Onu təqib edir hər yerdə qanun;
Mən də rəfiqəsi olaram onun.
Adı Alekodur, bilirəm hətta
Arxamca koşmağa hazırdır o da".

Qoca

Çox şadam. Bizimlə səhərədək qal,
Gecəni yatıb da yornuğunu al.
Yaxud istər isən qal həmişəlik,
Bu yurda bizimlə olarsan şərik.



Yurd et çadırımı, səyabanımı;
Mən də çörəyimi, güzəranımı
Hazıram səninlə təqsim etməyə,
Sənə var-yoxumu fəda etməyə.
Bizim ol, bir yerdə çalış bizimlə,
Azad yoxsulluğa alış bizimlə.
Dan yeri ağarar-ağarmaz səhər
Biz bir arabada edəriz səfər;
Sən də istədiyin sənətlə uğraş,
İstərsən dəmir döy, istərsən dolaş
Ayıyla kəndləri, ya şərqi oxu.

Aleko

Qalıram!

Zemfira

Mənimdir, mənim, Aleko!
Mümkündürmü onu məndən ayırmaq?
Lakin keçdi gecə... yatmalı artıq.
Bürüdü ətrafı bir kor qaranlıq,
Göydə nə ay gülür, nə ulduz gülür,
Gözümdən bir şirin yuxu tökülür...

Səhərdir. Yerindən qalxıb yavaşca,
Çadırın başına dolanır qoca.
"Zemfira, qalx, oyan, səhər açıldı,
Qalx, əziz qonağım, şəfəq saçıldı.
Çocuqlar, yetişir bu nazlı uyqu!"
İştə xalq içində vəlvələ qopdu,

Çadırlar yığılıb, arabalar da
Hərəkət etməyə durdu kənarda;
Hər bir şey tərpəndi yerindən, baxın
Çöldə dalğalanıb yürüyür axın:
Atıq səbətlərdə birər-ikişər
Oynaq çocuqları daşır eşşəklər.
Bir yolu izləyir qocalar, yaşlar,
Kişilər, qadınlar, qızlar, qardaşlar
Gurultu, patıltı, cəngi nəğməsi,
Ayı nəriltisi, zəncirin səsi.
Qoyu, alabəzək cırımcındırlar,
Bədənləri çıplaq çocuq, ixtiyar;
Qalxır, dalğalanır hamının səsi,
Təkər qıjırtısı, it hürüşməsi.
Hamsı tutqun, vəhşi, hamsı nizamsız,
Hamsı da olduqca canlı, aramsız.
Bu şad, bu sərgərdan həyata ancaq
Bizim – dirilikdən büsbütün uzaq –
Lətafətlərimiz, qulların acı
Yeknəsəq nəğməsi kimi yabancı.

Bir tutqunluq çöküb gəncin rənginə
Hüzünlə dalmışdı boş birənginə.
Dərdinin səbəbi özünə gizli,
Onu şərh etməyə gəlməzdi dili.
Qaragöz Zemfira yanında əlan,
O artıq dünyada azad bir insan.
Nəşəli günəş də başı üstündə
Cənub hüsnü ilə parlayır gündə.
Gəncin ürəyini bəs nə ağrıdır?
Bu hansı qayğıdır, hansı ağrıdır?



Tanrı quşu cahanda
İş bilməz, qayğı çəkməz.
Həmişəlik bir yanda
Özünə yuva tikməz.
Dalların üzərində
Mürgülər uzun gecə;
Qanad çalar yerində
Dan yeri sökülüncə.
Dəm çəkə-çəkə dinlər
Tanrının nidasını.
Ansızın şövqə gələr,
Başlar öz havasını.
Səfalı yaz gedincə,
Yay gözlənmədən gələr,
Payız hülul edincə,
Ayaz gələr, çən gələr.
İnsanlara işgəncə,
İnsanlara acıdır.
Bu yerlər qış gəlincə,
Quşlara yabançıdır.
Göy dənizdən o üzə
İsti diyara kimi
Uçarlar süzə-süzə
Gələn bahara kimi.

O da öz yerindən artıq qovulmuş,
Sanki bir köçəri, bir qayğısız quş.
Bir ümid yuvası hörə bilməyir,
Könlünü heç şeyə verə bilməyir.
Ona yollar açıq, ürəklər açıq,
Açıldı üzünə hər bir alaçıq.

O bütün gününü qalxıb yerindən
Haqqa tapşırardı hər sabah erkən.
Nə həyat qorxusu, nə dərdi vardı,
Könlündə ətalət hər vaxt yaşardı.
Sehirli bir şöhrət ulduzu bəzən
Onu çağırardı axıb süzərkən.
Gah zinət, əyləncə yerli-yerində
Canlanardı onun nəzərlərində.
Gurladı şimşəklər yalnız başında,
Tufanlar altında, gənclik yaşında;
O, fəqət bunları saymaz durardı,
Açıq havalarda mürgü vurardı.
Ona yabançıydı baxtın varlığı,
Kor, məkirli baxtın hökmdarlığı.
Onun itaətkar qəlbilə bəzən
Ehtiraslar necə oynardı, bilsən!
Qaynayıb içində bu qasırğalar,
Döyərdi köksünü güclü dalğalar!
Onlar həmişəlik susmuşdu çoxdan,
Onlar oyanacaq bir daha, dayan!

Zemfira

Əzizim, təəssüf etməyirmisən
Ki, atıb hər şeyi tərk elədin sən?

Aleko

Mən nə tərk etmişəm?

Zemfira

Bilirsən nəyi:
Vətən övladını, böyük bəldəyi.



Aleko

Təəssüfmü? Xayır! Bir dəfə bilsən,
Bir dəfə keçsəydi təsəvvüründən
Boğuq şəhərlərdə olan bağlılıq.
Orda yığın-yığın insanlar yazıq,
Görməzlər üzünü azad şənliyin.
Sərin səhərlərdə bir çəmənliyin
Tənəffüs etməzlər xoş qoxusundan,
Orda həya qılır sevgidən insan.
Fikirlər əzilib atılır orda,
Azadlıq alınıb satılır orda.
Bütlərin önündə başlar əyilir,
Onların istəyi para və zəncir.
Mən nə tərk etmişəm: həycan, xəyanət,
Vəsvəsə, şikayət, zülüm, səfalət.
Parlaq qabalığın ittihamını,
Duyğusuz təqiblər izdihamını.

Zemfira

Yox, orda möhtəşəm salonlar da var,
Orda ipək kimi əlvan xalçalar,
Orda məclis, oyun, coşqun ziyafət,
Zəngindir qızların taxdığı zinət!

Aleko

Nədir şəhərlərin nəşə tufanı?
Sevdasız bir yerdə məsərrət hanı?!
Qızlarsa... onlardan artıqsan, ey qız,
Bəzəksiz, incisiz, boğazaltısız!

Dəyişmə nazlı yar, məlahətli yar!
Mənimsə könlümdə bir diləyim var:
Sevgimi, günümü səninlə bölmək,
Könüllü sürgündə eşqinlə gülmək.

## Q o c a

Sevirsən görürəm bizi içindən,
Çıxsan da dövlətli bir xalq içindən;
Azadlıq xoş gəlməz bəlli, çox kərə,
Nazla, nəzakətlə böyüyənlərə...
Bizim aramızda bir rəvayət var:
Cənubdan birini nə zamansa çar,
Bizim tərəflərə etmişdi sürgün.
(Bir zaman bilirdim, indi büsbütün
Onun çətin adı çıxmış yadımdan).
Bir az qocalsa da o qərib insan,
Lakin canlı, cavan bir qəlbi vardı,
Qabil, xoş nəfəsli bir nəğməkardı.
Səsində suların gurultuları...
Hər görən sevərdi bu ixtiyarı.
Tuna sahilində yaşardı təkcə,
Kimsənin qəlbinə dəyməzdi tükcə.
Xalqı nəğməsinə məftun edərdi,
Bir şeyin könlündə olmazdı dərdi.
Kövrəkdi, ürkəkdi bir çocuq qədər...
Balıq tutardılar, ov edərdilər
Onun əvəzinə başqa adamlar.
Gəlincə qara qış, sovrulunca qar,
Çay da şaxta vurub buz bağlayınca
Geyərdi kürkünü müqəddəs qoca.
Bu yoxsul həyatın dərdinə naçar,
Təhəmmül etmədi yazıq ixtiyar.



Həyatı sərsəri, rəngi sapsarı...
Özü deyirmiş ki, qəzəbli tanrı
Cəza vermiş ona cinayət üstə.
Bir nicat gözlərdi o hər nəfəsdə,
Bu nicat gününü gözləyərək o,
Uzaq vətənini özləyərək o,
Dolaşıb Tunanın sahillərində,
Boğulub qəlbinin nisgillərində,
Bədbəxt uzun-uzun fikir çəkərdi,
Gözündən od kimi yaşlar tökərdi.
İxtiyar dünyadan edincə rəhlət,
Kimsəyə etmişdi böylə nəsihət:
Haman bu torpağa yaxın olmayan,
Ölümlə belə sükun bulmayan
Qonaqlar, bu yerdən onu alıb da
Qəmli kəmiyini gömsün cənubda.

## A l e k o

Oğlunun taleyi böyləymiş əlbət,
Ey möhtəşəm Roma, ey gur səltənət!
Tanrılar, sevgilər müğənnisi sən,
Söylə, əcəb nədir bu şöhrət, bu şən?!
Nəsildən nəsilə keçən bir səda,
Məzar uğultusu, alqış səsimi?
Yoxsa bir tüstülü çadır altında
Vəhşi qaraçının əfsanəsimi?

İki il keçmişdi, gəzirdi hala
Həmən qaraçılar sakit taborla.
Hər yerdə əvvəlki geniş azadlıq,
Eyni qonaqcıllıq, eyni rahatlıq.

Qurtulub şəhərin zəncirlərindən
Aleko olmuşdu onlar kimi şən.
Keçirir onlarla köçəri günlər,
Bilməyirdi nədir təəssüf, kədər.
Özü həmən adam... həmən ailə...
Keçən illərini anmayır belə.
Alışmış qaraçı məişətinə,
Alışmış onların hər adətinə.
Sevir yataqların kölgələrini,
Yoxsul və ahəngli ləhcələrini.
Şirin cazibədar duyardı hər an
Onların bu atil yaşayışından.
Ayı zağasından düşərək uzaq,
Olmuş bu çadıra qıllı bir qonaq,
Kəndlərdə, yolların bir kənarında,
Moldovan həyəti yaxınlarında,
Usul izdihamın önündə indi
Nərildəyib, zəncir gəmirmədəydi.
Əsayə söykənib baxırdı qoca,
Dəfini çalırdı tənbəl, ağırca.
Gəzdirib heyvanı burda həvəslə,
Aleko oxurdu bir dadlı səslə.
Bir-bir adamlara yaxınlaşırdı,
Zemfira könüllü xərac yığırdı.
Çökincə gecənin qaranlıqları,
Üçü də bir yerdə bişirir darı;
Hər şey öz yerində, ixtiyar yatmış,
Çadır qaranlığa, süküta batmış.

Qoca bədənində donan qanını,
Günəşə verərək bir ləzzət alır.
Qızı oxur beşik yanında mahnı,
Aleko dinləyib rəngi saralır.



Zemfira

Köhnə ər, dəhşətli ər,
Doğra məni, kəs məni.
Bıçaq olsun, od olsun,
Qorxutmaz heç kəs məni.

Səni görmək istəməm,
Sənə çox nifrətim var.
Dərdindən öldüyüm bir
Gəncə məhəbbətim var.

Aleko

Sus artıq, oxuma, usandım yetər!
Dinləmək istəməm vəhşi nəğmələr.

Zemfira

Dinləməyirsənmi? Özün bilərsən,
Nəğməni özümçün oxuyuram mən.

Kəs məni, yandır məni,
Açmam hüzurunda dil;
Köhnə ər, dəhşətli ər,
O sənə tanış deyil.

O bahardan tazədir,
Yay günlərindən sıcaq;
Mənə vermiş könlünü,
Həm cavandır, həm qoçaq!

Mən onu oxşayırdım
Gecə vaxtı çəməndə!

Çal saçına gülürdük
Uzaqdan o da, mən də!

Aleko

Zemfira, usandım yetər!

Zemfira

Öyləmi,
Deməli anladın mənim nəğməmi?

Aleko

Zemfira!

Zemfira

Sinirlən, özün bilərsən,
Nəğməmi səninçün oxuyuram mən

(*Gedərək oxuyur*)

Köhnə ər, dəhşətli ər.

Qoca

Yaxşı yadımdadır, yaxşı yadımda,
Bizim zəmanədə çıxmış bu hava.
Oxuyur insanlar onu hər yerdə,
Oxuyur toylarda, əyləncələrdə,
Kağul düzlərindən keçərkən hamı.
Arvadım Maryula bir qış axşamı,
Yelləyib qızını ocaq yanında,
Oxuyurdu bunu öz zamanında.



Mənim xatirəmdən keçən zamanlar
Tutulub, üstünü alır dumanlar.
Çox şeylər keçmişdir mənim başımdan,
Bu nəğmə çıxmamış heç yaddaşımdan.
Hər şeydə susqunluq, sakit bir gecə;
Göylərdən bəzəyir ay incə-incə
Cənubun lacivərd üfüqlərini,
Dağıdır ətrafa şəfəqlərini.
Zemfira qocanı qaldırıb deyir:
"Atacan, Aleko bərk inildəyir,
Sanki sızıldayır yuxu içində.
Ürəyim çırpınır qorxu içində".

Qoca

Sükutu hifz eylə, ona dəymə sən.
Bir rus rəvayəti eşitmişəm mən:
Bu gecə vaxtında bir ev ruhu var,
Onun nəfəsini tənglədib boğar.
O ruh çıxıb gedər sabah olunca,
Gəl otur yanımda, darıxma bunca.

Zemfira

"Zemfira!" deyərək pıçıldayır o.

Qoca

Arayır röyada səni Aleko,
Onun gözlərində, qızım, duysana,
Cahan bir yanadır, sən də bir yana.

Zemfira

Ona qarşı sevgim sönmüşdür artıq
Darğınam, ürəyim istər azadlıq.
Mən daha... sakit ol, dinlə, atacan,
Başqa bir ad çıxdı dodaqlarından.

Qoca

Nə ad, kimin adı?

Zemfira

Bu səsi dinlə,
Bir qırıq, bu boğuq nəfəsi dinlə...
Onun iniltisi bütün xətərdir!
Oyandırım onu!

Qoca

Məncə, hədərdir.
Qovma, qızım, qovma gecə ruhunu,
O gəlmiş, gedəcək.

Zemfira

Bir seyr et onu:
Məni səsləyərək doğruldu hətta,
Sən yat, mən gedirəm, mehriban ata.

Aleko

Hardaydın?



Zemfira

Atamla söhbət edirdim.
Hansı bir ruh isə, diqqət edirdim,
Röyada ruhunu incitmədəydi.
Sən məni qorxutdun, bilməm o nəydi?
Dişini qıcırdıb məni uyquda
Çağırdın.

Aleko

Görürdüm səni uyquda
Qorxunc xəyallarla yuxum dolmuşdu;
Sanki aramızda bir şey olmuşdu...

Zemfira

Uğursuz röyaya gəl inanma çox.

Aleko

Ah, mənim bir şeyə inandığım yox.
Nə bu ağır yuxu, nə dadlı vədən,
Hətta qəlbinə də inanmıram mən.

Qoca

Ey ağılsız çocuq, nə olmuş, nə var,
Neyçindir çəkdiyin yanıqlı ahlar?
Burda insan azad, gözlər də aydın,
Gözəlliklə tapır şöhrət hər qadın,
Ağlama, qəm səni məhv edər bütün.

Aleko

Atacan, o məni sevməyir, düşün!

Qoca

Əzizim, sakit ol, o bir çocuqdur,
Sənin dərdinin də heç yeri yoxdur.
Sən sevirsən onu, incə, çətincə,
Fəqət qadınların ürəyi, məncə,
Bənzər pək təbii bir əyləncəyə.
Bir bax üstündəki lacivərd göyə,
Dolaşıb altında sərazəd qəmər
Ətrafa nurunu saçır bərabər.
Hansı bir buludun içinə girsə,
Onu işıldadır, ondan keçirsə,
Özünü bir başqa buludda, lakin
Orda da olamaz həmişə sakin.
Kim məkan göstərər ona göylərdə
Buyurub deyər ki, dayan bu yerdə?!
Kim cavan qızların qəlbinə dəyər;
Ancaq birini sev, sadiq ol deyər?
Sakit ol!

Aleko

O məni sevərdi öncə!
Mənə baş əyərdi o incə-incə.
Çöllər səssizliyi içində birdik,
Uzun gecələri xoş keçirirdik.
Çocuq sevincilə dolu bir ürək
Bəzən şirin-şirin kəkələyərək,
Könül oxşayıcı gülüşlərilə,
Təskinlikverici öpüşlərilə,
Qəlbimdən fikrimi vurub qovardı,
Onun mehriban bir qılığı vardı.
Keçmiş sədaqətlər indisə yoxdur,
Ah, mənim Zemfiram mənə soyuqdur.



Qoca

Qulaq as, çıxmamış hələ yadımdan,
Bir qissə söyləyim öz həyatımdan.
Keçmiş zamanlarda Tunayı, bilsən,
Hələ Moskovlular titrətməmişkən,
(Eh yenə çevrilib keçmişə daldım,
Köhnə qüssələri yadıma saldım).
Onda biz soltandan qorxardıq yaman.
Akkermanın yüksək qalalarından
Bucaqda bir paşa hökün sürərdi.
Mən gəncdim, könlümün heç yoxdu dərdi.
Yaşardım qüssədən, qayğıdan uzaq,
Hənuz saçlarıma düşməmişdi ağ.
Gözəllər içində birisi vardı,
Mənə günəşləri xatırladardı.
Nəhayət, o gözəl mənə ad oldu,
Ah, mənim gəncliyim mənə yad oldu.
Bir an ulduz kimi tez axdı, keçdi.
Sevgilim üzümə yan baxdı keçdi;
Bir il sevdi məni yalnız Maryula.
Bir dəfə rastlaşdıq başqa taborla,
Kağul sularına yaxın civarda.
Həmin söylədiyim qaraçılar da
Bizim dağ döşündə çadır qurdular,
Yalnız iki gecə orda durdular.
Üçüncü gecəsi çıxıb getdilər,
Başqa bir iqlimə səfər etdilər.
Balaca qızını mənə tərk etdi,
Varıb Maryula da onlarla getdi.
Mən sakit yatmışdım; sökərkən şəfəq
Oyandım, eşimi görmədim ancaq.

Çağırdım, izini gəzdim, aradım,
Zemfira ağladı, mən də ağladım.
O gündən təkliyə çəkilərək mən,
Dünya gözəlləri düşmüş gözümdən.
O gündən bir qıza könül vermədim;
Tək qalıb, kimsəylə gün keçirmədim.

Aleko

Bəs necə oldu ki, tələsmədin sən,
Arvadın dalınca düşmədin həmən?
Vəhşi qaraçının, xain arvadın
Köksünə bir iti xəncər taxmadın?

Qoca

Nə gərək, bu gənclik hərcayi bir quş,
Sevgi zəncirlərə haçaq tutulmuş?
Sırayla verilir hər kəsə şadlıq;
Olanlar bir daha olamaz artıq.

Aleko

Xayır, mən onlardan deyiləm; öncə
Keçmərəm haqqımdan döyüşməyincə;
Ürəyim tutamaz bununla aram,
İntiqam alaram, əvəz, intiqam!
Düşmənim dənizdə əlimə keçsə,
Yatmış olsa belə, o köməksizə
Qıyıb, dalğalara onu atardım,
Qəhqəhələr çəkib kama çatardım.
Mənə uzun zaman onun düşməsi
Andırardı gülünc, dadlı bir səsi.



Gənc qaraçı

Bir daha, bir daha, bir dadlı busə!

Zemfira

Qorxuncdur, qısqancdır ərim, gələrsə...

Qaraçı

Ayrılıq eşqinə bir də, bir də gəl!

Zemfira

Əlvida, əlvida, çıxmadan əngəl.

Qaraçı

Haçaq görüşəriz söylə bir daha?

Zemfira

Təpə dalındakı məzar başında,
Bu gün ay batarkən.

Qaraçı

İnanmam, yalan!

Zemfira

Qaç gəlir. Gələrəm əzizim, inan!

Aleko uyuyur. Fikrində oynar
Tutqun həyulalar, qorxunc röyalar.

Birdən çığırtilə qalxar uyqudan,
Qısqanc-qısqanc baxır, əsir qorxudan,
Zülmətdə arayır nəysə əlləri,
Soyuqdur yanında dostunun yeri.
Onun sevgilisi indi uzaqda...
Qalxıb qulaq verir yenə yataqda...
Hər şey sakit əsir həyəcanından,
Soyuq bir tər axır onun canından.
Ansızın atılır çadırdan çölə,
Araba yanında gəzir hirs ilə.
Hər şey rahat, çöllər sükut içində,
Ay da ki, gizlənmiş bulud içində.
Az-az ulduzlardan işıq saçılır,
Az-az şeh üstündə izlər açılır.
Bir kurğana çıxan tanış izləri
Tutaraq Aleko gedir irəli.
Çox uzaqda deyil, yoldan az kənar
Onun qarşısında ağarır məzar.
Onu sürükləyir təpəyə sarı
Taqəti kəsilən süst ayaqları.
Ağır fikirlərlə koşur iləri...
Əsir dodaqları, əsir dizləri...
Gedir... birdən-birə... uyqudur bəlkə,
Orda görür iki yanaşı kölgə;
Yaxın pıçıltılar eşidir həmən
O təhqir edilmiş uçuq qəbirdən.

Birinci səs

Vaxtdır.

İkinci səs

Dur bir az!



Birinci səs

Vaxtdır, yetər!

İkinci səs

Yox, yox, gözləyəlim sabaha qədər.

Birinci səs

Gecikdik.

İkinci səs

Sevgidə necə ürkəksən.
Bir an da!

Birinci səs

Sən məni məhv edəcəksən.

İkinci səs

Bir an da!

Birinci səs

Ya ərim oyansa mənsiz...

Aleko

Xayr, oyanmışam öylədə sənsiz.
Haraya? Dayanın, çox tələsməyin;
Bu qəbir yaxşıdır hər ikinizçin.

Zemfira

Əzizim, durma, qaç!

Aleko

Gözəl gənc, dayan!
Haydı, yıxıl yerə!

(*Bıçağı ona saplar*)

Zemfira

Aleko!

Qaraçı

Aman...

Zemfira

Öldurərsən onu, Aleko, burax,
Bütün üst-başın qandır, bircə bax;
Ah, sən nə eylədin?!

Aleko

Heç nə, indi gəl
Eşqilə nəfəs al, eşqilə dincəl.

Zemfira

Lənət gəlsin qara vəhşətlərinə,
Bu alçaq, bu acı dəhşətlərinə.
Səndən qorxmayıram.



Aleko

Sən də öl, gəbər!..

(*Vurar*)

Zemfira

Ölürəm sevərək.

Dan yeri sökülür həp saçaq-saçaq,
Təpə arxasında əlində bıçaq,
Qızıl qan içində Aleko durmuş;
Qəbir daşlarının üstə oturmuş.
Qarşısında iki cənazə vardı;
Qatilin üzündən dəhşət yağardı.
Onun ətrafını almışdı darğın,
Həyəcana gələn qəmli bir yığın.
Orda qazılırdı dərin bir məzar.
Qəmli dəstələrlə gəlib qadınlar,
Solğun gözlərini bu ölənlərin
Öpüb, çəkirdilər ah dərin-dərin.
Dilsiz kədərlərin içində orda,
Yalnız oturmuşdu ixtiyar ata;
Məhv olmuş qızına baxırdı, birdən
Hər iki cənazə alındı yerdən,
Gömüldü torpağın soyuq qoynuna.
Aleko uzaqdan baxırdı buna.
Onların üstünə sonuncu torpaq,
Atılarkən, o da səssiz qalxaraq,
Sarsılıb qaranlıq çökdü üzünə,
Düşdü daş üstündən otlar üstünə.

İxtiyar yaxlaşıb dedi bu zaman:
"Burax, burax bizi qürurlu insan!
Biz vəhşiyiz, bizdə qanun-filan yox,
Zülümdən, edamdan bizdə nişan yox.
Bizə nə inilti, nə qan gərəkdir;
Nə də bir qan tökən insan gərəkdir.
Səncə, səninçindir yalnız hürriyyət,
Sənə layiq deyil bu vəhşi qismət.
Sənin səsin bizə qorxuncdur, ancaq
Bizim ürəyimiz şəfqətli, yumşaq.
Ötgəmsən, kinlisən; taboru tərk et,
Bağışla bizləri, sağlıqla qal, get!.."

Deyib küylə qalxdı hamı yerindən,
Qorxunc düşərgənin vadilərindən,
Bu köçəri tabor yollandı getdi,
Uzaq steplərdə gözlərdən itdi.
Bir yırtıq xalçalı araba yalnız,
Uğursuz səhrada qalmışdı yalqız.
Bəzən böylə olur qış qabağında;
Dumanlı, çiskinli səhər çağında
Qalxıb bir gecikən durna qatarı
Uçarkən çöllərdə cənuba sarı,
Ölüm gülləsindən biri zəxm alır,
Qırıq qanadlarla sallanıb qalır.
Gecəydi, hər tərəf, hər yer qaranlıq,
Qaranlıq araba yanında artıq
Kimsə od qalayıb ocaq salmadı,
Yatıb sübhə kimi nəfəs almadı.



## EPİLOQ

Coşqun tərənnümün sehri gücündən
Tutqun yaddaşımda canlanır həmən,
Bütün xatirəsi gəzdiyim yerin,
Səfalı günlərin, qəmli günlərin.

Ordakı uğultu əksilməyirdi,
Dəhşətli qovğalar kəsilməyirdi.
Hakimlik hüdudu çəkib də ruslar,
Ordakı İstanbul qalmışdı naçar,
Ordakı səsində keçmiş bir cəlal,
Yüksəlirdi bizim çift başlı qartal.
Tuş gəldim o yerdə, o diyarda mən,
Düşərgəsi qədim hüdudlarda mən,
O sakit qaraçı taborlarına,
– Əmin azadlığın yavrularına.
Təbiətin yazıq oğulları, siz,
Siz də zənn etməyin bəxtəvərsiniz!
Yırtıq çadırnızın altında yaşar
Sizin də can sıxan ağır uyqular.
Sizin də acıdır güzaranınız,
Çöllərdə köçəri sayəbanınız.
Yenə hər tərəfdə məşum ehtiras,
Taleyin əlindən qurtulmaq olmaz.

Tərcümə edənlər: *M.M[illegible]fiq*
*Ş.A[illegible]*

M.Y.LERMONTOV

# DEMON

## BİRİNCİ HİSSƏ

### I

O mükəddər Demon qovğun zəbani
Uçurdu günahkar yer üzərində.
Gözəl günlərinin məsud zamani
Canlanırdı onun nəzərlərində.
Göylərin qoynunda məsum bir mələk
Kimi parlayaraq gəzdiyi dəmlər
Ulduzlar önündə gülümsəyərək,
Onu mərhəmətlə süzdüyü dəmlər
Həris gözləriylə baxıb göylərə
Keçən karavanları seyrə dalırdı.
Ulduzlar yurduna – mavilik lərə,
Dərin bir istəklə nəzər salırdı.
Yalnız bu şeylərdi ürəyindəki;
Nə şübhəsi vardı, nə kini vardı.
Əsrlərin məyus keçən illəri
Rahatsız etməzdi qəlbini bir an;
Daha nələr, nələr, bir çox şeyləri
Yadına salmağa bulmazdı imkan.

### II

Tanrı dərgahından çoxdan qovulmuş;
Gəzirdi aləmi dərbədər kimi.
Əsrlər sürətdə dəqiqə olmuş,
Qərinələr yekrəng saatlər kimi.



Fənalıq mülkündə hakim olalı
Şərarət saçardı, zövq alamazdı.
Yoxdu sənətinin sonu, zavalı,
Ona əngəl çıxan şey olamazdı.
Bu hallar qəlbini yordu nəhayət.

### III

Qafqazın ən yüksək şahiqəsində
O cənnət qovğunu qanad çalırdı.
Kazbekin sürgünü ondan aşağı
Qarlar almaz kimi şəfəq salırdı.
Dərələrin sonsuz dərinliyinə
Dolamac bir ilan yuvası kibi
Daryal işıldayıb axırdı yenə,
Terek də bir yanda coşqun, əsəbi,
Boynunda qabarmış köpükdən yalı,
Dişi aslan kimi çəkirdi nərə;
Üstdən dağ heyvanı, qaya qartalı
Dalırdı dərədən qopan səslərə.
Açmış ətrafında çiçəklər, otlar,
Kölgəli ağaclar dalmış xəyalə.
Cənubdan ayrılan əlvan bulutlar
Təşyi eyləyirdi onu şimalə.
Gümüş dalğaların seyrinə dalmış
Sirli mürgülərlə sıra qayalar;
Ağır başlarını aşağı salmış,
Həpsinin üzündə bir düşüncə var.
Qafqazın al-yaşıl qapılarında
Qaravula durmuş qoca nəhənglər
Kimi, qayaların dörd kənarında
Dumanlar ardından salaraq nəzər

Acıqlı-acıqlı bürclər baxırdı.
Altda coşqun sular axır, axırdı...
Vəhşi gözəlliklə dolu təbiət
Açmayırdı onun könlünü fəqət.
Əvət, qəzəb saçan o ruhi-məğrur
Kəndi tanrısının cilvələrinə
Savıq gözlərilə nifrət sovurur,
Gülməyirdi tutqun çöhrəsi yenə.

IV

Onun qarşısında başqa bir laçın
Gözəlliklərilə çarpır nəzərə.
Dərələr naxışlı, qayalar yalçın,
Əlvan bir xalıdır qarşı mənzərə.
Gürcüstan xilqətin məsud diyarı,
Kiçik bir cənnəti xatırladırdı.
Dibi rəngin daşlı coşqun suları
Narın ləpələrlə qalxıb yatırdı.
Sevdalı bülbüllər şaqraq səsilə
Susqun gözəllərə nəğmələr oxur.
Şənlənir hər çinar öz kölgəsilə,
Qarşı mağaralar ceyran yurdudur.
İşıq, sevgi, həyat, yarpaq, xışıltı,
Ahəngdar ləhcələr, sərin nəfəslər,
Çiçəklər üstündə jalə, işıltı,
Üşüyən gecələr, titrəyən səslər,
Laciverd səmalar, əngin üfüqlər,
Sonra xumar-xumar baxan ulduzlar,
Gürcü qızlarının gözləri qədər
Doluxan, süzülən, axan ulduzlar...
Lakin bu şən varlıq, nadir gözəllik



Demonun qəlbini yumşaltmayırdı.
Ürəyi daş kimi, duyğusu çəlik,
Onu gördükləri yaşatmayırdı.
Nə bir yeni qüvvət, nə bir yeni hiss,
O bu mənzərədən iraq dururdu.
Bu qəşəng aləmə o məğrur iblis
Nifrət bəsləyirdi, kin sovururdu.

V

Möhtəşəm bir bina, geniş bir avlu
Yapdırmış ixtiyar Qudal özünə.
Burda əsrlərin zavallı oğlu
Çalışmış, qaranlıq çökmüş gözünə.
Burda hər sütuna, hər daş-divara
Çarparaq qırılmış qulların səsi.
"Dan atınca düşür qarşı dağlara
Bu qatil qalanın qara kölgəsi".
Bürclərdən aşağı dərəyə enən
Qayada çapılmış pillələr vardı.
Onların sonunda hey köpüklənən
Bir bəyaz örtülü irmaq axardı.
O cavan bəyzadə – o şux Tamara,
Bu yoldan enərdi hər gün sulara.

VI

Bu heybətli bina daim ucadan
Dərəyə sükutla dalır, baxırdı.
Bu günsə qoynunda yüzlərcə mehman,
Zurnalar səslənir, meylər axırdı.
Qudal öz qızını adaxlamışdı,
Toplanmış nişana qohum-əqrəba.

Səkilər xalilə donatılmışdı;
Gəlməzdi şətarət, sevinc hesaba.
Gəlinin yanında yarı-yoldaşı
Nəğməylə, oyunla gün keçirirlər.
Getdikcə qaralır dağların başı,
Gün batır, kölgəyə bürünür yerlər.
Onlar əl çalaraq şaqırdayırlar,
Qavalı başında oynadır gəlin.
Bəzən də bir quşdan daha nəğməkar
Səsilə məclisi qaynadır gəlin.
Ürkək maral kimi bəzən dayanır,
Qısqanc kiprikləri altında haman
Sevdalı gözləri alışır, yanır
Qara qaşlarını çatdığı zaman.
Bəzən qıvrılaraq bir ilan kimi,
Narın ayaqlarla bir ceyran kimi
Xalı üzərində süzülür gedir,
Dodaqları qaçır, üzülür gedir.
Çocuq sevincilə dolu varlığı,
Sığmayır fələkə bəxtiyarlığı.
Ayın ziyalərlə bəzən oynayan
Xəfif işıqları – onun bu həyat.
Bu gənclik fərəhi kimi qaynayan
Təbəssümlərinə çatarmı? Heyhat!

## VII

Qəsəm yarı gecə ulduzlarına,
Şəfəqli qüruba, gülgün yarına!
Nə altun İranın şəhriyarları,
Nə də yer üzünün hökmdarları
Ömründə görməyib böylə bir pəri,
Ömründə öpməmiş böylə gözləri.



Hərəmxanələrin fəvvarələri
Çox yıxamış gözəl mehparələri;
Fəqət bir dəfə də olsun günlərin
İsti çağlarında fışqıran, sərin
İnci damlalarla əzəldən bəri
Öpüb oxşamamış böylə dilbəri.
Bu dünya cənnətdən ayrı düşəli,
And olsun, dünyada kimsənin əli
Böylə bir mehriban alın görməmiş,
Böylə gur saçları çözüb hörməmiş.
And olsun daldığın sonsuz xəyala,
Cənub günəşinin altında hala,
Böylə bir nazənin çiçəklənməmiş,
Bunun kimi mələk yerə enməmiş.

## VIII

Qız bir də hərləndi, bir dövrə vurdu.
Fəqət nə yazıq ki, qarşı günlərdə,
Onu, o Qudalın şən yavrusunu
Özgə bir külfətdə, özgə bir yerdə
Bir aciz köləlik taleyi gözlər,
Onunçün dolurdu bəzən o gözlər...
O gözlərdə gizli şübhələr vardı,
Parlaq baxışları kölgələnirdi.
Hər bir hərəkəti ifadəkardı,
Həyəcanla köksü qalxır, enirdi.
Bütün o cilvələr, bütün o nazlar
Öylə sadəydi ki, əgər bu zaman
Bir görsəydi onu Demon, biqərar
İlk qardaşlarını anaraq haman
Üzünü döndərib bir ah çəkərdi,
Bəlkə də artardı möhnəti, dərdi.

## IX

Eyvah gördü Demon! Baxınız, onu
Məchul bir həyəcan sardı bu anda.
Qərib ürəyinin lal boşluğunu
Doldurdu lütfkar şirin bir nida.
Eşqin, mərhəmətin, gözəlliklərin
Duydu nəhayətsiz qüdsiyyətini,
O dadlı lövhəyə baxaraq dərin,
Xatırladı keçən səadətini.
Keçdi gözlərindən həp birər-birər
Maziyə çevrilmiş sevimli günlər...
Uzun silsiləli yıldızlar kimi,
Qaranlıq ruhunu yaldızlar kimi
Bir gizli qüvvədə qalaraq dona,
Yeni qüssələrlə oldu aşina.
Yenidən can gəldi təhəssüsünə,
Keçmişlər dilləndi ruhunda yenə.
Bu yeni bir doguş əlamətimi?
Nadir gözəlliyin kəramətimi?
O yenə düşünür, yenə qıvrılır,
Ağlında bulmayır məkirdən nişan.
Unutmaqmı? Xayır! Bu nasıl olur?!
Ondan əsirgəmiş bunu yaradan.

## X

Məhmizləyib atı cavan yavuqlu
Nişan məclisinə çatmaq istəyir.
Qəlbi fırtınayla, həvəslə dolu,
Günəş də getdikcə batmaq istəyir.
Günəş batar-batmaz çatdı, nəhayət,
Araqvanın yaşıl sahillərinə.



Karvan yavaş-yavaş edir hərəkət,
Dəvələr bağlanmış biri-birinə.
Ağır yük altında yol gedir karvan,
Ərmağan aparır, tələsir karvan.
Karvanın səslənir zınqırovları,
Gün əyilir, yollar olmamış yarı.
Bu karvan Sinadal hakimindir,
Öz adaxlısına nişan gətirir.
Qurşamış belinə qızıl bir kəmər,
Bir böyründə qılınc, birində xəncər.
Çiynində aynalı bir tüfəngi var,
Günəşin altında par-par parıldar.
Çuxasının qolu küləklənirdi,
İşlənmiş ətəyi qalxıb-enirdi.
Yəhərində ipək saplardan naxış,
Qantarğısı ondan geri qalmamış.
Altında köhləni cilov gəmirir.
Qızıl xallarının varmı bahası?!
Bu at Qarabağın bəslənmişidir;
Köpüklərə batmış yalı, qaşqası.
Dəhşətlər içində fınxırdayaraq
Coşqun dalğalarla göstərir maraq.
Gədiklər qorxulu, yollar qorxulu,
Sıldırım qayalar qaplamış solu.
Sağda çılğın sular, dərin ləpələr,
Ata heybət verir bu mənzərələr.
Qarlı yüksəklikdə qızıllıq sönür,
Qalın dumanlara dağlar bürünür.
Karvan addımını yeyinləşdirir,
Dumanlar içində nəzərdən itir.

## XI

Bir kiçik məbədə gəlib çatdılar,
Məbədin içində köhnə bir məzar
Bu məzar müntəqim əllərdə ölmüş
Yolların üstündə səssiz gömülmüş
Böyük keşməkeşli bir knyazındır,
Övliya naminə indi anılır.
O zamandan bəri yolçuluq edən,
Şənliyə tələsən, döyüşə gedən
Hər kəs burda durub səcdə qılsaydı,
Məbədə ibadət etmiş olsaydı,
İslam qılıncından tapardı nicat.
Lakin mərd nişanlı bu səfər, heyhat!
Unutdu yasayı, atdı rəğbəti,
Pozdu babalardan qalma adəti.
Çünki məlun Demon qəlbinə girmiş,
Kurnaz xəyallara onu çevirmiş.
Fikrində öpmüşdü yavuqlusunu,
Odur ki, həyəcan sarmışdı onu!
Göründü qarşıda iki nəfər, bak,
Daha çox, daha çox... bir atəş! Şarrak.
Nə oldu? Qəhrəman knyaz quş kimi
Üzəngi üstündə boylandı, qalxdı,
Papağı gözündə, vurulmuş kimi,
Alovlu gözlərlə ətrafa baxdı.
O bir söz demədi. Əlində birdən
Polad türk qılıncı yandı, parladı,
Tapança gurladı, knyaz yerindən
Şığıyan bir qartal kimi sıçradı.
Yenə bir partlayış – bir vəhşi nərə



Dəhşətli çınladı orman, dağ, dərə.
Sonra bir inilti, həzin bir nəfəs...
Döyüş çox sürmədi, yavaşladı səs,
Basılmış gürcülər oldu dərbədər.

## XII

Hər şey susdu, dəyib biri-birinə
Qorxaraq ürküşən şaşqın dəvələr,
Ölən yolçuların meyitlərinə
Dəhşətlə, heybətlə salırlar nəzər.
Zınqırov səsləri yayılır yenə
Çöllərin lal, sağır səssizliyinə.
Demək, zəngin karvan edildi talan.
Bədəni üstündə xaçpərəstlərin
İndi gecə quşu etməkdə cövlan.
Gözlər qapalıdır, yaralar dərin.
Əfsus, monastırlı kölgəliklərdə,
Ulu babaların yatdığı yerdə
Gözləməz onları sakit bir məzar;
Nə yazıq, çadralı məyus analar,
Ələmli bacılar acı kədərlə
Yanıq ürəklərlə, yaşlı gözlərlə
Onların üstünə gəlməyəcəklər;
Bu qanlı vaqəyi bilməyəcəklər.
Burax, olsun, fəqət bunun yerində
Qayalar üstündə, yol üzərində
Həmin abidəyi bahar gəlincə,
Quşlar bahar üçün vurunca cəh-cəh,
Onu xəfif-xəfif öpərək oxşar
Müəttər çiçəklər, göy sarmaşıqlar.

## XIII

At çaparaq qaçır bir ceyran kimi,
Yollar uzandıqca bir ilan kimi,
Hərbə gedir kimi koşur, atlanır,
Külək ayaqlarla hey qanatlanır.
Başını yatırmış atın yalına,
Qabarın burnunun pərələrində
Qaynar nəfəsləri toplanır, durur.
Əsən küləkləri dinləyir məğrur.
Götürüb qoyaraq ayaqlarını,
Döyür yerə nallı dırnaqlarını.
Dolaşıq yalını bir sirikərək
Qaçır ruzgar kimi, qaçır yüyürək.
Yolçu çapalayır zərrin yəhərdə,
Qaçır ayaqları üzəngilərdə.
Başını yatırmış atın yalına,
Nə önünə baxır, nə də dalına.
Artıq o karvanla getməyir, baxın!
Yüyəni idarə etməyir, baxın!
Yarasından qızıl qanlar süzülür,
Qolu girdən düşür, canı üzülür.
Ey qəhrəman kəhər, sən döyüşlərdən
Çıxıb bir od kimi qanadlanarkən
Qurtardın yiyəni. Nə yazıq, fəqət
Qaranlıq yollarda yenə, nəhayət,
Onu osetinin gülləsi buldu,
Yiyən yaralandı, yiyən vuruldu.



## XIV

Qudalın evində qarğaşalıq var,
Dəymiş bir-birinə bütün adamlar.
Yanıq hönkürtülər evə səs salır,
Həyətdə getdikcə adam çoxalır.
O kimin atıdır batmış qan-tərə,
Dərvaza ağzında yıxılmış yerə?
Bu yolçu kimdir ki, əsmər üzündə,
Çatıq çöhrəsində, batıq gözündə
Qorxunc vuruşların dəhşətləri var,
Yanından sallanır qanlı silahlar.
Ölüm pəncəsində olaraq bihuş,
Atın yeləsində əli qurumuş.
Nişanlı! Gözlərin yolda qalmadı,
Adaxlın əhdini yerə salmadı.
Özünü yetirdi vaxtında sana,
Uzaq ölkələrdən gəldi yanına.

## XV

Qayğısız külfətin başı üstündə
Çaxdı şimşək kimi bu mənhus xəbər.
Zavallı Tamara bir fəna gündə
Düşdü yatağına məyus, mükəddər.
Axır gözlərindən mirvari yaşlar,
Nəfəsi tıxanır, döyünür qəlbi.
Qabardır köksünü acı təlaşlar,
Göylərdən bir nida eşidir kibi:
"Yavrum, hədər yerə ağlama, burax,
İncitmə köksündə döyünən qəlbi.
Onun üzərinə sancılmayacaq

Göz yaşların həyat şəbnəmi kibi.
Onlar dumanladar aydın gözləri,
Bir qızın qəlbini yaxar, yandırar.
Dodağından qopan qəmli sözləri
Zənn etmə eşidər, zənn etmə duyar.
İndi səmalarda ipək işıqlar
Nakam gözlərini onun parlatır.
Cənnət mahnıları ruhunu oxşar,
Pənbə buludların qoynunda yatır.
Bu həyatın ağır röyalarından,
Zavallı bir qızın bəlalarından,
Cənnət ölkəsinin mehmanına heç
Bir təsir olarmı? İnanma, vaz keç!
Ey dünya mələyi qəmgin Tamara,
Ölüm bir qismətdir yaranmışlara.
Bu qismət dərindən düşünsən bir az,
Bir anlıq qüssənə bərabər olmaz.

Səmavi dəryalarda
Sükansız və qanadsız,
Dumanlar arasında
Uçur minlərcə yıldız.
Maviliklər çölündə
Buraxmadan bir əsər,
Buludlar sürü-sürü
Qaşdan-qaşa köçərlər.
Sıxılır ürəkləri
Nə hicran qəmlərindən.
Aynaları açılır
Nə görüş dəmlərindən.
Qarşı günlərə məxsus
Nə bir arzuları var;



Nə keçən xatiratı
Anaraq sızlayırlar.
Talesiz çağlarında
Sən onları anaraq,
Azad buludlar kimi
Dünyaya qeydsiz bax.

Gecələr öz qara kölgələrilə
Qafqazın üstünü aldığı zaman,
Kainat füsunlu ləhcələrilə
Dillənib, sükuta daldığı zaman,
Qayalar üstündə xəfif bir rüzgar
Saralan otları dalğalandırır.
Kolların dibinə sığınan quşlar
Quytu qaranlıqda uçur pırhapır.
Tənək budaqları altında sarqan
Göylər jaləsinə həris çiçəklər
Nazlı gülüşlərlə açılan zaman,
Dağların ardında boylanır qəmər.
Qalxır yavaş-yavaş göy ortasına,
Ordanca yan-yanı göz atır sana.
"Uçub gələcəyəm, səhərə qədər
Səninlə baş-başa verəcəyəm mən.
Uzun kirpiyinə pənbə röyalar
Qanadlı xülyalar hörəcəyəm mən".

## XVI

Səslərin ardınca boğuldu səslər,
Qız qalıb gözünün yaşını sildi.
Baxdı çöhrəsinə dalğın, mükəddər...
Köksündə iztirab, qorxu çoxlaşdı;

Qızğın bir həyəcan könlünü sardı,
Birdən duyğuları köpürdü, daşdı,
Qəlbi qandalını qırdı, qopardı,
Sanki vücudundan bir atəş axdı.
O gözəl, o yeni, o şirin nida
Könlündə silinməz bir iz buraxdı,
Uyudu sabahın qızıllığında.
Fəqət röyasında qərib xəyallar
Yenidən fikrini etdi tarimar.
Pənbə buludlara kimsə büründü,
Onun gözlərinə gəldi göründü
Parlaq görkəmilə, qiyafətilə.
Onun üzərinə əydi başını,
Süzülüb səmavi məlahətilə
Sildi gözlərinin axan yaşını.
Onun nəzərləri öylə mehriban,
Öylə məhzundu ki, sanki bu zaman
Acıyırdı qızın məhzun halına,
Pərişan halına, yorğun halına.
Nə haqq dərgahından qovulandır o,
Nə mələk, nə qızı qoruyandır o.
Sırma tellərini bir əklil qədər
Bəzəməmiş gülgün qövsi-qüzehlər.
Ona bir zəbanı ruhu daşırdı,
Nə bir günah isə yavıqlaşırdı.
Yox, yox, o bir aydın axşama bənzər,
Nə qaranlıq işıq, nə zülmət səhər!..



## İKİNCİ HİSSƏ

### I

Yox, yox, o bir aydın axşama bənzər,
Nə qaranlıq işıq, nə zülmət səhər...
Ata, ata, burax təhdidi, burax,
Sən öz Tamarana böylə qarğıma;
Gözlərimdən axan yaşlara bir bax:
Nə qədər yaraşır yanaqlarıma.
Bu axan damlalar birinci deyil,
Bunlar göz yaşıdır, bir inci deyil.
Boş yerə elçilər uzaq yollardan
Gəlirlər mənimçin hey axın-axın...
Qızlarla doludur bizim Gürcüstan,
Mənsə eşqə könül verməram, sakın!
Uf ata, qarğıma mənə, qarğıma!
Məlun bir ruh girmiş mənim bağrıma.
Təsəvvürə gəlməz acı bir xülya
Yeyir varlığımı, gözümdə dünya
Dumanlanır, çökür, qaralır mənim,
Gül üzüm getdikcə saralır mənim.
Kinli bir zəhərin qurbanıyam mən,
Bu halım uzaqmı sənin gözündən?
Məhv oluram, ata, halıma acı,
Ruhum bir əzəli sükut möhtacı.
Ağlını şaşırmış qızını apar
Qoy bir monastıra, böyük xilaskar
Gördükcə hər zaman duakar məni,
Saxlar sayəsində, qoruyar məni.
Gözümdə dünyanın səfası yoxdur,
Zövqün, əyləncənin vəfası yoxdur.
Burax, siyah məzar daşları qədər
O qüdsi, o qorxunc, o gizli yerlər

Mana qollarını, qoynunu açsın,
Ruhuma qüdsiyyət işığı saçsın.

## II

Atası, anası onu alaraq
Apardılar sakit bir monastıra.
Boynuna təsəlli xaçı salaraq
Onu tapşırdılar böyük ruhlara.
Naxışlı paltarlar geydiyi zaman,
Köksü ehtirasla coşduğu kimi,
Rahibə köynəyi altında əlan,
Yasaq duyğularla vururdu qəlbi.
Minbər kənarında, şam işığında
İlahi mahnılar pərdələnirkən,
Dualar içində əziz bir nida
Onun qulağını oxşardı bəzən.
Xramın altında tanış bir xəyal,
Bu qərib sükuta etmədən ixlal,
Dumanlar içindən baxıb keçirdi;
Bir iz buraxmadan axıb keçirdi.
O xəyal süzülən yıldızlar kimi,
Ətrafı xəfifcə yaldızlar kimi
Bir işıq saçırdı, o cəzb edirdi...
Bilinməz nerəyə uçub gedirdi.

## III

İki kiçik dağın arasındadır
Quzeyə sığınmış sakit monastır.
Ətrafında yüksək ulu çinarlar,
Göy atlas yarpaqlı əbrüşümlər var.



Hər axşam qayalar toranlanırkən
Günahkarın hücrə pəncərəsindən,
Ətrafa dağılır ipək bir ziya,
Sarı və vərəmli titrək bir ziya.
O yanda badamlı kölgəliklərdə,
Sağır tabutların lal bəkçiləri.
Kədərli xaçların durduğu yerdə
Yüksəlir quşların civiltiləri.
Coşqun axar sular ləpələrilə
Uzaq mənzil kəsir, yollar aşırlar.
Çarparaq daşlara, gələrək dilə,
Bir qaya altında qucaqlaşırlar.
Axırlar şəbnəmli məşcərələrdən,
Zümrüd yamaclardan, göy dərələrdən.

## IV

Dan yeri ağarıb sökdüyü zaman,
Duman dərələrə çökdüyü zaman,
Müəzzinlər yüksək minarələrdən
Üzü gün çıxana azan verərkən,
Çanların çınlayan çılğın səsləri
Aləmə yayırkən gündüz xəbəri,
Dumanlar dağ döşü ağır sürünür,
Uzaqda ağ saçlı dağlar görünür.
Səhərin oyanıq səssizliyində
Gözəl gürcü qızı dəsti çiynində,
Enərək dərəyə yoxuşlu dağdan
Gəlir su doldurur ayna bulaqdan.
Silsilə dağların aşırımları
Bir açıq bənövşə rəngli divarı

Andırır buludsuz maviliklərdə.
Günəş günbatanda düşəndə dərdə,
Onlar pənbə, sarı paltar geyirlər,
Onların ruhuna dardır bu yerlər.
Onların içində boz dumanları
Yırtaraq Qafqazın sərt hökmdarı
Məğrur başı bəyaz çalmalı Kazbek
Həpsindən ucadır, həpsindən yüksək.

## V

Lakin bir cinayət hissilə dolğun
Qəlbi Tamaranın coşa bilməyir.
Dünya gözlərində dumanlı, solğun...
Bir sevinc nuruna koşa bilməyir.
Hər şey, hər şey ona kədər gətirir:
Axşam qaranlığı, səhər işığı.
Daima dərdlidir, düşüncəlidir,
Nə zinəti qalmış, nə yaraşığı.
Bəzən gecələrin yumşaq rüzgarı
Torpağın üzünü sərinlədirkən,
Məryəmin önündə əli yuxarı
Tamara hıçqırır, gedir özündən,
Ağlayır gecələr sakit olmadan.
Onun bu yanıqlı hıçqırıqları
Keçən yolçuları eyləyir yoldan.
Onlar düşünürlər bu ahi-zari,
Deyirlər: dağların ərvahıdır bu,
Onların yüksələn bir ahıdır bu.
Qulaq kəsilərək gələn səslərə,
Əlvida edirlər bu qorxunc yerə.



## VI

Tamara bir qorxu içində yenə,
Dalır pəncərədə düşüncələrə;
Dikir gözlərini sonsuz əngino,
Günəşin əyilib yatdığı yerə.
Uzun günlər boyu uyqu bilmədən
Gözləri yollara dikilir, qalır.
Onun qulağında yavaşca bəzən
"O gələcək!" – deyə bir səs ucalır.
Hər gecə gördüyü dadlı uyqular
Onu əbəs yerə oxşamayırdı.
Könlünü dolduran bütün qayğılar,
Fikrində dolaşan ruha dairdi.
O ruh nahaq yerə incə səsilə
Bir şəffaf dumana bürünməmişdi.
Qəmgin baxışıyla, nur çöhrəsilə
Ona röyasında görünməmişdi.
Tamara günlərlə özü bilmədən
Müqəddəs ruhlara tapmaq istərkən,
Kəndi ürəyində dualar edir.
İşgəncə içində yatağa düşür,
Balışı od kimi onu yandırır.
Saçları dağılır, üzü pörtüşür,
Bu hal möhnətini dalğalandırır.
Ürəyi darılır, qorxur ansızın,
Sıçrayır, titrəyir, yarpaqdan incə.
Dəyişir baxışı, duruşu qızın,
Kimsə görməmişdir böylə işgəncə.
Çiyinləri yanır, sinəsi yanır,
Nəfəs çəkməyə də yoxdur qüvvəsi.

Gözü dumanlanır, başı dolanır,
Danışmaq istərkən tutulur səsi.
Qarşılıq arayır öz kənarında,
Busəsi əriyir dodaqlarında.

## VII

Gürcüstanın yaşıl təpələrini
Axşamın qaranlıq örtüsü aldı.
Şirin adətinin əsiri Demon
Uçub, monastıra özünü saldı.
Düşünür, düşünür bir uzun müddət
Bu sakit ocağın qüdsiyyətini.
Fəqət bulmayırdı pozmağa cürət,
Sanki dəyişmişdi Demon rəyini.
Bir zaman amansız məkrlərindən
Tamamən əl çəkmək istədiyini
Güman eyləmək də olardı zatən.
Demon dalğın-dalğın yüksək divarın
Dibində dolaşır, addımlarından
Rüzgarsız sallanan incə dalların
Yarpaqları əsir, titrəşir əlan.
Heyrətlə qaldırdı o, gözlərini,
Qızın aynasından bir işıq gəlir;
O çoxdan gözləyir sanki birini.
Bu sükut içində iştə yüksəlir
Çunğur sədaları, mahnı səsləri,
Yüksəlir, yayılır, tutur hər yeri.
O səslər axdılar, axdılar, gözdən
Süzülən göz yaşı kimi axdılar.
Axdılar dərədən, axdılar düzdən,
Bir bahar yağışı kimi axdılar.



Bu nəğmələr öylə lətif idi ki,
Öylə şirindi ki, xəfif idi ki,
Sanki mavəradan yerə enmişdi,
Yerlərçin göylərdə bəstələnmişdi.
Bəlkə unudulmuş arkadaşilə
Görüşmək istəyən bir mələkdi bu.
Bir zaman ayrılmış, bununla belə
Yadından çıxmamış keçmişki dostu.
O mələk buraya gəlmiş ki, tutsun
Maziyə çevrilmiş günləri bir də.
Dostunun dərdini istər ovutsun
Həmən oxuduğu bu nəğmələrdə.
İlk dəfə olaraq Demon hiss etdi
Eşqin qüssəsini, həyəcanını.
Dəhşətlər içində bir fikrə getdi,
Qurtarmaq istədi burdan canını.
Heyhat, qanadında yoxdur iqtidar,
Süzür gözlərindən odlu damcılar.
Hücrənin yanında bu gündə belə
Alov kimi sıcaq, od kimi qaynar
İnsanlar tökməyən bir göz yaşilə
Büsbütün yaxılmış bir qara daş var.

## VIII

O, qızı sevməyə hazırdır əlan,
Mərhəmətlər üçün asılmış olan
Qəlbilə içəri girir dolaşır,
Öylə düşünür ki, gəlib çatmışdır
Özlənən zamanı yeni həyatın,
Təsirinə düşür təsəvvüratın.

İntizarın gizli həsbi-halları,
Lal məchuliyyətin qorxunc halları
Məğrur ürəyinə oldu aşina,
Bu görüş birinci görüşdü guya.
Həmən özündə bir dəyişmə duydu,
Fəna bir gələcək xəbəridi bu.
O, içəri girir baxır ansızın,
Görür qarşısında günahkar qızın
Bir alnı işıqlı, qorucu mələk
Dolaşır fərəhlə gülümsəyərək.
Gərilmiş üstünə zərrin qanadı,
Düşməndən qoruyur o zərizadı.
Nuri-ilahinin hizməsi birdən
Qaraltdı Demonun gözünü həmən.
Demon gözləyirkən hörmət, məhəbbət,
Ucaldı hər yandan bir acı töhmət.

## IX

"Ey mənfur duyğulu fəna qəlbli ruh,
Sən nerdən buraya elədin sinuh?
Qaranlıq bir gecə, ətrafda zülmət,
Səni kim eylədi buraya dəvət?
Burda bir fənalıq nəfəs almamış,
Sənin kimi ruhlar məkan salmamış.
Burda kimsə etməz sənə itaət,
Kimsə qulaq verməz, eyləməz hörmət.
Mənim ilahəmə, məhəbbətimə,
Göylər qədər təmiz qüdsiyyətimə
Cani-nəfəsinlə toxunma, çəkil!
Get, bu məkan sənin məkanın deyil".



Bu səsi dinləyib xəbis ruh döndü,
Hiyləylə, məkrlə bir gülümsündü.
Qısqanclıq uzatdı nəzərlərini,
Yenidən qəlbinin ən sərt yerini,
Əzəli bir nifrət zəhəri kəsdi,
Ruhunda zəqqumlu küləklər əsdi.
Gurladıb səsində qorxunc dalğalar,
Dedi: O mənimdir, qaç, ey xilaskar,
Düşün, gecikmisən, bu gəlişlə sən
Nə ona, nə mənə hökm edəməzsən.
Mən hər çətinliyin önündə durdum,
Xudkam ürəklərə damğamı vurdum.
Yoxdur burda sənin artıq ilahən,
Sevirəm, buranın hakimiyəm mən.
Qəmgin gözlərilə qorucu mələk
Zavallı qurbana göz gəzdirərək,
Narın şahpərəni yavaşca saldı,
Əsiri boşluğa qalxdı ucaldı.

## X

Tamara

Eyvah, söylə kimsən, nə dəhşətlisən,
Cənnət, cəhənnəmmi göndərmiş səni,
İstəyin?

Demon

Nə qədər məlahətlisən.

Tamara

Bir dinlən, cavab ver, agah et məni.

## Demon

Mən oyam ki, sağır, dilsiz gecələr
Durub dinləyirdim pəncərələrdə.
Fikri ürəyinə təsəlli sərpər,
Çox özlərdin onu yatdığın yerdə.
Mən oyam ki, acı bəlalərini
Dumanlı görkəmdə seyrə dalırdın.
Şəkli canladırdı röyalarını,
Onun gəlişindən ilham alırdın.
Mən oyam ki, kəskin baxışlarımdan
Soğuyur diləklər, donur umudlar.
Mən oyam ki, mənə kimsə mehriban
Olmamış: Alnımda nifrət izi var.
Yerli qullarımın qırbacıyam mən,
Mənəm azadlığa, idraka sultan,
Təbiətə qarşı acıyan mənəm,
Mənəm mələklərə, göylərə düşmən.
Gəlib ayağına sərilmişəm, bak.
Gətirmişəm sana qanad çalaraq
Yumuşaq məhəbbət yaqarışları,
İlk torpaq qəmləri, ilk göz yaşları.
Aman, dinlə məni, duyuqsuz olma,
İstəsəm çataram mərhəmətlərə,
Əgər bu azacıq yansan halıma.
Qaytarasan məni doğduğun yerə.
Mən sənin eşqinin pak tüllərinə
Bürünərək gözəl mələklər kimi,
İşıqlar içində parlaram yenə,
Qalxaram göylərə gülümsər kimi.
Baxıb dinlə məni, yalvarıram, gəl!
Sənin əsirinəm, səni sevirəm.



Mən səni görüncə burda ilk əvvəl,
Qəlbimin örtülü, əsrarlı, mübhəm
Yerində möhtəşəm hakimliyimə,
Əbədiyyətimə qarşı bir nifrət,
Bir acı hiss etdim. Əski sevgimə,
Əski adətimə artıq nə hacət!..
İxtiyarsız yerin kiçik, yarımçıq
Daima dəhşətli, daima qırıq,
İşgəncəylə doğan səadətinə
Həsəd aparmağa başladım yenə.
Sənsiz ömür sürmək mənə ağırdır.
Qəlbimi ayrılıq dərdi ağrıdır.
Qansız ürəyimdə bəklənilməyən
Bir işıq yenidən canlandı, bilsən.
Əsrlər boyunca qəlbimdə qalan,
Möhnətkeş ruhuma yadigar olan,
Əski bir yaranın dərinliyinə
Sancıldı amansız ağır bir iynə.
Necə ki, qavrılır atəşdə şahmar,
Öylecə içimdə bir iztirab var.
Sənsiz mən neylərəm əbədiyyəti,
Hökmümdə bulunan sərmədiyyəti?
Bunlar sənsiz nədir? Bir heçdir, ancaq
Bir geniş xramdır Tanrıdan uzaq!

## Tamara

Ey xəbis ruh, burax yaxamı mənim.
Məni inandırmaz əski düşmənim.
Ulu Tanrım!.. Heyhat gəlməyir dilim,
Acı bir zəhərlə sarsılmış ağlım!

Duaya qüdrətim qalmamış artıq,
Xatırım pərişan, fikrim dağınıq.
Qorxuram sən məni məhv edəcəksən,
Məni qəhr edəcək, inlədəcəksən.
Sözlərin atəşlə, zəhərlə dolu,
Ey siyah gecənin bilinməz oğlu,
Söylə bir nəçisən, söylə bir kimsən?
Söylə bunca məni nəyə sevirsən?

Demon

Neçinmi, ey gözəl, sorma gəl, aman,
Ağır cinayətli, suçlu başımdan
Cəhənnəm tacını qürurla atdım,
Sayəndə yeni bir həyata çatdım.
Heçliyə çevirdim keçən dəmləri,
Duydum yeni-yeni həyat qəmləri.
İnan, cənnətlərim, cəhənnəmlərim
Sənin gözündədir, ey gözəl pərim!
Öylə sevmişəm ki, mən o gözləri,
Öylə bir sevgi ki, əzəldən bəri
Nəsib olmamışdır bu insanlara.
Sən sevə bilməzsən öylə, Tamara!
Sevmişəm, sənindir bütün varlığım,
Ümidim, şərəfim, hökümdarlığım.
Ölməz qayələrlə sevmişəm səni,
Bax nələr, nələrlə sevmişəm səni.
Hey-hey düşünsəydim, bilsəydim bunu,
Yaşadım, nə çəkdim ömrüm uzunu.
Sonsuz əsrlərin, qərinələrin
Həzzini, qəmini duyaraq dərin,
Fənalığa alqış gözləməyərək,
Yaxşılığa əvəz özləməyərək,



Özünçün yaşamaq, iztirab çəkmək,
Sevinmək, əylənmək, göz yaşı tökmək,
Bu uzun döyüşdə ürək bərkidib,
Barışıqsız, təntənəsiz ömr edib,
Mərhəmət hissinə uymamaq, uymaq,
Hər şeyi anlamaq, hər şeyi duymaq,
Hər şeyi görüb də nifrət sovurmaq,
Çalışmaq, çətinlik önündə durmaq,
Bütün bu aləmdə gördüklərinə,
Mərhəmət yerinə, sevgi yerinə,
Yenə də kin, qərəz saçmaq acıdır,
Bu hal bir döyülən qəlbi acıdır.
Yerinə yetincə haqqın lənəti,
Özümə qac gördüm bu təbiəti!
Soyudu qucağı illər boyunca,
Qoynunda sıxmadı məni doyunca.
Qarşımda kainat mavilədikcə,
Oylaq işılğanlar görürdüm necə
Gözümün önündə toy-büsat qurur,
Hər şey çiçəklənib bir həyat qurur.
Hər ulduz başında qızıldan çələng,
Həpsində lətafət, həpsində ahəng.
Onlar bir-birinə yaxışırlardı,
Boşluqda süzülüb axışırlardı.
Keçmiş dostlarından tutmadan xəbər
Edirdi hər biri, bir yerə səfər.
Çevirib üzümü onlara sarı,
İştə özüm kimi bu qovğunları
Həyəcan içində çağırırdım mən,
Onların ardınca bağırırdım mən.
Dalğın baxışları, çatıq üzləri
Doğuq ləhcələri, çətin sözləri

Sezməyə qüdrətim varmıdı, heyhat!
Sanki yoxdu məndə cəsarət, səbat.
Nur axıntıların istəklərilə,
Qəzaya uğramış bir qayıq öylə.
Sükansız, yelkənsiz, məqsədsiz yazıq,
Pərişan bir halda qolları qırıq
Dalğalarda axıb getdiyi kimi,
Girdabları pənah etdiyi kimi,
Tutqun səhərlərin er çağlarında,
Batan ulduzların oynaqlarında
Laciverd göylərdə nəfəs almadan,
Gəlişi, gedişi bəlli olmadan,
Bir yerdə durmağa cürət etmədən,
Şimşəkli bir bulud parçası həmən
Qarala-qarala isziz, məqsədsiz,
Qayəsiz, ümidsiz, kölgəsiz, adsız
Nəzərlərdən uçub getdiyi kimi,
Hədər bir səyahət etdiyi kimi,
Mən də toplayaraq iqtidarımı,
Gərdim bir dönüşdə qanadlarımı.
Mən də uçdum, uçdum neçin? Nerəyə?
Heyran kəsilərək bu mənzərəyə,
Heyhat, anlamadım umduğum dostlar
Məndən üz döndərib, məni atdılar.
Əvət, cənnət kimi bu köhnə dünya
Biganə kəsildi mənim ruhuma.
Çox rəhbər olmadım bu insanlara,
Mən çox öyrətmədim günah onlara.
Alicənablığı şərəfsizlətdim,
Bütün gözəlliyi dərbədər etdim.
İnsandakı iman atəşinin mən
Şər ilə üstünü qapadım həmən.



Mənim əməyimə dəyərdi məgər
Səfillər, dəlilər, ikiüzlülər?
Gizləndim dağların yarğanlarında,
Təbiətin sirli ormanlarında
Şığıyaraq qəza daşları kimi,
Dolandım bir çılğın fərarı kimi.
Gecələrin dərin qaranlığını
Qaplarkən yolları duman yığını,
Boş yerə, boş yerə qərib səfərkeş
Uzaqdan görüncə xəfif bir atəş,
Atı qamçılayır, koşurdu ona.
Yolçunun yolları çatmadan sona,
Dərin dərələrə yuvarlanırkən
Əbəs yerə haray çəkirdi birdən.
Onun yoxuşlarda qanlı izləri
Məndə doğurudu şadlıq əsəri.
Fəqət uzun zaman zövq almadım mən
Fənalığın qorxunc əyləncəsindən.
Güclü tufanlarla, qasırğalarla,
Döyüşdə sarsılmaz bir iqtidarla
Tozları ətrafa sovururdum mən,
Yerləri, göyləri qovururdum mən.
Bürünüb şimşəkli dumanlara mən,
Qalın buludlarda qalxıb gəzirdim,
İldırımdan qılınc taxıb gəzirdim.
Böyləliklə qəza vüquatının,
Üsyankar təbiət hadisatının
İçində qəlbimin şikayətini,
Susdurmaq başımın fəlakətini
Savılmaq, dəhşətli düşüncələrdən,
Ruhumu gəmirən işgəncələrdən

Qurtulub hər şeyi atmaq istərdim,
Bunlardı diləyim, bunlardı dərdim.
Ağır məhrumiyyət macəraları,
Dünyanın tükənməz qəm sarayları,
Bütün gəlib keçən növi-bəşərin
Çəkdiyi qəmlərin, əziyyətlərin
Həpsini bir yerə topla, sonradan
Mənim etinasız, boş buraxılan
Bir anlıq dərdimi gətir gözünə.
Bunun qarşısında onlar nədir, nə?!
Ya insanlar nədir? Onların həyat,
Əmək dedikləri nə şeydir? Heyhat!
Onlar keçdi getdi, keçib gedəcək,
Ümid var ki, Allah yardım edəcək.
Qarşıda ədalət məhkəməsi var,
Ya məhkum edilər, ya buraxılar.
Mənimsə, mən sonsuz olduğum kibi
Dərin dərdlərimin görünməz dibi.
Soyuq bir məzarda onlar ovunmaz,
Üzlərinə ölüm qubarı qonmaz.
Dərdim ilan kimi qıvrılır bəzən,
Qızğın alov kimi göynəyir. Birdən
Hərəkətə gəlir, qəlbimi sökür,
Ağır qurşun olur, fikrimə çökür
Donmuş ümidlərim, ehtiraslarım
Yığılmaz abidə daşlarım kimi.

Tamara

Qəmlərin mənəmi qalmış əcəba?
Nə üçün şikayət edirsən mana?
Sən günah işlədin.



Demon

Əleyhinəmi?

Tamara

Bizi eşidərlər.

Demon

Tək deyilizmi?

Tamara

Bəs Allah?

Demon

O bizə eyləməz nigah.
Çünki o, büsbütün yerləri atmış,
Göylərdə başını işə qoşatmış.

Tamara

Bəs cəza... cəhənnəm işgəncələri?..

Demon

Nolar bərabərkən, ey gözəl pəri?

Tamara

Ey mənim umulmaz dərdli yoldaşım,
Sən kim olursan ol, yoxdur təlaşım.

Atıb rahatımı, atıb qayğımı,
Sirli sevinclərlə maraq göstərib,
Dinləyirəm səni mən, ey müztərib!
Lakin bu sözlərin yalansa, ruhun
Röya bəsləyirsə, o zaman qorun.
Bu nə şərəfdir ki, üz vermiş mana
Doğrudanmı qəlbim gərəkdir sana?
Ərşin mələkləri unudulmuşmu?
Göylər yalnız mana məftun olmuşmu?
Sənin nəzərini cəlb edəməyən
Bütün gözəllərdən gözəlmiyəm mən?
Xayır, taleyimi aç mana göstər,
Görürsən qovurur məni qüssələr!
Qadın xülyasını özün bilirsən,
Qorxumu qəlbində oxşayırsan sən.
Sən bildin, anladın, bəhsə nə hacət?!
Bu küskün halıma yanarsan, əlbət.
And iç, and iç mana, əski uğursuz
Tədbirdən əl çəkdin indi qürursuz,
Hiyləsiz ruhunla yanıma gəldin,
Sən ki, keçənlərdə böylə deyildin.
Söylə, doğurdanmı ürəyində var
Əbədi peymanlar, əzəli anlar?

Demon

And olsun xilqətin ibtidasına,
Onun son gününə, intəhasına.
And olsun alçalış qayğılarına,
And olsun yüksəliş arzularına.
Qəsəm ləkəsinə cinayətlərin,
Qəsəm həşmətinə həqiqətlərin.



And olsun bu şirin vüsalımıza,
Qarşısı hicranlı əhvalımıza.
And olsun ruhların izdihamına,
Müti dostlarımın qırıq kamına.
Qəsəm gözlərinə uyqu girməyən,
Əsla fənalığa macal verməyən
Əski düşmənlərim məlikələrə,
Onlar ki, çalmazlar qılınc boş yerə.
And olsun göylərə, cəhənnəmlərə,
Sənə, sənin kimi şux sənəmlərə.
And olsun sonuncu baxışlarına,
And olsun birinci göz yaşlarına.
Məsum ləblərinin gül dəmlərinə,
İpək saçlarının pürçəmlərinə,
Qəmə, işgəncəyə, zövqə, səfayə,
And olsun könlümdə doğan sevdayə,
Mən köhnə qeyzimdən ayrıldım artıq,
Məğrur düşüncəmdən ayrıldım artıq.
Artıq barışıram maviliklərlə.
İntiqam acısı bu gündən belə
Kimsənin əqlini oynatmayacaq,
İstəyim məhəbbət, duadır ancaq,
Sevmək istəyirəm yaxşılıqları.
Sənə layiq olan alnımda belə,
Göylər atəşinin qırışıqları
Silinir tökdüyüm göz yaşlarilə.
Burax bu kainat sakit, qayğısız
Mənsiz çiçəklənib açılsın bir az.
İnan, inan mənə, ey sevimli qız,
Mənim qədər səni anlayan olmaz.
Mən səni özümə ilahə sandım,
Mən sənin başına döndüm, dolandım.

Saldım ayağına iqtidarımı,
Bütün şövkətimi, bütün varımı.
Bəkləyirəm sənin məhəbbətini,
Bir armağan kimi sədaqətini.
Mənə qıyacağın bir an üçün mən
Keçərəm yolunda əbədiyyətdən.
Yar olduğum üçün yamanlıqlara
Məhəbbətdə belə inan, Tamara,
Uluyam, dönməzəm, inadkaram mən,
Eşqinlə məsudam, bəxtiyaram mən.
Səni kainatın bu azad oğlu,
Bir iqlimə alar əsrlə dolu
Uzaq ulduzlardan daha yuxarı,
Verərəm hökmünə bu dünyaları.
Ey mənim birinci sevgilim, ordan,
Doğru səadətdən iraq yaşayan,
Ağır cinayətli, ağır cəzalı,
Uzun ehtiraslı, uzun bəlalı,
Uzun gözəlliksiz, istirahətsiz,
Duyğusuz, ürəksiz və mərhəmətsiz,
Qoynunda qorxusuz nifrət olmayan,
Məhəbbət olmayan, riqqət olmayan
Bu suçlu dünyaya nəzər salarsan,
Onu acımadan seyrə dalarsan.
Bəlkə bilməyirsən bu insanların
Ani məhəbbəti nədir, Tamara?!
Ehtirasla dolu cavan qanların
Atəşin hiddəti nədir, Tamara?!
Günlər gəlib keçir, soyuyur qanlar,
Sevgi yollarını kəsir hicranlar!
Bir yeni gözəllik məkrinə, söylə,
Acı bir yorğunluq fikrinə, söylə,



Xülyapərəstliyə qarşı nə etmək?
Düşüncələr dönək, duyğular dönək...
Xayır, ey mehriban gözəl nigarım...
Ey mənim taqətim, səbrim, qərarım!
İnan, iradəsiz bu insanların
Yalançı dostların və düşmənlərin,
Acı dəhşətlərin, boş ümidlərin,
Ağır zəhmətlərin, ani qutların,
Saxta sevgilərin, qısqanclıqların,
Böylacə hesabsız acılıqların
İçində qul kimi solmağı, əsla
Qədər yazmamışdır sənin alnına.
İnsanlardan ayrı, göylərdən iraq,
Dua arasında əl bağlayaraq
Yüksək divarların arxasında sən,
Ehtirassız sönüb getməyəcəksən.
Xayr, ey mehriban, gözəl yaranmış,
Sənin taleyini yazan aldanmış.
Səni başqa qismət, başqa iztirab,
Başqa bir işgəncə, başqa bir əzab,
Başqa bir həyəcan dərinlikləri,
Başqa dadlı günlər bəklər, ey pəri!
Köhnə dilәkləri qəlbindən çıxar,
Onun dünyasına qılma etibar.
Bu fəna mülkünü taleyə burax!..
Çırpınsın ruhunda başqa bir maraq.
Burax, burax onun bütün varını,
Mən də məğrur idrak qapılarını
Açayım üzünə, ey gözəl nigar!
Xidmətkarım olan sevimli ruhlar
Səcdəyə gedərlər sənin qarşına,
Dolanıb dönərlər əziz başına.

Sana cariyələr verərəm – xəfif,
Füsunkar, qəmzəkar, işvəkar, lətif.
Məşriq ulduzunun zərrin başına
Yaxışan çələngi alaram sana.
Çiçəklərin gecə şəbnəmlərilə
O qızıl çələngi sularam, dinlə!
Taxaram belinə şəfəqdən kəmər,
Sərpərəm çevrənə xoş rayihələr.
Pərili səslərlə oxşaram səni,
Cilvəgahın olar göylər gülşəni.
Toplayıb, gətirib min bir diyardan
Sənə mərcanlardan, kəhrəbalardan
Qalalar yaparam, həşmətli, parlaq.
Ümmandan-ümmana hey baş vuraraq,
Qalxıb buludlardan yüksəklərə mən,
Yer üzünün bütün nemətlərindən,
Doyuraram səni.

## XI

Və o xəfifcə
Uzadıb atəşin dodaqlarını,
Qızın öpdü şirin dodaqlarını.
Qızın hıçqırıqlı şikayətinə
Azdıraraq cavab verirdi yenə.
Qüvvətli gözlərlə qıza baxaraq,
Qaranlıq gecədə onu yaxaraq,
Başı üzərində bir xəncər kimi,
Parlayıb çaxırdı şimşəklər kimi.
Fəna ruh təntənə qurmuşdu yenə,
Bir anda işlədi qızın köksünə
Onun busəsinin ölüm zəhəri,
Qorxunc bir hıçqırıq səssizlikləri



Qəmli əkslərlə bürüdü, sardı,
Bu son hıçqırıqda çox şeylər vardı:
Məhəbbət, iztirab, töhmət, şikayət,
Ümidsiz bir vida, əbədi firqət.

## XII

Gecə qaravulu adəti üzrə
Dalaraq yolunda düşüncələrə,
Əlində çuqundan bir əsa daşır,
Dik divar önündə gəzir, dolaşır.
Qızın hücrəsinə gəlib çatmadan,
Adi addımını saxladı bir an.
Saçaraq doğrultdu belini bir az,
Əsa üzərində əlini bir az
Saxladı. Ətrafı qapamış sükut.
Bəkçi dinləyirdi, qalmışdı məbhut.
O iki dodağın sərf busəsilə,
Haman o busənin xəfif səsilə
Zəif bir inilti, son bir hıçqırıq
Duymuş zənn eylədi. Və bir aralıq
Şeytanca şübhələr doldu qəlbinə,
Bir an keçdi, hər şey duruxdu yenə.
Yalnız uzaqlarda əsən rüzgardı,
Gətirdiyi narın xışıltılardı.
Bir də sahillərə kədərlə çarpan,
Yorğun dərələrin uğultusundan
Səslər duyulurdu. Heyrət içində,
Uğursuz bir qara dəhşət içində,
Günah fikirlərdən o fəna ruhu
Yayındırıb gecə qaravulçusu,

Tələsə-tələsə dua oxurdu.
Xülyalı köksünə bir xaç da vurdu,
Səssiz addımlarla tutmadan aram
Öz adi yoluna eylədi davam.

## XIII

Yatmış pəri qədər gözəl Tamara
Uzanmış, uyuyur öz tabutunda.
Üzündəki bəyaz örtüsü əlan,
Daha da tutqundur solğun alnından.
Uzun kiprikləri qapanmış, lakin,
Tanrım, kim deməz ki, o sivri sakin
Kipriklər altında uyuyan gözlər
Qımıldanmayacaq; bu saat məgər
O gözlər bir öpüş gözləməyirmi?
Doğan bir gündüzü özləməyirmi?
Ətrafı qaplamış qara bir hüzün,
Lakin əbəs yerə işıq gündüzün
Nazik pərkələri o nəzərlərə
Altun dəstələrlə çarpır boş yerə.
Onu lal qüssələr içində doğma
Dodaqlar öpürlər, ölümün amma
Əbədi möhrünü qırıb atacaq,
Bir qüvvət olmamış, olamayacaq!

## XIV

Tamaranın bütün ömrü boyunda
Böylə bəzəndiyi gün olmamışdı.
Ellər bayramında, ellər toyunda
Belə ipəklərə tutulmamışdı.



Doğma dərələrin tər çiçəkləri,
– Əski adətlərin tələbiydi bu –
Sarmışdı ətrilə o şəbnəmləri;
Gözəllik olmuşdu ölüm məğlubu.
Soyuq ovuclarda qalan çiçəklər
Boynunu burmuşdu yetimlər kimi.
Onlar da torpaqdan ayrılmaq istər,
Onlar da həyatdan bixəbər kimi.
Onun həm sevinclə, həm ehtirasla
Dolu çöhrəsində acı ölümdən
Yoxdu bir kiçicik əlamət əsla.
Ölmüş sanarmıydı onu seyr edən?
Onun düşüncədən, duyğudan öylə
Məhrum mərmər kimi donuq heyəti,
Ölüm kimi sirli bir gözəlliklə
Doluydu, gözəldi yenə surəti.
Gülüşü donmuşdu dodaqlarında.
Bu gülüş cəlb edib bütün diqqəti
Qəmli macəralar söylərdi; onda
Vardı bir solacaq könül nifrəti.
Onda torpaqlara səssiz, xəbərsiz
Əlvida söyləyən son bir hal vardı;
Uzun saçlarında, bir görsəydiniz,
Əriyən pərişan bir xəyal vardı.
Gün öz həşmətilə batdığı zaman,
Dənizə qızıllıq yatdığı zaman
Gizlənir əngində göylər pərisi,
Gözlərin ulduzlu dilbər pərisi.
Qafqazın gümüşdən bəyaz qarları,
Bir anlıq bu qızıl, pənbə, al, sarı
Rəngin şəfəqləri tutub saxlayır,
Quytu uzaqlarda par-par parlayır.

Ah, lakin bu yarım, bu canlı şafaq
Boşluqda bir ziya bulamayacaq.
Donuq da bir ziya bulamayacaq,
Donuq fəzasında kimsənin, yazıq,
Sərpə bilməyəcək yoluna işıq.

### XV

Bütün qohum-qonşu toplanmış, baxın,
Qəmli bir səfərə hazırdır axın.
Bəyaz saçlarını yolub gizlicə,
Köksünə verərək dürlü işgəncə,
Ağ yallı atına Qudal atıldı,
Sözlər buludlandı, qaşlar çatıldı.
Ansızın yerindən tərpəndi qatar,
Üç gün, üç gecəlik qarşıda yol var.
Qəribləri soyan, kəndləri çapan
İxtiyar Qudalın babalarından
Biri vücudunu sıxarkən azar,
Son dəmdə edərək tövbə, istiğfar,
Düşünüb, düşünüb qorxunc yarını,
Yumaqçın keçmişki günahlarını,
Qartalların qanad çaldığı yerdə,
Boranların səs-küy saldığı yerdə,
Sıldırım qayalar üstündə əmin
Demişdi: mənə bir kəlisa tikin.
Kazbek qarlarının arasında tək,
Bir xram yüksəldi çox keçməyərək.
Yaramaz insanın qart gəmikləri
Buldu kəndisinə əmniyyət yeri.
Buludlar qoynunda olan bu qaya
Keçdikcə çevrildi bir məzarlığa,



Göylərə qalxdıqca aqibət yurdu
Guya sıcaqlığı artıq olurdu.
Sanki insanlardan olursa kənar
O röya edilməz əsla xələldar.
Əfsus qəm əsəri, sevinc əsəri
Yerindən edəməz gömülmüşləri.

### XVI

Altun qanadlarla qüdsi bir mələk
Əsiri boşluqda sakit süzərək,
Günahkar bir ruhu qaçırdı,
Sonsuz fəzalara qanad açırdı.
Gözəl candan şirin təkəllümilə,
Bərraq nəşəsilə, təbəssümilə
Dağıdırdı onun şübhələrini,
Açmışdı üstünə naz şahpərini.
Cinayətdən doğan acı qəmləri
Yuyurdu gözündən axan dəmləri.
Gəlincə uzaqdan cənnət səsləri
Göydə bir gurultu sardı hər yeri.
Dərin dərinlikdən cəhənnəm ruhu
Kəsdi bir mələyin azad yolunu.
Bir tufan kimidi doğan vəlvələ,
Boşluqda qiyamət yapan vəlvələ.
Çaxan ildırımdan olmazdı fərqi,
Parlardı ətrafda şimşəyi, bərqi.
Şımarıq-şımarıq səslənirdi ki:
– Hara aparırsan sən o mələyi?
O mənimdir, mənim! – Öz qorxusunu
Tamaranın suçlu günahkar ruhu

Həzin dualarla edərək təskin,
Sığındı qoynuna köməkçisinin.
Gələcəyin vaxtı həll olunurdu,
Demon Tamaranın önündə durdu.
Lakin kim tanırdı Allahın onu,
Kinli nəzərlərlə baxan Demonu,
Ah, bilsən, o necə zəhər daşırdı,
Necə düşmənliklə azğınlaşırdı...
Onun hərəkətsiz donuq üzündən
Məzar soyuqluğu gəlirdi, bilsən.
– Ey murdar şübhələr ruhu, çəkil, get.
Bu sənin umduğun pəri deyil, get. –
Deyərək səsləndi göylər elçisi,
Göylərin qorucu rəhbər elçisi.
Bu qədər təntənə qurduğun yetər,
Son saat. Tanrının hökmü müqərrər
İmtahan günləri sovuşdu artıq.
Onun üzərində ağır fənalıq
Zəncirləri bütün qırıldı getdi,
Yer libası kimi sıyrıldı getdi.
Düşün, gözləyirdik biz çoxdan onu,
Yaxşı tanıyırız onun ruhunu.
Onun ruhu öylə ruhlardandır ki,
Ruhlar o qədər mehribandır ki,
Onlar üçün həyat ani bir hüzün,
Uzaq bir nəşədən ibarət bütün...
Tanrı o ruhların toxumuş, dinlə,
Canlı tellərini bərraq əsirlə.
Onlar dünya üçün yaranmamışlar,
Dünya da onlardan kənardır, kənar.
Tamara qaldırdı şübhələrini,
Ağır qiymətlərlə tutdu yerini.



O iztirab çəkdi, sevdi, nəhayət,
Sevginin üzünə açıldı cənnət.
Mələk sərt bir nəzər atdı Demona,
Üz verdim əzəli bir sevinc ona.
Yüksəldi, yüksəldi, heç enməz oldu,
Əngin fəzalarda görünməz oldu.
Məğlub olmuş Demon özünün dəli,
Daxili zəhərli, üzü pərdəli
Onlar qayəsinə yağdırdı lənət,
Hər bir istəyinə sovurdu nifrət.
Əvvəllərdə necə yaşamışdısa
Kibrilə yenidən bu kainatda
Qüssəsi gücləndi, dərdi çoxaldı,
Öylecə sevgisi nəşəsiz qaldı.

## XVII

Sığınıb dağların ətəklərinə,
Qayşaur dərəsi üstündə yenə
Divarları uçuq, görkəmi pozğun,
Bir xaraba durur kədərli, məhzun.
Dillərdə ta uzaq zamandan bəri
Dolaşır o yerin hekayətləri.
Kölgəli, əsrarlı ağaclıqlardan
Sehirli günlərin şahidi olan
O viranə durur sağır, lal kimi.
Aşağıda aul gülür, şənlənir,
Ətraf çiçəklənir və yeşillənir.
Uzaqlarda süzür qarışıq səslər,
Yollarda bir karvan eyləyir səfər,
Zınqırov səsləri yayılır düzə;
Qayalarla gəlib köküs-köküsə,

Dumanlar içində şarıldayan çay
Axır, köpüklənir, salır vurharay.
Cavan bir həyatla dərdsiz təbiət,
Günəşlə, baharla edir zərafət.
Şən bir çocuq kimi oynayır, gülür,
Ruhuna təsəlli nuru tökülür.
Lakin öz dövrünü bitirmiş qala,
Bu şeylərə məhəl qoymayır əsla;
O kəndi eşinin, əqrəbasının,
Ən uzaq dostunun, aşinasının,
Məzarı başında çökərək ağlar,
Bir ixtiyar qəmi çəkərək ağlar.
Onun görünməyən sakinləri də,
Ayın doğmasını gözlər bu yerdə.
O zaman onların azadlığı var,
Göylərə sığmayan bir şadlığı var.
Uçurlar üfüqdən-üfüqə birdən,
Lakin göz yumurlar şəfəqə birdən.
O yeni münzəvi – qoca hörümçək
Bucaqda torunu hörür gəzərək.
Dam üstündə yaşıl kərtənkələlər,
Hər uçuq sütunda bir əqrəb gəzər.
Ehtiyatlı ilan, keyfi özündə,
Sürünür eyvanda səki üstündə,
Bəzən bir-birinin içində olan
Dairə şəklinə düşür bu ilan.
Bəzən yumaq kimi dolanır, yatır,
Bəzən bir zol kimi uzanır, yatır.
Döyüş meydanında sağ qurtulmayan,
Şəhid bir igidə gərək olmayan,
Uzun vaxtdan bəri çöllərdə qalmış,
Unudulmuş uzaq bir yerdə dalmış



Polad qılınc kimi parlayır, keçən
İllərin nişan yox keşməkeşindən.
Hər yerdə kədərli bir başqalıq var,
Vəhşi bir gözəllik nəzərə çarpar.
Uzun əsrlərin qatı əlləri,
Alt-üst eyləmişdir burda hər yeri.
Heç bir şey Qudalın böyük adından
Və gözəl qızından verməyir nişan.
Fəqət gömüldüyü yerdə onların,
Qayalar üstündə boz dumanların
Seyrək arasından bu gün də belə,
Müqəddəs qüdrətin köməkliyilə
O kəlisa yenə durmuş, görünür,
Qartallar başına dolanır, dönür.
Onun bağlı, açıq darvazaları
Ağzında bəmbəyaz qardan paltarı,
Əsrlər boyunca qatı buzlardan
Soluxmuş köksündə zirehi olan
Qranit qayalar bəkləyir növbət.
Uçqunlar sanki bir çağlayan olmuş,
Sonra eyləyərək kəsbi-birudət
Uçduqları yerdə donmuş, tutulmuş,
Hərəsi bir yerdə donaraq yatır,
Divarlar üstünü hey dumanladır.
Xəbərçi küləklər ordan əsərkən,
Sevimli mahnılar oxuyur bəzən,
Bəzən çılğın kimi coşur, bağırır,
Fit verir, yolçunu yoldan çağırır.
O gözəl xramı görərəm deyə,
Uzaqdan buludlar gəlir səcdəyə.
Məzar daşlarının üstündə fəqət,
Ağlayıb tökən yox bir damla rəhmət.

Kədərli Kazbekdə hər yalçın qaya
Nə qədər hərisdir tutduğu hava.
İnsanlar nə qədər etsə şikayət,
Onların sükutu pozulmaz fəqət.

Tərcümə edənlər: *M.Müşfiq*
*R.Rza*



TARAS ŞEVÇENKO
(KOBZAR)

## İŞÇİ QADIN

### PROLOQ

Səhər zümrüd, geniş çöl
Dumanlara büründü.
Bir kurqanın üstündə
Bir xəyalət göründü.

Bu xəyalət – bir qadın,
İncəbel bir qadındı.
Bir şey basıb bağrına
Dumana belə dedi:

– Əzib dərdli başımı,
Ey duman, göm torpağa!
Alıb mənim daşımı
Fırladaraq uzağa
Qurtar məni töhmətdən,
Bu uğursuz qismətdən.
Yox, əzmə gözüm duman,
Bu çöldə məni yalnız
Gizlət, əgər bacarsan,
Bulunmasın heç bir iz.
Qurtar məni lənətdən,
Bu uğursuz qismətdən.

Nə yalnız, nə ögsüzüm,
Anam, babam sağ mənim.
Bir oğlum da var, gözüm,
Görürsən tək deyilim...

"Canım, ciyərim, oğul,
Səni sevərim, oğul.
Çəkilmədən sən suya,
Vaxtsız gəldin dünyaya.
Ana bilməz adını,
Adını, muradını...
Mən yoxsul da deyildim...
Oğlum, məni qınama.
Çarpınca böylə qəlbim,
Yalvararam Allaha.
Tükənməz göz yaşımla,
Bu bəlalı başımla
Hüzuruna gedərəm,
Sənə dua edərəm".

Qadın yollandı getdi hıçqıran nəfəsilə
Dumanlara büründü, çöllərdən axdı getdi.
Durmayan göz yaşilə, titrəyişli səsilə
Dul qadın mahnısını yavaş tərənnüm etdi.

Bu dul qadın Tunaya çıxmış imiş bir gecə,
Tunayda çocuqları gömmüş imiş gizlicə...

"Keçmişlərdə bir çöldə
Tək bir məzar var imiş.
Bir gənc qadın buraya
Gəzməyə çıxar imiş.



Gəzib yaxın-uzağı,
Aramış kəskin ağı.
Arayıb bulmayınca,
O deyən olmayınca
Bükərək oğullarını bir şeyə,
Oxuyaraq, gəlib çıxmış Tunaya:
– Əzizim nazlı Tunay,
Söhbətli, sazlı Tunay.
Əyləndir balalarımı.
Yumuşaq qızıl qumlar,
Sizə bir də sözüm var:
Saxlayın balalarımı,
Açınız, bələyiniz!
Böyüsün çocuqlarım.
Ninnilər söyləyiniz,
Uyusun çocuqlarımı!"

## I

Bu ölkədə var idi bir qocayla bir qarı...
Xilqət eyni torpaqdan yaratmışdı onları.
Durğun göy üstündəki ağaclıqlara sarı,
Xırdaca daxmacıqda yaşardı qoca, qarı.
Yaşıd çocuqlar kimi gəzərlərdi həp qoşa,
Bərabər çıxarlardı ormana, dağa-daşa.
Hər ikisi ta ilkin, ufacıq çocuq ikən,
Quzuların yanında sevişmişlərdi birdən.
Sevda yaman dərd deyil, evlənmək ona dava,
Sonra da evlənərək qurmuşlar bir yurd-yuva.
Ev, dəyirman tikdilər, bir də bir bağ saldılar,
Ev-eşik düzəltdilər, azdan-çoxdan aldılar.
Arıçılıq etdilər; az olmazdı balları,
Bir sözlə, yerindəydi dövlətləri, malları.

Durmadan çalışmışlar, hər şeyləri çox idi,
Talesizlik bunda ki, çocuqları yox idi.
Bu yandan da qapını gəlib kəsib Əzrayil,
Ölümün bıçağına dünyada varmı hayil?
Bu qocalıq çağında kimləri baxacaqdı?
Nəvazişlər göstərib, kim atəş yaxacaqdı?
Ölüncə kim onlara tədarük görəcəkdi,
Kim matəmə əyləşib, kim ehsan verəcəkdi?
Bu alın tərlərilə toplanmış mülkü, malı,
Zəhmətlə yığmışlardı qarı, qoca olalı.
Kimlər sahiblənəcək? Bu yoxsul uçuq evdə
Çocuq saxlamaq gücdür, varı, malı yox evdə.
Lakin bolluq içində sonsuzluqla qocalmaq,
Yaman dərddir qocalıq, oğulsuz, qızsız qalmaq.
Çox ağır bir dərddir bu, varı-halı olana:
Ölsün yadlar içində, malı getsin talana.

## II

Bizim qoca və qarı
Bir gün bazar günündə,
Birgə oturmuşlardı
Evlərinin önündə.
Əyinlərində təmiz
Ağappaq köynəkləri,
Baxırlardı nəşəsiz.
İşıq sarmış hər yeri,
Göylər güzgutək aydın.
Bulud, duman yox idi,
Zavallı qocaların
Dərdlərisə çox idi.



Bu cənnət kimi gündə qocaların dərdi nə?
Nə ad verək olardı onların bu dərdinə?
Nə fəlakət üz vermiş; yoxsa əski bir kədər
Onların qolbasına yenidən saldı nəzər?
Yaxud dünən yenilmiş uğursuz bir düşüncə
Bir dahamı uğramış bu gün düşməyən küncə?
Yoxsa yeni bir bəla çökmüş ıssız daxmaya?
Bax bir daha... haydı çabuq çıxalım...
Mənim də bildiyim yox nədir onların dərdi?
Bilmədim ki, onlara nə müsibət üz verdi?
Bəlkə hazırlanmışlar o dünyaya səfərə,
Gedən gəlməz diyara, varan dönməz yerlərə?
Bu uzaq səfər üçün varmı yardım edəcək?
– Nastya, quzum, bizi kim dəfn edəcək?
– Allah bilir, get ona ver sual.
Düşünüb daşınmaqdan yorulmuşam mən artıq.
Düşündükcə artmaqda qəlbimin də məlalı,
Bir çox illər çalışdıq, mal və dövlət topladıq.
Bu mal kimə qalacaq?
Kim verib, kim alacaq?
Qocaldıq, baxtsız olduq...
Nə aradıq, nə bulduq?..
– Dayan Nastya, ağlayan var... bir dinlə,
Darvazada... həm çağadır bu belə...
Bax bir daha... haydı çabuq çıxalım...
Nə söylədin?.. Yalanmıdır?.. Baxalım...

Qoca ilə qarı dərhal qalxdılar,
Haman gedib darvazaya baxdılar.
Bu ağlayan bir körpəydi, buldular,
Zavallılar büsbütün mat qaldılar.

Gətirdikcə ortaya həm halı, həm keçmişi,
Bu dünyanın işləri əcayib bir müəmma.
Təlin edir oğlunu, evdən qovur bir kişi,
Bir başqasıysa durmaz, hey yalvarır Allaha.
Tökərək göz yaşları baş vurur hər bir yerə,
Mum yaxıb nəzr eyləyir müqəddəs təsvirlərə.
Allahdan oğul dilər, istər bəy, istər yoxsul,
Nədəndir bəzən acı, bəzən şirindir oğul?!

### III

Yığıldı gəldi dostlar,
Tapdıq suya çəkildi.
Mark qoydular adını,
Artıq adsız deyildi.
Bir əldən gəldi, getdi
Kirvələr dəstə-dəstə,
Kim dedi, kim eşitdi...
Saxlandı Mark göz üstə.
Böyüdükcə bizim Mark,
Çəkildi hər bir nazı.
Onunçundu tək ancaq
Qocaların niyazı.
Bu Mark ixtiyarların
Düşməzdi əllərindən.
Yaşlı bəxtiyarların
Düşməzdi dillərindən.
Hətta sağmal inək də
Boğulurdu bəzəkdə.
Düz bir il başa gəldı,
Mark böyüdü, kökəldi.



Bir gün bir şirin sözlü,
Ağbəniz, qara gözlü,
Gözəl bir qadın gəldi.
Gözəlmiydi? Gözəldi.
Gəldi bir iş istədi,
Qoca qarıya dedi:
– Nastenka, gəl tutalım.
– Tutalım, yoxdur halım,
Doğrudur, Troximuşka,
Çocuq gəlmiş bir yaşa,
Yenə çox zəhmət istər.
Biz xəstələnsək əgər,
Çocuq qalar kimsəsiz.
Qulluqçu tutmalıyız.
– Mənimsə varım azdır,
Kisəmiz də dayazdır.
Sən bizdə qalacaqsan,
Söylə, nə alacaqsan?
İllik durursan, aylıq?
Söylə, olsun kolaylıq.
– Siz özünüz kəsiniz,
Özünüz bilərsiniz...
– Yox, əmək müqəddəsdir,
Çalış hesabı kəsdir.
Zəhmətə haqq verməyən
Adam olmaz qətiyyən.
Sən qal bizdə, işlə, çalış,
Bizə isniş, işə alış.
Hesabı sonra yaparız,
Bir sözlə: qal, ol bizə qız.
– Olsun.

– Haydı buyur evə,
Qəbul etdim sevə-sevə.
Söz verildi, iş düzəldi.
Bu, qadına çox xoş gəldi
Sanki yerini buldu haq,
Yaxud böyük haq alacaq.
Hey çalışır, çapalayır,
Təmizlənir evlə bayır.
Bataraq bütün qan-tərə,
Baş çəkirdi hər bir yerə.
Gah həyətdə inək sağır,
Gah da yıxayır camaşır.
Çocuğa ki, olmuş əsir,
Üzərində daim əsir.
Nazlandırır, böyüdürdü,
Gözdən qoymazdı, güdürdü.
Göstərməzdi hər yetənə,
Elə bil ki, doğma annə.
Hər gün tər-təmiz yıxardı,
Mark da gül kimi qoxardı.
Çocuq şıq geyir, sallanır,
Pəmbə yanaqlar allanır,
Gözəlləşirdi... daha da
Əl çalmaqda, oynamaqda.
Gözəl səslə şərqi söylər,
Oxurdu hər axşam, səhər.
Oyuncaq yapar əlilə,
Əyləndirirdi dililə.
Elə ki, gəlirdi bayram,
Çocuqsuz tutmazdı aram.
Onu verməzdi heç kəsə,
Bizim qarı, qoca isə,



Bu işə şükr edirdilər,
"Bu bir nemət!" deyirdilər.
Lakin bilməzlərdi necə
Yuxusuz keçmişdir gecə?
Lənət edib taleyinə,
Oyaq qalmış dərdli nənə!
Bunu bilən yoxdu əsla,
Mark bir çocuq, o da hala
Anlamazdı nədən daya
Gecə ulduz saya-saya,
Ağlayırdı gizli-gizli,
Öpər, qoxlar çox sinirli.
İş içindən gecə-gündüz,
Özü qalır ac və susuz,
Nə dincəlməz, nə yatmazdı,
Lakin Markı unutmazdı.
Ah, nə bilir məsud çocuq
Ki, dayanın dərdi pək çox...
Özü inlərkən gecələr,
Daya dərhal qaçıb gələr,
Dikib ona gözlərini
Titrək səslə söylər ninni.
Beşiyini yırğalardı,
Həmdü-surə oxuyardı.
O otaqdan hər səsini,
Duyardı hər nəfəsini.
Mark sabahlar oyanırdı,
Oxuyurdu bir quş kimi.
Çırpınaraq o, Gannaya,
Dil açar, deyərdi: "Ana!"
İllər və aylar dolandı,
Mark da böyüdü, uzandı.

## IV

Bu gündən illər keçdi, könüldə iz buraxdı,
Ev bir dərdə uğradı, hədsiz göz yaşı axdı.
Bir müsibət üz verdi; o bizim Nastya nənə
Birdən çıxıb yollandı axirət səfərinə.
Onsuz tək qaldığından bu vəfasız diyarda
Yola çıxmaq üzrəydi bəlalı ixtiyar da.
Fəlakət bir qasırğa, gəldi dolaşdı, getdi,
Çıxıb getmədən əvvəl bir çox fənalıq etdi.
Ondan sonra dağlardan enib gəldi səadət,
Gəldi, bu dərdli yurdda başlandı istirahət.
Mark çoxdan bəridir ki, başlamış çalvadarlıq,
İşdə, gücdə daima göstərməkdə yararlıq.
Payızın rütubətli, yağmurlu gecələri,
Mark evdə yox, çöllərdə açmaqdadır səhəri.
Qoca bir gün düşündü: "Evləndirmək zamanı
Çatdı, lakin bu gəncə yaraşası qız hanı?"
Sonra məsləhət üçün çağrılınca o Ğanna,
Hazırdı elçi getsin şah qızının yanına.
– Gəlsənə bir soralım bunu Markın özünə,
Sonra elçi düşəlim birisinin qızına.
Mark ilə görüşdülər,
Görüşüb soruşdular.
Qoca haman dəqiqə "ölərəm görməm" deyə
Əlüstü adam tapdı, göndərdi elçiliyə.
Bir az sonra elçilər döndülər xoş xəbərlə,
Qablarına qoyulan peşkəşlərlə, nələrlə.
Elçilər bəhs edərkən seçdikləri gözəldən
Dedilər: "Səadətdir su içmək elə əldən,
Boy-buxun öz yerində, quşlar qədər ayıqdır,
Söz yox ki, bizim gəlin böyük xana layiqdir.



Xanımlıq halal qismət elə gözəl bir cana!"
Çox sevindi Tiroxim, həm də zavallı Ğanna.
"Haydı olsun siz deyən, sağ olun qoçaqlarım,
Mən də bu işdən indi bir nəticə çıxarım:
Ömrümün bu vaxtında Mark murada erməli,
Burda hər şeydən əvvəl toya qərar verməli".
Sonra qoca düşündü, bir ah çəkdi və dedi:
"Bəs bu toyda analıq eyləyəcək kim indi?
Oh, zavallı Nastya, düşdüm yaman günlərə
Çıxıb getdi, oğlunu çıxarmadan bir yerə".
İxtiyarın gözündən sel kimi yaş boşandı,
Göz yaşlarilə andı, sevgili dostu andı.
Bu əsnada bir qadın qapının o üzündə
Dayanmışdı, dünyanın ələmləri gözündə,
İştə bu gizli-gizli ağlayan dərdli ana,
Tezlikcə sezildi ki, bizim zavallı Ğanna.
Hər şey susmuşdu, yalnız sızlayır işçi qadın:
"Kim analıq edəcək, anası yoxmu Markın?!"

## V

İki könül birləşdi,
Daxmada nələr bişdi.
Kefləndi bizim qoca,
Oynadı üsulluca.
Belə hoplayıb düşdü,
Ayağilə yer eşdi.
Hər ötəri, keçəri
Çağırıldı içəri.
Verildi bütün toya
Mürəbbə doya-doya.

Qızların qəh-qəhəsi,
Toydakı şənlik səsi,
Gurultu və patıltı
Doldurmuşdu həyəti.
Taqətdən düşmüş qoca,
Yoruldu, yorulduqca.
Nə şərab gəldi o gün,
Boşaldı küplər bütün.
Çox şeylər bişirildi,
Bişənlər düşürüldü.
Ta səhərdən başlamış,
Canlanmışdı evdə iş.
Lakin bu qonaqların
Yabançıdır cümləsi...
Heç biri deyil yaxın...
Ğannanın gəlməz səsi.
O dalmamış bu keyfə,
Nə üz vermişdir yenə?
Birbaş getmiş Kiyevə,
Vəlilərin qəbrinə.
Toyadək qalsın deyə,
Çox yalvardı Tiroxim,
Mark and verdi hər şeyə:
– Məni qoyma gəl yetim!
Çox yalvardı, olmadı,
Qadın toya qalmadı.

– Yox əzizim Mark, məni sən gəl burax da gedim,
Bu halımla mən sənə nə cür analıq edim?
Anan-baban zəngindir, mən yaraşmam adına,
Hər kəs gülər sonra, sən, salma məni yadına.
Mən də dərdli başımla ziyarətə gedərəm,



Vəlilərin önündə sənə dua edərəm...
Sonra qismət olursa, dönərəm yenə geri,
Gələrəm yenə sizə buraxsanız içəri.
Qalıb yenə bu evdə sizlər ilə yaşaram,
Ta nəfəsim var ikən önündə çalışaram.

Ğanna ürəkdən Marka xeyir-dualar verdi,
Darvazadan çıxaraq Kiyevə üz çevirdi.

Qızışmışdı qonaqlıq,
Oynayan kim, çalan kim.
Yorularaq çalmaqdan,
Oynamaqdan qalan kim.
Hər kəs yeyib-içməkdə,
Şadlıq dövrə keçməkdə.
Toplandı varlı, yoxsul
Yemək yeyildi bol-bol.

İşçi qadın bu zaman
Bitirmişdi yolunu.
Gəlmişdi uzaq yoldan,
Xərclamışdı pulunu.
Dərmədən nəfəsini
Bir xanıma qarabaş
Oldu ki, kisəsini
Doldursun yavaş-yavaş.
Həm yeməyə, içməyə,
Həm təvafa keçməyə.
Dost-düşməndən utandı,
Su daşıdı, qazandı
Hamanca puldan qoçaq
Aldı Marka bir papaq.

Tikdi bədnəzər daşı,
Markın ağrımaz başı...
Sonra gəlinə üzük
Aldı, etdi təbərrük.

Üz sürtərək son dəfə ərənlər məzarına,
İşçi qadın yollandı yenə öz diyarına.
Eşidincə qapıda onun titrək səsini,
Mark çıxdı istiqbala alaraq zövcəsini.
Xoş-beş etdikdən sonra içəriyə aldılar,
Yoldan gəlmiş qadına təmiz süfrə saldılar.
Qadın da yeyib doydu, yuyunub sığallandı,
Həm gəldikcə söhbət də dallandı, budaqlandı.
Gecə gəlib çatınca külfətin yatmaq çağı,
Katerina sıçrayıb özü sərdi yatağı.
– Bunlar məni sevirlər, bu hal nədəndir əcəb?
Bu sevgiyə nə bilim hansı sirr olmuş səbəb?..
Mən ki, çoxdan boğmuşam ürəkdəki sızımı,.
Yoxsa, nəhayət, bunlar tapdılarmı izimi?
Yox, Allah eyləməsin, istəməm, bilməsinlər,
Bilməsinlər mən kiməm, sınıb əyilməsinlər...
Aldı ovuclarına dərdli qadın başını,
Boşaltdı çaylar kimi gözlərinin yaşını.

## VI

Aradan keçdi üç qış, üç dəfə çaylar doldu,
Üç dəfə günəş çıxdı, buzları qırdı, yondu.
Üçüncü dəfə idi o gözəl Katerina
Çıxarmışdı Ğannanı Kiyevin yollarına.
Dördüncü dəfə onu bir doğma ana qədər
Çıxarkən ötürməyə getdi kurqana qədər.



Dönə-dönə həp rica eyləyirdi qadından
Ki, tez dönsün, onları çıxarmasın yadından.
Zira onların evi qalınca boş Ğannasız,
Çətin keçir onların halı onsuz, annasız.
Bir gün pəhrizdən sonra bir yekşənbə günündə
Qoca oturmuş idi darvazanın önündə.
Oturmuşdu Tiroxim, dərdlərini sayırdı,
Bir oğlan nəvəsi də it ilə oynayırdı.
O yanda qadınlığa artdığından həvəsi,
Katyanın dizliyini tapmışdı qız nəvəsi.
Qız dizliyi geyərək gəldi çox vüqar ilə,
Görüşdü qonaq kimi bizim ixtiyar ilə.
Qoca güldü ürəkdən bu evin şeytanına,
Yetişmiş bir qız kimi oturtdurdu yanına.
Sonra ondan sordu ki: "Hanı sənin əkməyin,
Soydularmı meşədə, qız xanım, tez söyləyin!"

Tam bu anda göründü
Qapıda işçi qadın.
Qoca da nəvəsilə
Çıxdı ki, qarşılasın.
Sordu zavallı Ğanna:
– Söyləyin bir Mark nerdə?
O səfərdəmi hala?
– Əvət, yenə səfərdə.

– Oh, mən böyük zəhmətlə süründüm, gəldim sizə.
Artıq nedə bilərdim, gücsüzlük çökmüş dizə.
Mən ölmək istəmədim uzaq, yad ölkələrdə,
Heç olmasa görəydim ölməmiş Markı bir də.
Nədənsə fənalaşıb əhvalım gündən-günə...
Bu sözlərindən sonra zavallı qadın yenə

Başladı çantasından peşkəşlər çıxarmağa.
Əvvəl Markın qızına, o şeytan Arişaya
Çıxarıb muncuq və xaç, bir də verdi bir qızıl,
Yaldızlı bir təsvir də yanırdı parıl-parıl.
Sonra da Karpa verdi bir bülbüllə iki at,
Bunlardan sonra etdi Katrinaya iltifat.
Dördüncü dəfə ona gətirmişdi bir üzük,
Bu üzük də müqəddəs Varvaradan təbərrük.
Ən sonra muzdur qadın əl uzatdı çantaya,
Üç təbərrük şam verdi çox sevdiyi qocaya.
Bu dəfə muzdur qadın nə Marka, nə özünə
Bir şey gətirməmişdi, həm gücsüzlük gözünə
Oturmuş, çalışmaya qalmamışdı imkanı,
Həm də ki, bu pulsuzluq utandırır insanı.
– Hə, bir qalxıb baxayım, zənn edərsəm xurcunun
Dibindən düşməmişsə, bir kökə gərək olsun.
Bu sözlərindən sonra qalxdı yerindən qarı,
Kökəyi çocuqlara bölüb verdi tən yarı.

## VII

Gətirəcək Katerina evinə qonağını,
Çirməndi su gətirdi, yıxadı ayağını,
Sonra yemək gətirdi, çox yalvardı: "Ye!" deyə
Lakin işçi qadının heç meyli yox yeməyə.
– Katerina, bax, qızım, o biri gün bazardır,
Yemək-içmək istəməm, ürəkdə arzum vardır.
Sonuncu dəfə bir də kəlisaya gedəlim,
Müqəddəs Nikolaya ərzü-niyaz edəlim.
Hanı bizim bu Mark da, nə gəlib çıxmaz oldu,
Gözləməkdən yolunu gözlərimiz yoruldu.
Yoxsa ki, xəstələndi, yollarda qaldı çocuq,
Yol gözləmək çox ağır, mənim də taqətim yox.



Bu sözlərindən sonra qadın səssiz ağladı,
Qoca, sönük gözlərdən sellər, sular çağladı.
Çəkdiyi əməklərdən canı üzülmüş Ğanna
Yerindən güclə qalxdı, cəfa basdı canına.
– Oh, gözümün işığı, sevgili Katerina
Mən nə yaman qocaldım, bu talesizlik mana
Nə zülümlər eylədi, dizlərimdə yox tutar,
Zənn edərsəm yaxında axirətə səfər var.
Yerim doğru rahatdır, dözmüşəm çox zülümə,
Fəqət dözmək çox çətin yad evində ölümə.
Biçarə, baxtsız Ğanna çox ağır xəstələndi,
Adam getdi keşişə, o da gəldi, hərçəndi,
Ovdular piylə, lakin yaxşılaşmadı halı,
Anlaşılan çatmışdı həyatının zavalı.
Katerina kəsdirmişdi xəstəsinin yanını,
Onun üçün cəfadan əsirgəməz canını.
Gözlərin götürməzdi qadının gözlərindən,
Bir şey anlarmış kimi qarışıq sözlərindən,
Sayıqlarkən əyilib dinlərdi gecə-gündüz.
Uzaqlaşmaz xəstədən, oturub səssiz-küysüz,
Mükəmməl düşünürdü; qoca çöldə dolaşır,
Gecələr damın üstə hey bayquşlar ulaşır.
Həm də xəstənin halı hər gün ağırlaşırd..
Bürüşüklü alnında ölümlər dolaşırdı.
Katerina saxlayıb gözlərinin yaşını,
Nə Ğanna qaldırırdı yastığından başını,
Zavallı qərib qadın nə yeməz, nə içməzdi,
Lakin Markın adı da dilindən heç düşməzdi.
– Katerina, Allahçın, söylə nə oldu Marka?
Mən öldüm intizardan yollara baxa-baxa.
Bir də görə bilsəydim ölməz idim, gözlərdim,
Başqa bir şey istəməm, Markı görməkdir dərdim.

## VIII

Karvan ilə bərabər
Mark qayğısız gəlirdi.
Sıxmazdı onu səfər,
Oynayırdı, gülürdü.
Otarır öküzünü
Hey oxuya-oxuya,
Yormazdı heç özünü,
Yatardı doya-doya.
Sevgili zövcəsinə
Peşkəş mahıt almışdı...
Görüşün nəşəsinə,
Xəyalına dalmışdı.
Almışdı bir al qurşaq
O ixtiyar babaya.
Bir parça da yumuşaq
Baş örtüsü Ğannaya.
Bundan başqa, kənarı
Haşiyəli bir dəsmal
Almışdı. Çocuqları
Yad etmişdi bu minval:
Onlara papuş, üzüm
Alıb gəlirdi yoldan,
Nə üzüm? Düzüm-düzüm.
Hamıçın İstanbuldan
Bir fuçu gülgün şərab.
Bolca kürü Tunaydan
Gətirirdi; iztirab
Çox uzaq idi ondan.
Bir şübhə yox qəlbində,
Könlündə heç bir şeyə,



Uzaq yoldan gəlirdi
Bayatı deyə-deyə...
İştə gəldi çıxdı Mark,
Nəhayət evlərinə.
Bismillah söyləyərək
Açdı qapını yenə.
– Katriya, qalx ayağa,
A Katriya, gəldi Mark.
Di cəld ol, çıx qabağa,
Pişvaz eylə, sonra bax,
Çağır gəlsin yanıma.
Şükr olsun Allahıma,
Rəhmi gəldi canıma...
Baxmadı günahıma...
Sonra yavaşca Ğanna
Oxudu həmdü-səna.
Həyətdə qoca baba
Markın öküzlərilə
Əlləşirkən, Katriya
Yetişdi, gözlərilə
Salamladı, Mark ondan
Soruşdu: "Hanı Ğanna?
Şübhələndim mən ondan,
Bir şeymi olmuş ona?"
– Qorxma, yoxdur heç bir şey,
Ağır xəstədir, ancaq
Çoxdan bəridir ki, hey
Əzbəri olmuş: Mark, Mark...
Yolunda çoxdan bəri
Zavallının gözləri.
Babaya öküzləri
Burax da, gəl içəri.

İçəriyə girincə, Markı heyrətlər aldı,
Ğannanın əhvalına baxınca dondu qaldı.
Pıçıltılə: "Çox şükür! – söylədi işçi qadın, –
Qorxma, əzizim, qorxma, bir az daha gəl yaxın.
İrəli gəl, irəli; sən də qızım Katrusya,
Sən çıx otaqdan bir az, əgər zəhmət də olsa,
Bizi yalnız burax, bir sözüm vardır Marka,
Bilirsən ki, yoruldum yollara baxa-baxa!.."
Katrina bu sözlərdən sonra çıxdı dişarı,
Mark xəstəyə yaxlaşdı, əyildi ona sarı.
"Əzizim Mark, yaxın gəl, bir bax mənim halıma
Görürsən ki, az qalmış uğursuz zavalıma.
Bir bax bu yorğun, əzgin işçi sandığın Ğanna,
Hər kəsdən çox adını, çəkib andığın Ğanna
Sənin..."
Titrədi, susdu burda, biçarə qadın birdən,
Mark isə ağlayaraq donub qaldığı yerdən
Hərəkət edəmədi, qadın yumdu gözünü,
Göz yaşları içində söylədi son sözünü:
"Mark baxma günahıma, çəkmişəm cəzasını,
Görmüşəm yalnızlığım matəmini, yasını;
Baxma gəl günahıma mənim sevgili oğlum,
Əfv eylə, anan ikən döndüm sənə yad oldum!.."
Zavallı Mark eşitdi bu müdhiş sirri, şaşdı,
Ayağının altından elə bil yerlər qaçdı.
Mark hönkürüb qapandı Ğannanın sinəsinə,
Ölüm fatihə verdi qadının nəfəsinə.



## QAFQAZ

*Yakov de-Balmenə**

Dağların ardında dumanlı dağlar,
Baxın, o dağlarda görün nələr var!
Onların torpağı dərdlə əkilmiş,
Ora su yerinə qanlar çəkilmiş.
Əsrlər boyunca bir qara qartal,
Prometey üçün kəsilmiş məlal.
Tutub ürəyini parçalamaqda,
Hər iki böyrünü dırmalamaqda.
Hər gün parçalayır onun canını,
İçməyir lakin sağlam qanını.
Özündə bir qüvvət hiss eyləyərək
Yenidən sevinir, gülür gənc ürək.
Öləməz haqqımız, həqiqətimiz,
Gömülməz torpağa ülviyyətimiz.
Dəniz diblərində dar ürəklilər
Sürə bilərlərmi tarlanı məgər?!
Canlı söz, canlı ruh boğula bilməz,
Allahın şərəfi əksilə bilməz.
Yarəbbi, səninlə bəhsə girişmək
Gücümüzdən kənar iş olsa gərək.
Səni mühakimə etmək xətadır.
Bizə göz yaşları lütfü-ətadır.
Olsa-olsa bizə təsəlli ancaq
Ağlamaq, ağlamaq, yenə ağlamaq.
Yeyilən çörəyin xamırını biz,
Qanla, tərlə, yaşla yoğurmaqdayız.

---

* Yakov de-Balmen fransız nəslinə mənsub bir ukraynalıdır. Şevçenkonun yaxın dostu idi. Qafqazda çərkəslərlə vuruşmada ölmüşdür.

Gülməkdədir bizə hər qanlı cəllad,
Sərxoş haqqımızsa uyuyur rahat.
Bəs o haq nə zaman oyanacaqdır?
Ey yorğun Allahım, özünü qandır,
Sən haçan dünyadan soyuyacaqsan?
Rahatlanmaq üçün uyuyacaqsan?
Çalış hər qüssədən azad olalım,
İmkan ver doyunca nəfəs alalım.
Sənin qüdrətini, söylə, kim danar?
Bizim canlı sözə inamımız var:
Azadlıq doğacaq, doğacaqdır haq,
Sənə doğru bütün ellər koşacaq,
Əsrlərcə sənə baş əyəcəklər,
Hüzurunda sənin yaş tökəcəklər.
Hələlik çağlayır, sellər çağlayır,
Sellərdə yanıqlı dillər çağlayır.

Dağların ardında dumanlı dağlar,
Baxın, o dağlarda görün nələr var!
Onların torpağı dərdlə əkilmiş,
Ora su yerinə qanlar çəkilmiş.
Bizim "ürəkaçan şəfqətimizlə"
Sizdəki hürriyyət sovruldu yelə.
Belində yatağan, çiynində silah
Ölənlər az deyil onun uğrunda.
Bol-bol axan qanlar, bu göz yaşları
Kafidir boğmağa müstəbid çarı.
Öksüz qadınların göz yaşlarını,
Gecələr tökülən qız yaşlarını,
Hədsiz-hesabsızdır, saymaq olurmu?
Belə zülmü yerdə qoymaq olurmu?



Valideyninizin üzündəkilər
Bunlardan qızğındır, bunlardan betər.
Yaşlardan yaranmış, inan, dənizlər,
Tutuşan dənizlər, yanan dənizlər.

Alqış, alqış sizə – iş görənlərə,
Bizə cövrü-cəfa çəkdirənlərə.
Bizim köpəklərə, bizim sarlara,*
Bizim babalara, bizim çarlara.
Alqış, alqış sizə ey uca dağlar,
Başları ağarmış ey qoca dağlar.
Tanrı tərəfindən unudulmayan
Böyük igidlərə** şərəf və üsyan.
Çarpışın – siz qalib gələcəksiniz,
Tanrı yardımilə güləcəksiniz,
Qüvvət, qalibiyyət arxanızdadır,
Haq ilə hürriyyət arxanızdadır!

"Kolbalar, çörəklər, hər şey sənindir,
Bunları həp sənə yaradan verir.
Əlindən alamaz onları kimsə,
Kimsə zəncirləyib salamaz həpsə.
İstər zəngin olsun, istərsə çıplaq,
Allah kəlamına göstərib maraq
Bir səslə oxuruz kəlami-rəbbi,
Zindandan səriri-dövlətə kibi.
Sizə öyrədəriz əgər istəsək
Nerdən, nə qiymətlə alınır çörək.

* Şair acı-acı gülərək, çarın insanları itlər kimi müharibəyə sürüklənməsini göstərmək istəyir.

** Şair burda azadlıq uğrunda mübarizə aparan Qafqaz xalqlarına işarə edir.

Biz xristianız: şanlı məbədlər,
Bizimdir min dürlü nazü-nemətlər,
Hətta bizimkidir Tanrının özü.
Daxmalar deşmədə gözlərimizi,
Nə üçün sizlərdə onlar var deyə
Öz çörəyimizi ac bir köpəyə
Atdığımız kimi nə üçün sizə,
Sizə atmayırız, bir bilsənizə?
Neçin günəş sizi işıqladırkən
Vergi almalıyız bununçun sizdən?
Bizə lazım deyil ziyadə şeylər,
Bizə aldığımız kifayət eylər.
Biz öz-özümüzü müqəddəs bilib,
Həzrəti-İsaya olmuşuz talib.
Çox şeylər öyrədə bilərdik sizə,
Yaxın olsaydınız azacıq bizə.
Bizdə nəhayətsiz bir Sibirya var,
Ölkəni bürümüş həbsxanalar.
Moldavalılardan ta finlərədək
Bir çox dillər susur orada demək.
Ərzi-übudiyyət edirlər onlar,
Diz çöküb səcdəyə gedirlər onlar!
Müqəddəs İncili oxuyaraq biz,
Sonra əzbərləyib zikr etməkdəyiz.
Müqəddəs kitablar edir hekayət:
Hansı bir çar isə bir kərə xəlvət
Göyçək arvadını sevmiş dostunun,
Öldürmüş, arvadın almışdır onun.*

* Davud peyğəmbərin öz əsgəri Uriyanın arvadına sahib olmaq üçün qətlinə fərman verdiyinə işarədir.



Bax, bizim göylərdə necə qanunlar
Əzəldən bəridir olmuş bərqərar.
Sizsə qaranlıqda sürünürsünüz,
Sizə nur saçmamış təmiz xaç hənuz.
Sizin gözünüzü açmalıyız biz,
Belə cəhalətdən qaçmalıyız biz.
"Dərin soyulunca nəyin varsa ver!"
Bizim bu şüara elə sən əməl,
Dərhal hazır olar cənnətdə bir yer,
Orda külfətin də görməz bir əngəl.

Kim deyir ki, heç nə bilməyirik biz?
Ulduzları sayır, darı əkiriz.
Olsa-olmasa da əgər uyarı,
Daima söyürüz fransızları.
Qara qullar deyil, sadə insanlar,
Boynuna xaç taxan xristianlar
Zorla satılmada bizim bazarda,
Bəzən uduzulur qızğın qumarda.
Yarəbbi, deyiliz biz ispanyalı,
Cühudtək alalım oğurluq malı.
Burax hər tərəfə yayılsın ki, biz,
Hər şeyi qanunla görənlərdəniz.

Peyğəmbər bir gözdə görmüşdür sizi.
Siz bir-birinizi sevirsinizmi?
Fitnəkar, riyakar, alçaq, bədəsil,
Allahdan lənətlər qazanmış nəsil!
Sağlam canı deyil, qardaşınızın
Dərisi lazımdır sizə, anlayın.
İştə bu dərini qardaşınızdan
Soyub qanun ilə hər gün, hər zaman

Paltar tikmədəsiz qızlarınıza,
Baxşış alırsınız arvadınıza.
Ailədən gizli saxladığınız
Bahalı şey-şüylər sizindir yalnız.

Sən ey Tanrı oğlu Həzrəti-İsa,
Bəlaya qatlandıq kimin uğrunda?!
Həqqü-həqiqətçin, yaxud bizimçin,
Ey Allahın oğlu, söylə, nə etdin?
Yoxsa bu insanlar arxanca güldü?
Belə olacaqdır, belə də oldu!
Kilsələr, məbədlər, bir sıra şamlar,
Qətranlı, dumanlı dini kəlamlar,
Surətlər önündə andlar içirlər,
Tərli alınlarla təzim edirlər.
Lakin sən bilməzsən bunlar neçindir,
Bunlar oğurluqçun, qovğa üçündür.
Gəldik hüzuruna, lütfən ver bizə
Qardaş qanı tökmək üçün icazə.
Yanğın düşən yerdən oğurlayıb biz
Kilsəyə ərmağan gətirməkdəyiz.

Diləriz, özümüz ağıllanırkən
Allahın nurilə sidqi-ürəkdən:
Ağıllansın bir az başqaları da,
İşıqsız qalmasın onlar arada.
Həqiqət günəşin açıq-aşkara,
Göstərmək istəriz kor çocuqlara.
Əvət biz hər şeyi öyrədəcəyiz,
Bizə tabe olun, müti olun siz.
Həpsxanaların tikilməsini,
Möhkəm zəncirlərin döyülməsini,



Onların nə sayaq sürülməsini,
Bağlı qamçıların hörülməsini,
Biz çox şey yaparız, razı olun siz,
Hələ çox şeylər də öyrənərsiniz.
Lakin sizin ulu, doğma dağları,
Qoyun əlinizdən alalım barı.
Onsuz da dənizlər, çöllər alınmış,
İndi də dağlara nəzər salınmış!
Səni də sürdülər əziz Yakovum,
Ey mənim səmimi, yeganə dostum.
Sən deyil uğrunda Ukraynanın,
Bəlkə ona qatı düşmən olanın
Yolunda haq sevən qızıl qanını
Axıtdın, edərək fəda canını.
Düşmən badəsindən zəhərlər içdin,
Hüriyyət yolunda canından keçdin.
Əbədi bir şərəf qazandın sonda,
Ölməyən bir ruhla yüksəl yurdunda.
Sahil boylarında qanadlan, ucal,
Kazaklarla birgə uçub qanad çal.

Dostum, vardır yalnız bir ricam səndən,
Pərişan vətənin bəkçisi ol sən.
Kazaklarla birgə göz yaşları tök,
Zülmün qalasını əllərinlə sök...
Mənim də gələcək qurtuluş çağım,
Əsarətdən evə qayıdacağım.

Həlelik, ey mənim düşüncələrim,
Mən sizi ətrafa saçmaq istərim.
Burax, tarlalarda hər gün onları,
Oxşasın gələcək bahar ruzigarı...

Ukraynadan əsər sakit küləklər
Bu düşüncələri sənə yetirər.
Dərdli düşüncəmin əskilməz qəmi,
Sən də gözlərində qardaş şəbnəmi,
Çıx bu dərdlərimin istiqbalına,
Acı vətənimin yazıq halına,
Qəbul et ürəkdən sən də bunları,
Çiçəkli qırları, uca dağları.
Əziz dost, xatırla, məni yad elə,
Bu qəmgin könlümü güldür, şad elə!

*18 noyabr 1845*
*Pereyaslavl*



## VƏSİYYƏT

Vəsiyyətim budur: öldüyüm zaman,
Məni dəfn ediniz Ukrainada.
Bir ucsuz-bucaqsız əngin səhrada
Məzarım olsun qoy ıssız bir kurqan.

Elə basdırın ki, görə biləyim,
Sıldırım dağları, düz ovaları.
Həm coşqun Dneprə yaxın olayım,
Duyayım ondakı uğultuları.

Daşqın sellər kimi düşmən qanını
Mən axan gördükcə yerdən qalxarım.
Azadlıq ver – deyə böyük Allaha
Dualar etdikcə artar vüqarım.

Mən o günə qədər, yoxsa, Allahı
Tanımam, tanımaq istəməm belə.
Qırıb zəncirləri, o azadlığı
Suvarın, nəhayət, düşmən qanilə.

Qurulan o azad, yeni dünyada,
Böyük ailədə gələrək dilə,
Məni unutmayın, siz salın yada
Xeyirxah sözlərlə, həzin sözlərlə.

*25 dekabr 1845*
*Pereyaslavl*

* * *

. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .
Biz çocuqluq zamanı bir evdə,
Böyümüşdük onunla birlikdə.
Analarımız baxıb sevinclə həmin,
Bizə söylərdilər: nişanlı, gəlin.
Lakin onlar deyən xəyal oldu,
Başlarından keçən mühal oldu.
Onları tərk edincə torpağa biz,
Ayrılıb heç görüşmədik, biliniz.
Fələk hər səmtə çəkdi, mən getdim,
Başqa bir yurdu ixtiyar etdim.
Doğduğum kəndə gəlməyimsə mənə
İxtiyarlıqda qismət oldu yenə.
Qayıdarkən başım ağarmışdı,
Sanki ömrüm tamama varmışdı.
Xarab olmuş mənim kimi artıq,
Düşünürdüm, bulunduğum komacıq
Kimsəsiz, kölgəsiz qalıb çökmüş,
Almış ən sonra bir həzin görünüş.
Mənə lakin o kənd göründü necə?
Necə görmüşdü gözlərim öncə,
Orda bir başqa şəkl alan yoxdu,
Yüksələn yoxdu, məhv olan yoxdu.
Gördüyüm tarla, gördüyüm orman...
Bir şey əksilməmişdi heç buradan.
Başucundan söyüd əsarətilə,
Gələrək incə dallarilə dilə,
Ona təzim edərdi, titrərdi,
Ona ahəstə ninni söylərdi.
Gördüyüm gölciyəz və körpüciyəz
Yaşayırlar çıxarmadan bir səs.



Bax, odur nazənin dəyirman da,
Ormanın quytu bir kənarında.
Bağ döşündə yaşıl palıd da durur,
Gənc kazakdır o sanki pək məğrur.
Görürəm orda quytu bir yamacı,
Görürəm orda ağ gilas ağacı
Ki, onun kölgəsində, cənnətdə
Valideyinimsə xabi-rahətdə,
Çökərək büsbütün zavallı məzar,
Xaç qırılmış, oxunmayır yazılar.
Qoy mənim can-ciyərlərim öylə,
Uyusunlar da istirahətdə.

– Bizim Oksana sağmı, söylə mana? –
Sorarım mən yavaşca qardaşıma.
– Hansı?
                    – Daim bizimlə bir yerdə
Yaşayan qız, o canlı qız nerdə?
Niyə, qardaş, əyib qərib başını,
Siliyorsun əlinlə göz yaşını?
– Heç?
                    Əvət, üz verib qərib bir hal,
Onu soldatlar etdilər iğfal.
Sonra onlarla eyləyib də səfər,
Orda qeyb oldu sorduğun dilbər.
Keçdi bir il, qayıtdı, pək doğru,
Vardı qoynunda bir kiçik çocuğu.
Qızım Oksana, doğrudur, döndü:
Lakin indi o xeyli küskündü.
Çıxıb ətrafa kimsəsiz gecələr,
Üz-gözündən yağardı bilməcələr.

Dalıb afaqı seyrə başlarkən,
Ona həmdəm gözündə yaşlarkən
Oturub qarşısında bir çəpərin,
Bir kiçik quş qədər həzin, qəmgin
Gah oxur, gah gəzər, gah ağlardı,
Hər nigahında başqa sirr vardı.
Sonra birdən yox oldu, getdi o qız,
Doğrudan, başqa bir mələkdi o qız.
Nə yazıq, bəllidir, böyük yaradan
Ona bəxş etməmiş səadət, inan.
Bəlkə etmişdi bilməm hansı dəni,
Çalaraq qaçdı, getdi taleyini.

*1849*
*Kos-Aral*



# DÜŞÜNCƏLƏRİM

Ey düşüncələrim, düşüncələrim,
Sizin üzünüzdən artdı kədərim.
Neçin bu kağızın üzərində siz,
Tutqun sıralarla düzülmüşsünüz?
Ya sizi çöllərin tozları qədər
Neçin dağıtmayır əssən bu yellər?
Doğma bir qız kimi, söyləyin neçin
Qaplamayır sizi quytu bir hüzün?
Dünyada bulunan acı bəlalar
Sizi istehzaçın yaranmış məgər?
Sizi göy yaşlarım suvardı yalnız,
Nədən bu yaşlarda boğulmadınız?
Sizi aparmadı neçin dənizə,
Neçin yurd olmadı tarlalar sizə?
Bilmədiniz, qara baxtımı neçin,
Qalxıb etmədiyim şiddətlə təlin?
Unudurkən məni bütün insanlar,
Mən də hər qüssədən olurdum kənar.
– Çarə yox... – deyərək istehza ilə
Düşməzdim nəhayət dillərdən-dilə.

Ey düşüncələrim, düşüncələrim,
Qəlbimə ən yaxın aşinalərim.
Bilməm nədən sizi sevib oxşadım,
Sizinlə bir uzun ömür yaşadım?
Sizin arxanızca dünyada ancaq,
Ancaq məndən başqa kim ağlayacaq?

Ey düşüncələrim, düşüncələrim,
Əziz yavrularım – əyləncələrim.

Bəlkə qara qaşlı gözlər bulunar,
Acı yaşlar töküb sizinçin yanar.
Mən çox göz yaşları istəməm əvət,
Mənə bir damlası edər kifayət.
Böyüklərdən böyük olacağım mən,
İştə budur mənə təsəlli verən.

Ey düşüncələrim, düşüncələrim,
Sizinlə yaşamaq çətindir derim.
Edirsiniz elə bir səmtə fərar
Ki, orada qara qaşlı gözlər var.
Sizin arxanızca ürəyim belə
Koşmada bir uzun iztirab ilə.
İştə düşüncələr... canlandırmada,
Qarşımda gəzdirib dolandırmada
Bacardığım qədər bildiklərimi,
Keçmişdə yaşayıb gördüklərimi.
Qaranlıq, kölgəli vişnə bağları,
Dəniz kimi gecə... sevgi çağları.
Atəşli qızların oxşayışları,
Sevdalı bir ömrün yaşayışları.
O şəvətək qaşlar, o qara gözlər,
Dərələr, təpələr, səhralar, düzlər,
Tənha məzarlıqdır düşmədə yada,
Həpsi orda, həpsi Ukrainada.
Lakin ürəkciyim anlamam nədən
Bir söz söyləməyir qürbət ellərdən.
O istəməyir ki, qarlı səhrada,
Əsalar, tuğlarla qurulsun "rada".
Bərraq düzlüklərdə, genişliklərdə,
O ucsuz-bucaqsız görünən yerdə
Sükuta uğrayan hüriyyət qadar



Rahat-rahat uçsun zaporojlular.
O geniş Dnepr, sevimli çöllər,
Qorxunc astanalar, dağlar, qəbirlər,
Orda qaplamışdı tamam hər yeri,
Polyak cəsədləri, tatar leşləri.
Xeyli döyüşdükdən sonra orada,
Orda həpsi daldı sakit uyquya.
Kimisi məhv oldu, kimisi xəstə,
Qəbirlər dikəldi hürriyyət üstə.
Məzarlar üstündə növbət çəkmədə
Orada bir qara qartal indi də.
Bir saz aşiqi də sarsılmaz vəqur,
Azadlıq haqqında nəğmələr oxur.
Keçmiş haqqındakı nəğmələrinə
Yaşlar boşalmada sevinc yerinə.
Vergi verilmişdi Allahdan ona,
Ukraina üçün yazıq mən, amma
Ağlayaraq acı yaşlar töküncə,
Fəqət bilməyirəm sözlərlə necə,
Açayım dərdimi bu insanlara?!
Acı ələm nədir? Yaşayanlara
Sorarım ki, bunu bilməyən varmı,
Yoxsa bu dərdlərimi, bu acılarmı,
Bizə göz yaşları axıtdırmada?
Həssas qəlblilərə dari-dünyada
Daim ağır keçən bu dərdli günlər,
Olur cəhənnəmdən daha çox betər?
Nə qədər ki, məndə qüssələr vardır,
O qədər də tale məndən kənardır.
Gülənlərə isə güləcəyim mən,
Dərdimi qəlbimlə böləcəyim mən.
Görməsinlər deyə göz yaşlarımı,
İnlətməmək üçün ahu-zarımı,

Həpsini sinəmə yığacağam mən,
Şikayətlərimi boğacağam mən.
Burax duyğularım qarğalar kibi
Ötüb uçuşsunlar çılğın, əsəbi...
Coşqun bülbül kimi ürəyim isə,
Azad düşüncəmlə versin səs-səsə.
Örtmədən cismimi qara torpaqlar
Bu dolu gözlərim hər axşam, səhər
Nə qədər qəlbimdə vardır iqtidar
Dərdli yaşlarını axıtmaq istər.
Nə edim ki, gəlmiş bizimki belə,
Ağlasan da birdir, ağlamasan da.
Bədbaxtlara cəfa çəkdirənlərlə
Divan qur, ey Allah, sən bu yaxında.
Ey düşüncələrim, düşüncələrim,
Əziz yavrularım, bircəciklərim.
Harda sizə yer-yurd bulayım, aya?
Gediniz, gediniz Ukrainaya.
Yoxsullara həmdəm olun o yerdə,
Mənsə məhv olayım yalnız bu yerdə.
Ey düşüncələrim, zənnimcə orda,
Bəlkə bulursunuz bir eşqi-sevda.
Onda sevib sizi oxşayacaqlar,
Sizinlə bir yerdə yaşayacaqlar.
Həqiqət ordadır, getsəniz əgər,
Alqışla sizləri təbrik edərlər.
Ey müqəddəs vətən, duyğularımı,
İştə bu ağılsız, yavrularımı
Doğma ana kimi sən də öp, oxşa,
Onlarla bir sevgi həyatı yaşa.

*1839*
*Peterburq*



# DUALAR

## I

Ulu Tanrım, qan içən çarlara sən
Lütf edib bollu qızıl pullar ver,
Onlara ver də ağır zəncirlər.

Bu oğurlanmış olan ölkədəki
Çalışan əllərlə göstər hümmət,
Onlara öz gücünü irsal et.

Bir duam varsa hüzurunda əgər,
İştə: dünyada fəqət, ey Rəbbim,
Söylə, eşqilə döyünsün qəlbim.

*24 may 1860*
*Peterburq*

## II

Qanlı cəlladlara bir göz gəzdir,
Daima onları tut zəncirlə,
Göm məzarlıqlara tədbirinlə.

Daima işçilərin qəsb edilən,
Acı yaşlar tökülən yurdunda
Onlara öz gücünü eylə əta.

Ləkəsiz haqqa tapan qəlblər üçün
Mehriban ruhlu mələklər göndər,
O böyük saflığı hifz etsinlər.

Mənə lakin, ulu tanrım, yalnız,
Yardım et haqqı sevib oxşayayım,
Mehriban dostlara həmrah olayım.

*25 may 1860*

## III

Zülmkar kəsləri uslandıraraq
Qatı zəncirlərə məhkum etmə,
Gömərək torpağa mədum etmə.

Xeyirxah əlləri qüvvətləndir,
Onların yardım edib işlərinə
Qüdsi hökmünlə təravətləndir.

Ləkəsiz qəlblərə bəs? Onlara da
Mehriban ruhlu mələklər göndər,
O böyük saflığı hifz etsinlər.

Bizi bir duyğuya sövq etmək üçün
Bizə dünyada üxüvvət sevda,
Bir də şən cənnətini eylə əta!

*27 may 1860*

## IV

Nəşələr, zəmzəmələr, təntənələr,
Gəmilər, tərli kotanlar, yer-yer,
Gözü ac, qəlbi soyuq şahlar üçün,
O rəzil, duyğusuz allahlar üçün.



İşləyən qollar, ağıllar, lakin
Daimi yoldaşı olsun əməyin.
Sürərək tarlanı, məhsul yerini
Ta ki, biçsinlər öz əkdiklərini.

Ey yerin, həm də göyün xaliqi, sən,
Bir kiçik hissə ayır lütfündən.
Saf ürəkli, təmiz insanlar üçün,
Cənnətində yer ayır onlar üçün.

Bizə yox, çarlara ver!
Qart kotanlar, gəmilər, nemətlər.
Həpsi qoy onların olsun, amma
Bizə bəxş eylə məhəbbət, sevda.

*31 may 1860 Peterburq*

Tərcümə edənlər: ***M.Müşfiq***
***Ə.Cavad***

# KİTABDAKILAR

## UŞAQLAR ÜÇÜN MƏNZUM NAĞILLAR

Şəngül, Şüngül, Məngül ........ 5
Kəndli və ilan ........ 17

## UŞAQLAR ÜÇÜN POEMA

Qaya ........ 29

## TƏRCÜMƏLƏR 1930-1937

**Ömər Xəyyam**
Rübailər ........ 57

**A.S.Puşkin**
Poltava ........ 95

**M.Y.Lermontov**
Şairin ölümünə ........ 100

**M.F.Axundov**
A.S.Puşkinin ölümünə şərq poeması ........ 104

**S.Marşak**
Huşsuza bax, huşsuza ........ 108

**İ.Utkin**
Gecə çeşməsi ........ 111

## ŞƏRİKLİ TƏRCÜMƏLƏR 1930-1934

**Firdovsi**
"Şahnamə"dən

Rüstəm və İsfəndiyar dastanı ........ 115
Sultan Mahmud haqqında həcv ........ 136

**A.S.Puşkin**
Qaraçılar ........ 143

**M.Y. Lermontov**
Demon ........ 168

**Taras Şevçenko (Kobzar)**
İşçi qadın ........ 215
Qafqaz ........ 235
Vəsiyyət ........ 243
"Biz çocuqluq zamanı bir evdə..." ........ 244
Düşüncələrim ........ 247
Dualar ........ 251

MİKAYIL MÜŞFİQ

SEÇİLMİŞ ƏSƏRLƏRİ
III CİLD

| | |
|---|---|
| Buraxılışa məsul | *Vaqif Bəhmənli* |
| Nəşriyyat redaktoru | *Umud Rəhimoğlu* |
| Texniki redaktor | *Mübariz Piri* |
| Kompyuter səhifələyicisi | *Turab Məhərrəmli* |
| Kompyuter operatorları | *Maral Rəisqızı*<br>*Asifə Əfəndi*<br>*Tural Rzayev* |
| Korrektor | *Tofiq Qaraqaya* |

"Avrasiya press" nəşriyyatı
Bakı, Mehdi Hüseyn küçəsi 1a
Tel: (994 12) 439 76 97

Yığılmağa verilmişdir 06.01.08. Çapa imzalanmışdır 29.04.2008
Formatı 70x100 $^1/_{32}$ Fiziki çap vərəqi 8. Ofset çap üsulu.
Tirajı 1000.

*Kitab "E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.*
*Ünvan: Bakı şəhəri, Dərnəgül qəsəbəsi, 3105-ci məhəllə.*
Tel:562-83-03; 563-54-42.
*Direktor: C.Ə. Bağırov.*

Ш6
М97